SONA XƏYAL

YADDAŞLARDA YAŞAYACAQ

BAKI - 2011

Kitab görkəmli ədəbiyyatşünas
Bəxtiyar Məmmədzadənin
əziz xatirəsinə ithaf olunur.

Toplayıb tərtib edən:
AYGÜN İMANZADƏ

Redaktor:
SƏADƏT NƏSİROVA

Ön söz müəllifi:
VÜSALƏ MUSALI
filologiya üzrə fəlsəfə doktoru

Sona Xəyal. Yaddan çıxmayacaq.
Bakı–"MBM –2011. 100 səh.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun böyük elmi işçisi, Azərbaycan Yazıçılar Birliyinin "İRS" komissiyasının sədri, 70-dən artıq kitabın (təlif və tərtib) müəllifi Sona Xəyalın "Yaddan çıxmayacaq" adlı növbəti kitabında müxtəlif illərdə çap olunmuş məqalələr toplanmışdır.

ISBN 978-9952-29-045-8

© S.Xəyal, 2011
Bakı, "MBM"

SONA XƏYAL QƏLƏMİNDƏ AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞI MƏSƏLƏLƏRİ

Əlyazmalar İnstitutunun böyük elmi işçisi, tanınmış ədəbiyyat tənqidçisi, publisist və şairə Sona Xəyal klassik şeirlə bağlı iyirmiyə yaxın təlif və tərtib kitabının müəllifidir. Sona xanımın tədqiqatlarının böyük bir qismi Bakı ədəbi mühitinin yetişdirdiyi şairlərin həyat və yaradıcılığına həsr olunmuşdur. Tədqiqatçının bu qəbildən olan "Mirzə Əbdülxalıq Yusif" (həyat və yaradıcılığı), "Əlli yaşlı xəzinədən əlli məqalə", "Əliabbas Müznib Bakı və bakılı şairlər haqqında", "Maştağa ədəbi mühiti və Mircəlal" kitablarını göstərmək olar. Sona Xəyal həm də Bakı-Abşeron ədəbi mühitində yaşayıb-yaradan şairlərin silsilə şeir toplularını nəşrə hazırlamış, o cümlədən Mirzə Əbdülxaliq Yusifin "Diriltdi aləmi eşqin nidası", Səməd Mənsurun "Əsərlər", Əmin Abidin "Seçilmiş əsərlər", Əliabbas Müznibin "Seçilmiş əsərləri", Mirzə Həsib Qüdsinin "Mehriban qardaş tək ülfət eyləyək", Əbdülxalıq Cənnətinin "Vətən tərənəsi", Hacəli Pərişanın "Gəl edək qeyrətü hümmət" və başqa kitabları işıq üzü görmüşdür.

Qəzet və jurnallarda, eləcə də konfrans materiallarında müəllifin klassik şeirlə bağlı iki yüzdən artıq məqaləsi dərc olunmuşdur. Sona xanımın "Müasirlərim" seriyasından iyirmiyə yaxın monoqrafiyası çap edilmişdir. Bunların arasında "Mailin ünvanı vətəndir", "Rəsul Rza, "Cabir Novruz", "Nigar Rəfibəyli", "Elçin", "Fikrət Qoca", "Samət Əlizadə", "Zeynal Xəlil", "Əli Tudə", "Adil Babayev" və başqa əsərləri sadalamaq mümkündür.

Sona Xəyalın məqalələrindən ibarət bu kitab onun ədəbiyyatşünaslıq məsələləri barədə müxtəlif illərdə dərc etdirdiyi yazılarını əhatə edir. Kitabın adı müəllifin çox dəyər verdiyi müəllimi, Bakı Dövlət Universitetinin dosenti, mərhum Bəxtiyar Məmmədzadə haqqında yazdığı məqalənin sərlövhəsindən götürülmüşdür: "Yaddan çıxmayacaq". Sona xanım bu kitabının

epiqrafında əsəri görkəmli ədəbiyyatşünas Bəxtiyar Məmmədzadənin əziz xatirəsinə həsr etdiyini yazır.

"Rəsul Rza poeziyası ədəbi tənqiddə" adlı məqaləsində S.Xəyal, Simuzər İsmayılovanın eyni adlı monoqrafiyasından bəhs edir. Sona xanım Rəsul Rzanın əsərlərinə yönəlmiş ədəbi tənqiddən bəhs edərkən yazır: "Bədxahları Rəsul Rzanı nə qədər çox tənqid edirlərsə, onun yaradıcılığına bir o qədər çox müraciət olunur, əsərləri bir o qədər çox tədqiq olunur və haqqında məqalələr, monoqrafiyalar çap olunur". Sona Xəyal bu məqaləsində monoqrafiyanı fəsillər üzrə təhlil etmişdir. Belə ki, monoqrafiyanın girişində Rəsul Rza yaradıcılığından və görkəmli tənqidçilərin bu yaradıcılığa münasibətindən söz açıldığı, şair haqqında müxtəlif illərdə nəşr olunmuş Azərbaycan və rus dillərində kitabların adlarının sadalandığı, birinci fəsildə isə Rəsul Rzanın H.Cavid, C.Cabbarlı, S.Vurğun, S.Rüstəm kimi şairlərlə bir sırada görüldüyü, şairin yaradıcılığının hələ XX əsrin 30-cu illərindən üzü bəri tənqid obyekti olduğu diqqətə çatdırılır.

Kitabdakı məqalələrdən biri də Sədnik Paşa Pirsultanlının "Aşıq Şəmşirin poetik aləminə səyahət" başlıqlı kitabına həsr olunmuşdur. S.Xəyal məqalənin əvvəlində son illərdə Azərbaycan aşıq sənətinin dünya miqyasında təbliğ olunduğunu, bu sahədə xeyli işlər görüldüyünü, Heydər Əliyev Fondunun dəstəyi ilə aşıq sənətinin dünyaya tanıdıldığını, tədqiqatçıların nəşr etdirdiyi kitabların öz bəhrəsini verdiyini qeyd edir. Daha sonra monoqrafiyanın fəsilləri ayrı-ayrılıqda nəzərdən keçirilir. Sona xanım məqaləsinin sonunda bu əsərin aşıq ədəbiyyatını sevənlər, bu sahədə tədqiqat aparanlar üçün, eyni zamanda gələcək nəslin aşıq sənətimizi öyrənməsi baxımından dəyərli vəsait olduğunu qeyd edir.

Hacı Soltanın "Yaşamaq, yaşatmaq, yaratmaq" adlı toplusu haqqında məlumata da bu kitabda rast gəlirik. Axund, qazı və həm də şair olan Hacı Soltanı başqa din xadimlərindən fərqləndirən cəhət vaxtaşırı oxucuların ixtiyarına verdiyi kitablardır. Onun ərsəyə gətirdiyi kitablar arasında tarixlə bağlı yazdıqları daha çox diqqəti çəkir. Hacı Soltanın "Yaşamaq, yaşatmaq,

yaratmaq” adlı toplusunda da, əvvəlki kitablarında olduğu kimi, istər dini, istərsə də ədəbi yazılar öz sanbalı, fikir zənginliyi baxımından diqqət çəkir. S.Xəyal müəllifin söz açdığı bir sıra şəxsiyyətlərin şəkillərinin oxuculara təqdim olunmasını kitabın maraqlı cəhətlərindən biri olduğunu bildirir və kitabın istər tarixilik baxımından, istər dini, istər elmi-ədəbi cəhətdən oxucular üçün böyük əhəmiyyət kəsb etdiyini yazır.

Kitaba daxil edilmiş məqalələrdən biri də “Novxanı” əsəri haqqındadır. Əsərin təsisçisi və redaktoru V.Ağayevdir. S.Xəyal məqaləsində bu kitabı da əvvəldən-axıra təhlil etmişdir. Sona xanım kitabın “Şəxsiyyətlər” adlanan birinci fəslində 110 nəfər novxanılı haqqında ayrı-ayrı yazıların verildiyini, maraqlı insanlar haqqında dəyərli məlumatların yer aldığını, səkkiz idmançı gəncdən bəhs olunduğunu, Novxanının memarlıq quruluşundan, məscidlərindən, hamam və ovdanlarından söz açıldığını qeyd edir. Sözügedən kitab yalnız bir kəndi əks etdirmir. Burada Azərbaycanın tarixinə qısa bir baxış var. Burada Azərbaycan xalqının milli adət-ənənələrinin əksi var. Burada mənəvi dəyərlərimizə hörmət və rəğbətin ifadəsi var” cümlələri ilə məqaləyə yekun vurulmuşdur.

Yazıçı Hüseynbala Mirələmovun yaradıcılığına həsr olunmuş və Elçin Kamal ilə Fariz Çobanoğlu tərəfindən qələmə alınmış kitab haqqında da öz fikir və mülahizələrini qələmə almışdır Sona Xəyal. Onun təhlil etdiyi əsərə 31 məqalə daxil edilmişdir. Yazısının sonunda müəllifin belə bir fikrinə rast gəlirik: “Hər iki müəllif bu kitabın ərsəyə gəlməsi üçün xeyli zəhmət çəkmişlər. Kitaba daxil edilən yazılarda Hüseynbala Mirələmovun yaradıcılığı haqqında digər müəlliflərin yazılarından da istifadə edilmişdir”. Amma müəllif hər iki müəllifin yazılarında çoxlu təkrarlara rast gəlindiyini də ifadə etmişdir.

Bunlardan əlavə, oxucuların diqqətinə təqdim olunan bu kitabda Lətif Süleymanlının “Vahid Əlioğlunun poetikası”, Leyla Məcidqızının “Yusif Vəzir Çəmənzəminli və rus mədəniyyəti”, Qurban Bayramovun “Poeziyanın sirri”, Şakir Albalıyevin “Azərbaycan nağıllarında şah obrazı”, Fazil Qaraoğlunun “Türk

millətinin tarixi, qurduğu dövlətlər və ata-babaları", Nəsib Göyüşovun "Milli sənətin nəzəri təhlilinə giriş", Tərlan Novruzovun "Orta əsrlər Qərb ədəbiyyatı", Seyidmiri Aslanovun "Mirzə Əliəkbər Sabir yalnız şair idimi?", Roza Eyvazovanın "Dil tariximizdən", Əzizxan Tanrıverdiyevin "Kitabi-Dədə Qorqudda şəxs adları" adlı kitabları haqqında dəyərli məqalələri yer almışdır. Topluda Sona Xəyalın "Nəsirəddin Tusi elm haqqında" və "Dərviş Nidainin "Mənafeün-nas" əsəri və onun dili" adlı klassik irsimizlə bağlı yazılarına da rast gəlirik.

Kitabında Bakı Dövlət Universitetinin dosenti, dəyərli alim, mərhum Bəxtiyar Məmmədzadə haqqında "Yaddaşlarda yaşayacaq" sərlövhəli məqaləsi diqqət çəkir. Müəllif bu məqaləni Bəxtiyar müəllimin vəfatı münasibətilə qələmə almışdır. Burada dərin biliyi, intellektual düşüncəsi, əhatəli nitqi, bütün insani dəyərləri özündə ehtiva edən şəxsiyyəti, eyni zamanda heç kəsə bənzəməyən zahiri davranışı, rəftarı ilə seçilən Bəxtiyar müəllim haqqında keçmiş zamanda danışmağın nə qədər ağır olduğunu qeyd etmişdir. Məqalədə B.Məmmədzadənin həyat və yaradıcılığı, elmi fəaliyyəti, əsərləri haqqında məlumat verilmişdir. Sona Xəyal ən sevimli müəllimindən ürək dolusu danışır və onu "bəxtiyar tələbələrin bəxtinə düşən Bəxtiyar müəllim" kimi xarakterizə edir və məqaləsini bu sətirlərlə tamamlayır: "Bəxtiyar Məmmədzadənin kitabları haqqında, habelə müxtəlif məqalələri haqqında çox danışmaq olar, hətta elə onun özü haqqında belə bir kitab yazmaq olar. Çünki Bəxtiyar müəllim mənalı, təmiz bir ömür yaşamış, araşdırılmalı, tədqiq olunmalı olduqca dəyərli elmi irs qoyub getmişdir".

Son olaraq, S.Xəyalın uzun illər apardığı elmi axtarışların bəhrəsi olan bu nəşrin Azərbaycan elmi ictimaiyyəti, ədəbiyyatşünaslar və ədəbiyyatsevərlər üçün yeni bir töhfə olacağını ümid edirik.

Vüsalə Musalı
filologiya üzrə fəlsəfə doktoru,
AMEA Füzuli adına Əlyazmalar İnstitutunun
böyük elmi işçisi, BDU-nun müəllimi

“RƏSUL RZA POEZİYASI ƏDƏBİ TƏNQİDDƏ”

Gərək ki, kitabları yandırılan Volter demişdi: ”Mənim kitablarım şabalıd kimidir, nə qədər qovrulurlarsa, bir o qədər dadlı olurlar.” Hər dəfə xalq şairi Rəsul Rza haqqında yeni kitab nəşr olunanda yadıma bu sözlər düşür. Çünki, bədxahları Rəsul Rzanı nə qədər çox tənqid edirlərsə, onun yaradıcılığına bir o qədər çox müraciət olunur, əsərləri bir o qədər çox tədqiq olunur və haqqında məqalələr, monoqrafiyalar çap olunur. Bu baxımdan “Elm və təhsil” nəşriyyatında yenicə çapdan çıxan Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı Simuzər İsmayılovanın “Rəsul Rza poeziyası ədəbi tənqiddə” adlı monoqrafiyası diqqəti cəlb edir. Kitabın elmi redaktoru və ön sözün müəllifi mərhum professorumuz filologiya elmləri doktoru Şamil Salmanov, rəyçiləri filologiya elmləri doktoru, professor Zaman Əsgərli, filologiya üzrə fəlsəfə doktoru Qürbət Mirzəzadədir.

Hiss olunur ki, monoqrafiya namizədlik dissertasiyasıdır. Ön sözün müəllifi Şamil Salmanov monoqrafiyanı əhatəli şəkildə təqdim etmiş, həm Rəsul Rza yaradıcılığına, həm də müəllifin işinə qiymət vermişdir. Rəsul Rza poeziyasının hələ 30-cu illərdən ədəbi tənqidin diqqətini cəlb etdiyini, M.Hüseyn, Ə.Nazim, M.Quliyev, M.Arif kimi tənqidçilərin məqalələrində şairin yaradıcılığından söz açıldığını qeyd edən müəllif yazır: “Monoqrafiyada R.Rza poeziyası haqqında tənqidin mərhələləri, əsas istiqamətləri müəyyən edilmiş, tənqidin bu poeziyanın problemlərinə və axtarışlarına münasibəti təhlil olunmuşdur. Bu elmi vəzifəni həll etmək üçün isə tədqiqatçı çoxlu materialı nəzərdən keçirməli, onu sistemləşdirməli və ümumiləşdirməli idi. Demək lazımdır ki, S.İsmayılova bu elmi vəzifənin öhdəsindən gələ bilmişdir.

R.Rza poeziyasının tənqiddə dərin mənimsənilməsi heç də həmişə hamar və asan olmamışdır. Bu isə əgər bir tərəfdən R.Rza şeirinə xas yaradıcılıq axtarışlarının mürəkkəbliyi və ciddiliyi, şairin ənənələrə münasibətinin fərdi, yaradıcı xarakteri ilə, novatorluğun bu poeziyada milli poeziyanın gələcək inkişaf meylləri ilə bağlı idisə, digər tərəfdən bu, tənqidin metodoloji çətinliklərindən, bəzən novatorluğu ehkamçı meyarlarla ölçməsindən, sosialist realizminin məhdud, dar düşüncəsindən irəli gəlirdi.”

Simuzər İsmayılova əsərin girişində Rəsul Rza yaradıcılığından və görkəmli tənqidçilərin bu yaradıcılığa münasibətindən söz açır. Burada şair haqqında müxtəlif illərdə nəşr olunmuş həm azərbaycanca, həm də rusca kitabların adlarını diqqətə çatdıran müəlif bu əsərlərdə şairin poeziyasına müraciətdən və ona verilən qiymətdən bəhs edir.

Monoqrafiyanın I fəsli “Müasirlik: poeziyada və tənqiddə” adlanır və üç bölümdən ibarətdir. “Yenilik axtarışları” adlı bölümdə tənqidçi Rəsul Rzanı H.Cavid, C.Cabbarlı, S.Vurğun, S.Rüstəm, M.Müşfiq, kimi şairlərlə bir sırada görür, şairin yaradıcılığının hələ 30-cu illərdən üzü bəri tənqid obyekti olduğunu diqqətə çatdırır və Məmməd Arifin bu poeziyaya verdiyi qiymətdən əhatəli söz açır.

“Poeziyanın novatorluğu və tənqid” adlı bölümdə tənqidin Rəsul Rza yaradıcılığına münasibəti açıqlanır və burada ən çox haqsız tənqidlərə məruz qalan Rəsul Rzanı görürük. Amma o zaman da şairi müdafiə edən, onun novatorluğunu başa düşən, onu qiymətləndirən sənət dostları vardı. Ən əsası isə Rəsul Rza geri çəkilən, hər sözdən tez sınan adam olmadığı üçün bu tənqidlərə sinə gərməyi bacarmışdır.

Üçüncü bölüm “Poemanın tənqidi, tənqidin ehkamları” adlanır və burada söhbət şairin “Lenin” poemasindan gedir. Burada bir sıra tənqidçilərin fikirlərinə istinad edərək, öz fikirlərini oxucuya çatdırmağa çalışan müəllif fikrini belə yekunlaşdırır:”Poemanın tənqid tərəfindən R.Rzanın yaradıcılıq axtarışlarının yekun hadisəsi kimi qiymətləndirilməsi

xüsusi qeyd olunmalıdır. Tənqidin bəzi nümunələrində əsərin janr və üslub özünəməxsusluğunun da aydınlaşdırılmasına təşəbbüs göstərilmişdir. Lakin bununla belə R.Rza poemasının bir çox yaradıcılıq problemlərinin ya tənqidin diqqətindən kənarda qaldığı, ya da lazımi dərinlik və tutumluluqla işlənilmədiyi də qeyd olunmalıdır."

Monoqrafiyanın II fəsli "Tənqid və poeziyanın yeni mərhələləri" adlanır və üç hissədən ibarətdir. "Yeni mərhələ, yeni təhlil" bölümündə artıq şairin 50-ci illərin ortalarından üzü bəri yaradıcılıq nümunələrinin yeni mərhələnin məhsulu kimi tənqidin diqqətini cəlb etməsinin şahidi oluruq. Xüsusilə də 60-cı illərdən daha da bariz şəkil alan bu mərhələdə yeni br Rəsul Rza var. "Lirik qəhrəman və ədəbi tənqid" bölümündə Rəsul Rza yaradıcılığının təkcə forması ilə deyil, yaradıcılığında əsas götürdüyü ədəbi-estetik prinsiplər ilə də yeni, novator poeziya kimi diqqəti cəlb etdiyi xüsusi vurğulanır və Rəsul Rza şeirinin lirik qəhrəmanı hərtərəfli tədqiqata cəlb olunur, onun xarakterik xüsusiyyətlərində qabarıq cəhətlər ön plana çəkilir. Bütün bunları əhatəli şəkildə araşdıran Simuzər İsmayılova yazır: "R.Rzanın 60-cı illər lirikası haqqında tənqidin təhlilindən belə nəticəyə gəlmək mümkündür: bu lirikanın fəlsəfiliyi, insani gözəlliyi və səmimiyyəti hər şeydən əvvəl, onun ifadə etdiyi, bu lirikanın məğzini təşkil edən insan konsepsiyasıdır. Bu konsepsiya isə təsdiq edir ki, insan sosial cəhətdən fəal və güclüdür, insanın hissi və fikri imkanları tükənməzdir..."

"Tənqidin "Rənglər" silsiləsinə münasibəti" adlı bölümdə elə adından göründüyü kimi tənqidin şairin məşhur "Rənglər"inə olan münasibətidir. Buna ayrıca bölmə ayrılması da çox təbiidir. Çünki şairin 60-cı illərdə yaranan əsərləri içərisində ən çox diqqəti cəlb edən bu silsilədir və ən çox anlaşılmayan, tənqid olunan da elə bu şeirlər olmuşdur. S.İsmayılova bütöv bir bölümdə həm bu silsilə haqqında, həm də tənqidin bu silsiləyə münasibəti haqqında əhatəli araşdırma aparmış və bu silsiləni bəyənən tərəflərə də

xeyli yer ayırmışdır.

Kitabın sonunda verilən ədəbiyyat siyahısından da görünür ki, tədqiqatçı-alim Simuzər İsmayılova bu monoqrafiya üzərində böyük səylə işləmiş və ortaya dəyərli bir tədqiqat əsəri qoymuşdur.

"Paklıq" qəzeti, dekabr, 2011

"AŞIQ ŞƏMŞİRİN POETİK ALƏMİNƏ SƏYAHƏT"

Son illər Azərbaycan aşıq sənəti dünya miqyasında təbliğ olunmağa başlamış, bu sahədə xeyli işlər görülmüşdür. Heydər Əliyev fondunun dəstəyi ilə aşıq sənətimizin də muğam sənətimiz kimi dünyaya tanıdılması, Azərbaycan Aşıqlar birliyinin təşkil etdiyi tədbirlər, telekanalların zaman ayırdığı verilişlər, eyni zamanda alimlərin, tədqiqatçıların nəşr etdirdiyi kitablar öz bəhrəsini artıq verməkdədir.

Aşıq sənətimizlə bağlı oxuculara təqdim olunan maraqlı kitablardan biri də filologiya elmləri doktoru, professor Sədnik Paşa Pirsultanlının "Təknur" nəşriyyatında çap olunmuş "Aşıq Şəmşirin poetik aləminə səyahət" kitabıdır. Kitabın elmi redaktoru Folklor İnstitutunun Mifologiya şöbəsinin müdürü, f.e.n. Seyfəddin Rzasoy, redaktoru şair-publisist Qənbər Şəmşiroğludur.

Seyfəddin Rzasoy kitaba yazdığı "Sənətkar sözü–alim sözü: Aşıq Şəmşir və Sədnik Paşa Pirsultanlı" adlı ön sözünə elə sözün tərifi ilə və Füzuli heyrəti ilə başlayır. Sonra "elmin həm aşiqi, həm də alimi" kimi təqdim etdiyi Sədnik Paşa Pirsultanlının elmi fəaliyyətindən, folklor elminə verdiyi töhfələrdən söz açan müəllif bizə onun Aşıq Şəmşirin ömür yolundan, yaradıcılığından danışan monoqrafiyasını təqdim edir və "Prof. S.P.Pirsultanlının bütün elmi fikirlərini vahid üslubi xət –dəqiqliyi və dərinliyi ilə səciyyələnən sadəlik billəşdirir" qənaətinə gələrək, Aşıq Şəmşirin mühütü, həyatı, yaradıcılığı haqqında alimin elmi görüşlərindən danışır.

Aşıq Şəmşirin şəkli və "Sədnik Paşa müəllimə yadigar eləyirəm" sözləri olan avtoqrafından sonra qısa, yığcam giriş hissə gəlir. Monoqrafiyanın girişində Aşıq Şəmşirin sələflərindən söz açan müəllif onun hansı mühütdə yetişdiyini oxuculara çatdırmağa çalışmışdır. Elə ilk abzasdan tədqiqatçının Aşıq Şəmşır yaradıcılığına olan münasibətini açıq-aydın görürük: "XX əsr Azərbaycan aşıq poeziyasının ən tanınmış və məşhur simalarından biri Aşıq Şəmşirdir. Əgər XVI əsrdə Dirili Qurbani, XVII əsrdə Tufarqanlı Abbas, XVII-XVIII əsrlərdə Xəstə Qasım, XVIII əsrdə Abdalgülablı Valeh, XIX əsrdə Aşıq Ələsgər aşıq poeziyasına öncüllük edib sənətin zirvəsində dayanırdılarsa, XX əsrdə çox böyük aşıq-şairlər yetişmişdir. Lakin onlardan heç biri Şəmşir zirvəsinə yüksələ bilməmişdir. Aşıq Şəmşir XX əsrin saz-söz haqqında yazılmış kitablarının qızıl səhifəsinə öz adını yazmış və üzərinə öz möhürünü vurmuşdur." Müəllif burada Aşıq Şəmşirin ulu babası Miskin Abdaldan söz açaraq, onun Şah İsmayıl Xətainin yaxın dostu olduğunu, Çaldıran döyüşündə onunla çiyin-çiyinə vuruşduğunu diqqətə çatdırır. Kitabda Şah İsmayıl Xətainin öz dəst-xətti və möhürü ilə Miskin Abdala verdiyi şəhadətnamənin fotosurəti verilmişdir.

Daha sonra aşığın babası Miskin Abdalın, atası Ağdabanlı Qurbanın "Dağlar" və Aşıq Şəmşirin "Dağların" şeirlərindən sitatlar verərək, müqayisəli təhlil aparan tədqiqatçı Aşıq Miskinə bir qədər çox yer ayırır və yenidən Aşıq Şəmşirə keçid alır.

Monoqrafiyanın birinci bölümünün "Aşıq Şəmşir və dağlar" adlanması da təsadüfi deyildir. Görünür aşığın yaradıcılığında bu, önəmli mövzulardan biridir. "Dağlar" şeirində yazır:

Süsənli-sünbüllü, al-əlvan rəngli,
Çiyələkli, yaşıl meşə ətəkli,
Nərgiz kəlağaylı, lalə gərdəkli,
Al bəzəlki, təzə gəlindi dağlar.

Şairin doğulduğu yerin tərifini verən müəllif uca dağlardan, buz bulaqlardan, yaşıl meşələrdən söz açır, aşığın yaradıcılığında coğrafi toponimlərə çox yer verildiyini qeyd edir. “Ana yurd”, “”Mənim kimi”, “Bir səhər mehi”, “Beh mənə”, “Görəydim”, “Çilgəz”, “Kəpəzin”, “Gəl” adlı qoşmaları təhlilə çəkən tədqiqatçı-alim həm təbiətin əsrarəngiz gözəlliklərindən söz açır, həm də aşığın ilhamına bələnən, şeirləşən, misralanan, obrazlı şəkildə oxucuya təqdim olunan təbiətə aşığın münasibətini göstərir. “Dağların heç bir gözəlliyi Aşıq Şəmşirdən gizli qala bilmir” deyən müəllif yazır: ”Şəmşir təkcə aşıq-şair deyildi, həm də bəstəkar idi. Dağların rüzgarı, bulaqların zümzüməsi onun çaldığı havalara yeni çalarlar bəxş edirdi. Aşıq Şəmşir çalanda dinlədikcə dinləmək istəyirdin. Həm də onun zehnində, yaddaşında xalqımızın tarixi yaşayırdı.”

Sədnik Paşa Aşıq Şəmşir yaradıcılığını bizə bütöv təqdim etməyə çalışır. Onun dağlara həsr olunmuş yaradıcılığını qeyd etməklə bərabər, dağlarla əlaqəli çoxlu əfsanə və rəvayətlər bildiyini göstərir. Hətta ondan eşitdiyi “Keyti dağı”, “Ovçu Pirim və qardaşı Kərənə” rəvayətlərini, “Naxo Nəbi” adlı sərgüzəşti qələmə alıb kitablarına daxil etdiyini bildirir və həmin materialları da təhlilə çəkərək yazır: ”Bu qədər əfsanə və rəvayətləri, dastanları, lətifələri, atalar sözlərini yalnız Şəmşir kimi böyük sinədəftər, kamil bir insan öz daxili aləmində, mənəvi dünyasını zənginləşdirərək sənətin fövqünə yüksələ bilərdi. Şəmşirin daxili poetik aləmi bitib-tükənməyən bir xəzinədir. Onun bilmədiyi nə var idi?!..”

Bölümün sonunda müəllif Bəhmən Vətənoğlunun və Şücaətin Aşıq Şəmşirə ünvanladığı şeirlərindən də danışır və sitatlar verir. “Hər aşıqdan Aşıq Şəmşir, hər şairdən Səməd olmaz” deyən Vətənoğlu da,

Mən fəxr edirəm ki, Kəlbəcərliyəm,
Şairlər yetirən elim var mənim.
Xalqımın incilər xəzinəsində
Aşıq Şəmşir kimi ləlim var mənim.

deyən Sücaət də aşığa olan məhəbbətini beləcə qürur hissi ilə yazıblar.

Monoqrafiyanın ikinci bölümü "Aşıq Şəmşir və Səməd Vurğun" adlanır. Burada verilən şəkildə iki böyük sənətkarı camaat arasında əl verib görüşən yerdə görürük. Bir qoşmasını eşitməklə Səməd Vurğunun təsirlənib, Şəmşir şeirinin tilsiminə düşdüyünü qeyd edən müəllif, Kəlbəcərdəki görüşdə Səmədin qələm dəftərlə, Şəmşirin sazla meydana girdiyini bildirir və yazır: "Səməd Vurğun Aşıq Şəmşirin göz açıb dünyaya baxdığı dağları, bulaqları bir bənd şeiri ilə bir tabloya gətirdi, göz önündə canlandırdı. Şeir belədir:

Aşıq Şəmşir, Dəlidağdan keçəndə,
Kəklikli daşlardan xəbər al məni.
Ceyran bulağından qızlar içəndə,
Saz tutub, söz qoşub yada sal məni.

Aşıq Şəmşirin cavab qoşmasındakı bircə misra Səməd Vurğunu həyəcana gətirdi, varlığını tərpətdi. Aşığın böyüklüyünü, azman sənətkar olduğunu hiss etdirdi: "Qoşqarla yanaşı duran adın var".

Bu bölümdə Aşıq Şəmşirin "Vədəsində", "Kəklik", "Bülbül", "Xoş gəlib", "Bir də gəl"qoşmalarından, "Gəlsin, gəlməsin", "Məni", "Yaralı dağlar", "Ay yarım ola" adlı təcnislərindən söz açan müəllif hər bir şeirin üzərində dayanır, onu təhlilə çəkməyə, fikrini oxucularla bölüşməyə çalışır.

Monoqrafiyanın üçüncü bölümü "Aşıq Şəmşirin sələfləri və xələfləri" adlanır və elə adından göründüyü kimi burada tədqiqatçı aşığın sələflərindən və xələflərindən bəhs açır. İlk əvvəl Dirili Qurbanidən danışan tədqiqatçı onun 63 məsailinin özündən sonrakı sənətkarlar üçün örnək olduğunu diqqətə çatdırır. Burada "məsail" sözünün mənasını açıqlamaq istəyən alim Nizami "Xəmsə"sinə müraciət edir, "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "İsgəndərnamə" kimi poemaların əvvəlində verilmiş minacat və meracnamələrdən söz açır və araşdırmalar apararaq, yazılı ədəbiyyatdakı Al-

laha, peyğəmbərə həsr edilmiş şeirlərin şifahi xalq ədəbiyyatındakı məsaillərlə eyni mövzuda olması qənaətinə gəlir. "Dirili Qurbani Şifahi xalq ədəbiyyatına, onun canlı və hərəkətdə olan qoluna, aşıq sənətinə dərindən bələd olduğu kimi, klassik yazılı ədəbiyyata da eyni dərəcədə bələd olmuş və onların hamısından tükənməz bir qaynaq kimi istifadə etmişdir" yazan müəllif həmin 63 məsailin Allahdan, peyğəmbərlərdən, imamdan bəhs edən ilk bəndlərini bizə təqdim edir və məsailin ayrı-ayrı bəndlərində Fatimeyi-Zəhradan, on iki imamdan və s.-dən danışıldığını bildirir.

Burada Dədə Yedigarla Qurbaninin deyişmələrindən birini də təqdim edən tədqiqatçı Miskin Abdalın da məsail formasına biganə qalmadığını və onun məsaillərindən bir neçə bəndin bizə gəlib çatdığını bildirir. Sonra Miskin Abdalın, Ağdabanlı Qurbanın, Aşıq Şəmşirin məsaillərindən söz açır və sitatlar verir. Burada Ağdabanlı Qurbanın yaradıcılığına xeyli yer verilir. Daha sonra Aşıq Rəcəbin şeir yaradıcılığından danışan müəllif onun "Kəklik" şeirini Aşıq Şəmşirin "Kəklik" şeiri ilə müqayisədə təqdim edir.

XIX əsr aşıqlarından Maralyanlı Pərinin, Şəmkirli Aşıq Həmayilin, Şirvanlı Aşıq Sonanın hərəsinin beş-on qoşmasının qaldığını diqqətə çatdıran tədqiqatçı Aşıq Bəstinin əhatəli şeir və dastan yaradıcılığının bizə gəlib çatdığını bildirir.

Aşıq Şəmşirin Miskin Vəli ilə görüşü, Məmməd Arazla, Zəlimxan Yaqubla görüşü və bu görüşləri yaşadan xatirələr də kitabda yer alır.

"Aşıq Şəmşirin poetik aləminə səyahət" adlanan dördüncü bölümdə Aşıq Şəmşir yaradıcılığının lirik çalarları ilə yaxından tanış oluruq. Burada məhəbbət naxışları da var, dostluq alqışları da var. Hər şeirdən bir bənd, hər mövzudan bir detal bizi aşığın iç dünyasına aparır.

Kitabın sonunda "Tarixi naxışlar: gözəl xatirələr və yadigar sözlər" silsiləsində aşığın oğlu Qənbər Şəmşiroğlunun "Qurban–Şəmşir ocağı və Sədnik Paşa", Əbülfət islamın "Şair-publisistin səmimi ürək sözləri", müəllifin "Aşıq

Şəmşir pərəstişkarlarının arzusu” adlı yazılar verilmişdir.

Sədnik Paşa Pirsultanlının tədqiqatları aşıq ədəbiyyatını sevənlərin, bu sahədə tədqiqat aparanların, eyni zamanda gələcək nəslin aşıq sənətimizi öyrənməsi baxımından dəyərli vəsaitdir. Kitabın dili sadədir. Bəzi məqamlarda poetik fikirlər adamı tutur. Burada alim qələmi ilə yanaşı bir şair qələmi də hiss olunur. Ona görə də kitab elmi əsər olsa da, sadə adamların oxuyub başa düşəcəkləri tərzdə oxunaqlıdır. Kitaba daxil edilmiş şəkillər onu daha da zəngin və maraqlı edir.

“Bütöv Azərbaycan” qəzeti, 12.10.11

“YAŞAMAQ, YAŞATMAQ, YARATMAQ”

Hacı Soltanı tanıyanlar ona sadəcə axund kimi, qazi kimi, ümumiyyətlə, din xadimi kimi baxmırlar, həm də bir ədəbiyyat adamı kimi ortaya qoyduğu kitabları səbirsizliklə gözləyirlər. Onu başqa din xadimlərindən fərqləndirən də elə vaxtaşırı oxucuların ixtiyarına verdiyi kitablarıdır. Hacı Soltan şairdir, şeirlərinin böyük əksəriyyəti də dini mövzudadır. Amma onun ərsəyə gətirdiyi kitablar içərisində tarixlə bağlı yazdıqları daha çox diqqəti çəkir. O burada da tarixçilərdən fərqlənir. Çünki, tarix kitablarını oxuyub, araşdırıb yazmır. O, canlı insanlarla görüşüb, onların söhbətlərini yazır. Yaxın keçmiş olsa da, gələcək nəsillərə gərəkli olan məqamları qələmə alır və həmin yazıları kitab-kitab toplayıb çap etdirir. Bu mənada onun ən maraqlı kitablarından biri də “Yaşamaq, yaşatmaq, yaratmaq” adlı toplusudur.

Kitabın əvvəlində Buzovna kəndinin gözəl ziyalıları ilə tanış oluruq. Təsadüfi deyil ki, müəllif kitabı buzovnalı xeyriyyəçi Nadir İmamnəzər olğu Quliyevin xatirəsinə ithaf etmişdir. Kitab Azərbaycan respublikasının dövlət himni ilə açılır, sonra Heydər Əliyevin Azərbaycan yazıçılarının X qurultayında söylədiyi nitqindən bir hissə gəlir.

Kitabın redaktorları Hacı Nazim və Hacı Aydının giriş

sözü də burada yer alır. Nəhayət, Hacı Soltanın "Yaşamaq və yaşatmaq nə deməkdir?" adlı yazısını oxuyuruq. Quranikərimin ayələrini sitat kimi verib fikirlərini əsaslandıran müəllf, peyğəmbərin 41 hədisindən 40-cısı olan "Daim yazılan savab yolları"nı təqdim edib, açıqlama verir. Daha sonra şeirlərdən sitat verən tədqiqatçı Buzovna kəndində doğulub, bu ədəbi mühütdə yazıb-yaradan şairlərdən söz açır və ədəbiyyat tariximizə qısa səyahət edərək, fikrini Hüseyn Cavidin "Azər" poemasının "Yaşamaq və yaşatmaq" bölməsindən şeir parçaları ilə yekunlaşdırır.

Hacı Soltan "Ad" haqqında nə bilirik?" adlı yazısını Allahın adı ilə və Füzuli, Nizami sözü ilə başlayır. Bu yazıda da Quran həqiqətlərindən,Peyğəmbər hədislərindən bəhs edən müəllif uşaqlara qoyulan adların mənalarını bilməyin vacibliyini qeyd edir və peyğəmbər, imam adlarına müraciət edərkən məsuliyyətli olmağın gərəkliliyini vurğulayır. Burada Allahın adları ilə bağlı rəvayətlərdən də söz açılır. Xətaidən, Seyid Əzimdən ad ilə bağlı misraları təqdim edən müəllif ad ilə bağlı bir sıra nəsr əsərlərinə, hətta tarixi əsərlərə də müraciət edir. Məqalədə dini ədəbiyyatla bədii ədəbiyyatın növbələşməsi onu göstərir ki, Hacı Soltan xurafat və fanatizmdən uzaqdır. O, dini fikirlərə müraciət etməklə yanaşı sadə, müasir oxucunun, kütlənin başa düşə biləcəyi bir tərzdə yazmağa üstünlük verir. Yəqin elə buna görə də onun kitabları geniş oxucu auditoriyası qazanır və maraqla oxunur.

Kitabda kəndin xeyriyyəçi insanları haqqında ayrı-ayrı məqalələr də yer alır. "İgidlik rəmzi, mərdlik timsalı" adlı yazı Hacı İsgəndər Abuzər oğlunun həyat fəaliyyətindən bəhs edir. Vaxtilə ermənilər Bakıda qırğın törədəndə bütün Bakı kəndləri ayağa qalxmışdı. Belə bir vaxtda Hacı İsgəndər öz hesabına çoxlu silah alıb camaatı silahlandırmış, kəndin ətrafında səngər qazıtdırmış, eyni zamanda digər kəndlərə də silah yardımı etmişdir. Hacı hətta döyüşdə fərqləndiyinə görə Nuru Paşa tərəfindən qəhrəmanlıq nişa-

nına layiq görülmüşdür. 1937-ci ildə onu həbs edib, ermənilərə qarşı vuruşanların siyahısını istəyirlər. O isə dəhşətli işgəncələrə baxmayaraq, heç kimi ələ vermir. Hacı Soltan kəndinin qəhrəman oğlu haqqında bildiklərini yazmaqla, gələcək nəsillərə dəyərli məlumatlar çatdırır. Onun yazdığına görə Hacı İsgəndərin cənazəsi belə ailəsinə verilməmişdir. Müəllif hacının xeyriyyəçilik işlərindən də ətraflı söhbət açır, aclıq illərində öz balıq vətəgəsindən kənd camaatına pulsuz balıq payladığını, su quyuları qazdırdığını, gecələr kəndin küçələrində neft lampaları asdırdığını, yolların bərpasında yaxından iştirak etdiyini və s. əməllərini qeyd edir. Yazıda müəllifin bir təəssüfünün şahidi oluruq. 37-ci il repressiyasının qurbanı olan Hacı İsgəndərin hələ də bəraət almamasını ürək ağrısı ilə qeyd edən tədqiqatçı, onun vəsaiti hesabına inşa olunan Buzovna Mədəniyyət sarayının niyə Hacı İsgəndərin adını daşımadığını sual edir və müstəqillik dövründə belə şəxsiyyətlərin xatirələrinin əbədiləşdiriləcəyinə inandığını bildirir.

Kitabda Seyid Əzim Şirvaninin oğlu, Buzovna torpağında uyuyan Mir Cəfər haqqında gedən yazı da maraq doğurur. Yazının əvvəlində müəllif bir sıra şairlərin Buzovnada məskən saldığını, bəzilərinin Buzovnada dəfn olunduğunu qeyd edir, nəhayət Mir Cəfər ağaya keçir. Yazır ki, Seyid Əzimlə birlikdə Nəcəfdə təhsil alan Buzovna axundu Əbasəlt öz bağının bir hissəsini Seyid Əzimə bağışlayır. Oğlunun ürək xəstəliyini nəzərə alan şair həmin bağı ona verir və Mir Cəfər 85 yaşına kimi Buzovnada yaşayır. Yazı Seyid Əzimin oğluna həsr etdiyi şeirlər ilə bitir.

Kitabda bir sıra axundlar, mollalar haqqında yazılar da yer alır: Axund Məşhədi Məzahir, Molla Məmməd Axund Həmid oğlu, Axund Şeyx Cəlal Lənkərani, Molla Rzaəli, Axund Mirzəəli, Axund Əbdüllətif Buzovnalı, Şeyx Hüseyn Ramanalı, Molla Məhəmməd İsmayıl Asi, Dərviş Əlisöhbət Kürdəxanılı, Mir Möhsün ağa, Salavat Ağaəli, Kərbəlayi Hacıbaba və s.

Kitabın ikinci fəslində Buzovna kəndinin şeyxlərinin, axundlarının, mollalarının, rövzəxanlarının, Bakıətrafı kəndlərin mərhum və müasir dərvişlərinin adları qeyd edilmişdir. Sonrakı yazılarda Buzovnadakı məscidlərin fəaliyyəti, dini mədrəsələr haqqında, bu sahədə zəhmət çəkən dindarlar barəsində məlumatlar alırıq. Sonra İkinci dünya savaşında, həlak olanların, Qarabağ münaqişəsi zamanı şəhid olanların adları siyahılanır. Daha sonra Buzovnalı şairlərin, elm adamlarının, müxtəlif sənət, peşə adamlarının adları ilə tanış oluruq. Bütün bu məlumatlar hər bir bakılı üçün, eləcə də Bakının tarixi ilə maraqlanan tədqiqatçılar üçün maraqlı ola bilər. Hacı Soltanın oxuculara təqdim etdiyi kitabların dəyəri də elə bundadır ki, onlardan bir sıra tədqiqatçılar faydalana bilərlər.

Kitabın üçüncü fəslində müxtəlif müəlliflərin yazıları verilmişdir. Professor Vilayət Quliyevin "Buzovna və ətraf kəndlər XIX əsr rus səyyahının gözü ilə" adlı məqaləsində həm müəllifin, həm də İ.Berezinin fikirləri ilə tanış oluruq. Burada bir sıra maraqlı yazılardan din xadimləri haqqında faydalı məlumatlar alırıq. "Molla Kamiyab Axundzadə", "Axund Şeyx Cavad", "Şeyx Hüseyn Molla Əhməd oğlu", eləcə də müxtəlif müəlliflərin dəyərli insanlardan bəhs edən "Mübariz müəllim və mömin insan", "Buzovnalı axund", "Layiqli davamçılar yetişir", "İman Nuri", "Fədakar insan", "Yazılmamış ad", "Xalq müəllimi Heydər Eyvazov", "Çörək elə çörəkçiyə verilib", "Mənim cəfakeş anam", "Təvəllüdü-1805" adlı məqalələr bizə zəngin material verir.

Dördüncü fəsildə isə ölüm və həyat haqqında müxtəlif yazılar, Qurani-kərimdən müxtəlif ayələr verilmiş, vəsiyyətin məziyyətləri, faydaları açıqlanmışdır. Şəhid Ayətullah Mürtəza Mütəhhərinin "Ölümün mahiyyəti" adlı yazısında ölüm haqqında daha dərin bilgilər ala bilirik. Burada ölümdən sonrakı həyat haqqında maraqlı fikirlər verilmişdir.

Bu fəsildə "Kəlilə və Dimnə"dən, "Şahnamə"dən parçalar, eləcə də Azərbaycan şairlərinin, o cümlədən Xaqani,

Nizami, Nəsimi, Xətai, Füzuli, Əvhədi, Cami, Dəhləvi, Bakıxanov, Seyid Əzim, Didə, Dəxil, Sabir, Qümri, Sührəverdi, Dilsuz kimi şairlərin və XX əsr Azərbaycan poeziyasının bir sıra nümayəndələrinin dini, ədəbi fikirlərini əks etdirən şeir nümunələri verilmişdir.

Kitabda Hacı Soltana ithaf olunmuş şeirlər və bir sıra alimlərin onun haqqında dəyərli fikirləri də yer alır.

Kitabın sonunda Ülviyyə Niyazovanın BDU-nun ilahiyyat fakültəsində diplom işi kimi yazdığı "Azərbaycanda Həzrəti-Əli sevgisi" adlı yazısı yer alır. Girişdə Həzrəti-Əli şəxsiyyətini açıqlamağa Allahdan güc və cəsarət istəyən müəllif "Əli(ə) bəşər tarixində əbədi şəxsiyyət kimi" və "Həzrəti-Əlinin(ə) həyat və fəaliyyəti" adlı bölümlərdə bu vəzifənin öhdəsindən gəlməyə çalışmışdır. Gənc bir tələbənin ürəyində yurd salan Əli sevgisini, əlbəttə, alqışlamaq lazımdır.

Hacı Soltanın əvvəlki kitabları kimi bu kitabında da istər dini, istərsə də ədəbi yazılar, istər öz yazıları, istərsə də digər müəlliflərə məxsus yazılar öz sanbalı, fikir zənginliyi baxımından diqqəti çəkir. Kitabın maraqlı cəhətlərindən biri də budur ki, müəllif haqqında söz açdığı bir sıra şəxsiyyətlərin şəkillərini də əldə edib oxuculara təqdim etmişdir. Kitab istər tarixilik baxımından, istər dini, istər elmi-ədəbi cəhətdən oxucular üçün böyük əhəmiyyət kəsb edir.

"Bütöv Azərbaycan" qəzeti, 28.09.11

DƏRVİŞ NİDAİNİN "MƏNAFEÜNNAS" ƏSƏRİ VƏ ONUN DİLİ

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu dünyanın çox zəngin kitab xəzinələrindən biridir. Burada yüzdən artıq alim və tədqiqatçının tədqiqata cəlb etdiyi, nəşrə hazırladığı ərəbcə, farsca, türkcə və azərbaycanca ədəbi-bədii nümunələr çoxluq təşkil etsə də, hər üç dildə fəlsəfəyə, ilahiyyata, təbabətə, biologiyaya və s. aid əsərlər də vardır.

İnstitutda bir sıra tibbi əlyazmalar vardır ki, əksəriyyəti artıq nəşrə hazırlanıb, tədqiqata cəlb olunub. Vaxtilə institutumuzun əməkdaşı Ağaəmi İbraimov türkcə və azərbaycanca tibbi əsərlər haqqında (RƏF. əsərləri, 1963, II c. səh. 18-32) qısa məlumat çap etdirmişdir ki: İsa Dərbəndi "Tibbi-Calinus", naməlum katib tərəfindən köçürülmüş "Kitabi-tibb", Məhəmməd Əttar Səlyani "Mənafeünnas". Sonuncusu Dərviş Nidainin "Mənafeünnas" əsərinin fərqli nüsxəsidir. Tədqiqatçı-alim 1972-ci ildə yenidən tədqiqat aparmış və bir neçə əsər haqqında da məlumat vermişdir. Bunlardan biri Nüsrət Əfəndinin Şamaxıda Nəcəfqulu Məşədi Həmid oğlu tərəfindən köçürülmüş "Risaleyi-tibb" əsəridir. Sonralar tarix elmləri doktoru Fərid Ələkbərli bu mövzuya müraciət etmiş, "Tibbnamə" və "Risaleyi-tibb" əsərlərini rus dilinə tərcümə etmişdir. Fərid Ələkbərli tibb tarixinə dair yazdığı doktorluq dissertasiyasında institutdakı bütün tibbi kitablardan istifadə etmişdir. Onun məsləhəti ilə Dərviş Nidainin "Mənafeünnas" əsərini tədqiqat obyekti seçdim.

Məhəmməd Tahir Bursalının "Osmanlı müəllifləri" kitabında verdiyi məlumata görə, Dərviş Nidai Sultan Səlim Saninin dövründə yaşayıb-yaradan, öz zəmanəsində şəxsiyyət kimi böyük hörmət qazanan alimlərdən biri olmuşdur. Ətabayi Osmaniyyədən olub ankaralıdır. Səyahətə çıxmış, Qəryəhə gəlmiş, burada xanın xacəsi olmuşdur. Bir neçə il burada xidmət etdikdən sonra Konyaya gəlmiş və burada vali olan şahzadə Səlim Sanı ilə yaxın olmuşdur. Şahzadənin taxta çıxması ilə əlaqədar olaraq İstanbula gəlmiş və onun sarayına həkimbaşı təyin edilmişdir.

Dərviş Nidai mövləvilik təriqətinə meyl etmiş və bu yolun sədaqətli yolçularından biri olmuşdur. Onun Üsküdarda Atlamadaş kitabxanasında, eləcə də Nuri-Osmaniyyə kitabxanasında tibbə, əxlaqa və s. aid əsərləri vardır ki, Məhəmməd Tahir onlardan bəzilərinin adını qeyd etmişdir: müxtəlif xəstəliklərdən, onları törədən səbəblərdən, onların müalicə üsullarından və dərman vasitələrindən bəhs edən "Mə-

nafeünnas", "Təbabəti-bəsriyyə və bitəriyyə", taun və vəba xəstəliyinin müalicəsinə aid "Kətəbi-əsriyyə və həkimeyi-tibbiyyədən cəm", "Mənzum baytarnamə", əxlaqdan bəhs edən "Tənbihnamə" və "Əsrari-gəncməni" adlı böyük bir mənzumə.

Nidainin "Mənafeünnas" əsərinin XVI əsrdə Türkiyədə yazılmış bir nüsxəsi də AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda B-6292 şifrəsi altında saxlanılır. "Mənafeünnas" haqqında Topqapı Sarayı Müzesi yayınlarının 11-ci sayında belə bir yığcam qeydə rast gəldik: "Mehmet Nidainin II Sultan Selim (1566-1574) için yazdığı altmış bap üzere mürettep ümumi bir tib kitabıdır. Eser 974 (1566-67)-de telif edilmişdir."

Biz tədqiqat üçün Türkiyədə yazılmış nüsxəni seçdik. Əlyazma 222 səhifə həcmində, 22x16 sm ölçüdədir, nəstəliq xəttilə qara mürəkkəblə yazılmışdır. Yazıda ara-sıra qırmızı nöqtələr, vergülər qoyulmuşdur, amma bunlar durğu işarələri rolunu oynamır, ola bilsin ki, sadəcə bəzək üçündür. Katibin özünəməxsus yazı tərzi diqqəti çəkir.

Nidai girişdə günəşdən zərrə, dəryadan qətrə olan insanın neçə il ömür sürməsindən asılı olmayaraq, bir gün qeyri-adi qüvvənin hökmü qarşısında zəif olduğunu qeyd edir. O, təbabətə aid bütün kitabları oxuyub, öyrəndiklərini bir kitabda topladığını bildirir, Allah-təalaya üz tutaraq südqi-ürəklə həmdü səna edir: "Çünki bu aləmə hiç nəhayət yok. Cümləsin bilməkdə ləyaqət yok. Ya İlahi, bu elmi-hikmətdən qıl inayət bizə, bu nemətdən zərreyi-afitabı bildirəyim, hikmətinlə bu kitabı doldurayım. Çünki namınla ibtida etdim..." Allaha həmdü sənadan sonra Sultan Səlimi mədh edən müəllif onun taxta keçməsini alqışlayan planetlərin sevincini obrazlı ifadələrlə verir. Daha sonra sevinən, fərəhlənən Nidai kitabı bu şərəfə ithaf etdiyini, adını "Mənafeünnas" qoyduğunu bildirir və sonda yazılma tarixini belə təqdim edir: "Ol sərü dilə bir kitab etdim. Əncüm üzüb də afitab etdim. Nə ki, cəm etdim təbabətdən, ani kəsb etdim

kitabətdən. Hicrətin tarixi iyaşəhzad, çarü həftad bud həm nə sad. Hacətim ölkə məmləkət qövmi, sagü səhhətlə keçə luyüvmi.” Buradan bilinir ki, əsər 974-cü ildə yazılmışdır ki, miladiyə çevirəndə 1566-67-ci illərə düşür.

Müəllif qeyd edir ki, kitabı yazmaqda məqsədi insanlara kömək etməkdir. O istəyir ki, təbibə, müalicəyə ehtiyacı olan adamlar özlərinə lazım olan dəvaları öyrənsinlər. Əgər bu kitabdan dərdlərinə dərman olarsa, əvvəlcə, Allah-təalaya və onun rəsuluna həmdü səna, sonra isə həzrəti padşaha dua etsinlər. Burada Nidai Allahın bəndələrinə olan mərhəmətini, onlar üçün yaratdığı nemətləri yada salır və insan üçün halal və haram olanlardan söz edir. Yeri gəldikcə Məhəmməd (s) peyğəmbərin hədislərindən və dini ayətlərdən sitatlar gətirir və tərcüməsini də verir. Göstərir ki, “Həqtəala onu öz kəndi nurundan xəlq edib, on səkkiz bin aləmi anun məhəbbətinə yaratdı. Məhəmməd (s) hədisində buyurur: “Əl-elmi elmani: elmül-bədən, sümmə elmül-ədyan”, yəni elm ikidir: biri bədən elmi və biri dinlərin elmidir. Əmma bədən elmini əvvəl zikr elədi. Onu neçün ki, bir kişi xəstə olsa, əqli və könlü şikəst olub, bədəni zəif olub, süst olur. Din elmi təhsil ilə, fər ilə olsa, bu bədən elmini əvvəl bilib öğrənmək lazımdır.” Müəllif peyğəmdərimizin bir hədisini də diqqətə çatdırır: “Bir vilayətdə bir təbibi-haziq olmasa, andə sakin olmaq həramdır”.

İnsanları düzgün yola istqamətləndirməyə çaslışan müəllif ayələrə, hədislərə müraciət edir və bu sitatları təbabətlə bağlı misallarla paralel verir. Belə ki, həm qəzavü qədərə inanır və insanları da inanmağa çağırır, həm də tibb elminin faydasını, dəvaların, müalicənin gərəkliliyini bildirir və şəfanın Allah tərəfindən iznli olduğunu diqqətə çatdırır, peyğəmbərin sözlərinə müraciət edərək deyir ki, “yüz şəfa xəzinəsindən dərman iç, əgər yuxarıdan izn yoxdursa, şəfa tapmayacaqsan. Çünki dərd anun, dəxi dərman onundur.” Müəllif daha sonra Həzrət Musadan bir rəvayət qeyd edir. Rəvayət olunur ki, bir gün Musa (ə) baş ağrısına tutulur.

Bəni-İsraildən bir Hüma bağa gəlir. Ondan soruşub öyrənir ki, bəs, filan dəvanı hazırlayıb içsən, şəfa taparsan. Lakin Musa (ə) şəfa tapmır. Zahirən baxanda bunlar bir-birini təkzib edən misallardır. Nidainin bütün yaradılmışların Allahın hökmünə, qəzavü qədərə tabe olması faktı ilə yanaşı faili-muxtar yaranan insanın əqlinin böyüklüyünü, əsaslığını, idrakının qüdrətini, təfəkkürünün aliliyini ön plana çəkməsi onu göstərir ki, müəllifin məqsədi oxucuya sadəcə öz fikirlərini qəbul etdirmək deyil, ilahiyyatla təbabətin vəhdətini dərk etdirməkdir. Müəllif özünün dini görüşləri ilə fəlsəfi baxışlarının vəhdətində təbabətdən öyrəndiklərini insanlara çatdırmaq istəyir. Ona görə də hər irəli sürdüyü fikirdən sonra mütləq Alah kəlamına, peyğəmbər (s) sözünə müraciət edir. Bütün bunlar isə insanların xeyrinə olaraq həm dini əqidənin möhkəmliyini, həm də insan sağlamlığına xidmət edən təbabətin gərəkliliyini sübut üçün müəllif tərəfindən olduqca düşünülmüş istiqamətdir.

Nidai Allah-təalanın həkimləri ayrıca bir varlıq kimi dəyərləndirdiyini qeyd edərək yazır: “Həq-təala bu elmin əsrarını hükəmayə bildirmişdir.” “Bunlar xeyrənnasdır.” “Onlar insan bədəninə nə xəstəlik üz versə, onu aradan qaldırarlar.” və s. Bununla yanaşı müəllifin giley-güzarını görür, təəssüfünü hiss edirik: “Zəmanədə təbib az qalmışdır, olanlar da padşaha mənsub olub, astana səadətindən bir an iraq olmazlar və kənarilərdə təbibə ehtiyacların nəhayəti yokdur və vilayət vardır ki, təbib bulmadığından qeyri tibbə mütaliq bir risalə bulunmaz.”

“Mənafeünnas” altmış babdan ibarətdir və hər babda hər hansı bir xəstəliyin səbəbləri, müalicəsi verilmişdir. Nidai yazır: “Əvvəlki bab tərkibi-insanda Həq-təalanın kəmaliqədərin bəyan edər. Ta ki, sanei-sənətdən istidlal edələr.” Yəni, burada Allah-təalanın dörd ünsürdən (od, su, hava, torpaq) xəlq etdiyi insan bədənində hansı proseslərin getdiyini, nəyin nəyə çevrildiyini, nəyin nəyə uyğun olduğunu açıqlayır və insanın anatomik cəhətdən hansı üzvlərdən iba-

rət olduğunu bildirir. “İkinci bab fisuli-ərbəədə nə istemal edib və nədən etiraz etmək gərək olduğunu bildirər.” Yəni, insan orqanizmi üçün nələr sərfəli, nələr gərəksizdir. “Üçüncü bab əxlati-miratı bildirər.” Yəni, insan bədənində hansı qarışıqlar var və onların fəaliyyəti nədən ibarətdir. “Dördüncü bab əza və onun mütəvəllədanın bildirər.” Yəni, insanda hansı bədən üzləri vardır və onar nə zaman, nədən və necə yaranmışdır. “Beşinci bab insanın yenicə xəlq olub vücudə gəldigin bildirər.” Burada embriologiyadan söhbər gedir. Yəni, döllənmədən başlayaraq insan rüşeyminin inkişafı göstərilir. Beləcə müəllif girişdə hər babda nədən bəhs etdiyini ardıcıl olaraq verir. Elə buradan da məlum olur ki, kitabda baş xəstəlikləri və müalicəsi, üz xəstələkləri, səbəbi, müalicəsi, burun, qulaq, boğaz, ağız boşluğu, göz, əl, ayaq xəstəlikləri, onların səbəbləri və müalicə üsulları, müalicədə istifadə olunan dəvalar göstərilir.

Burada həmçinin daxili xəstəliklər və onların müalicəsi, cüzam, sarılıq və s. kimi yoluxucu xəstəliklər və müalicə vasitələri, hətta şəkər xəstəliyi, qızdırma və şiş xəstəlikləri haqqında məlumatlar və dəvalar verilmişdir. Qədim üsullardan olan qanalmadan əhatəli şəkildə danışılmış, hətta oğlan uşaqlarının sünnət edilməsi üsulu da göstərilmişdir.

İnsanın embriologiyası, anatomiyası, fiziologiyası, xarici və daxili üzvlərin xəstəlikləri, onların müalicəsi, bədəndə gedən metabolik proseslər, bu proseslərdə iştirak edən qida maddələri (yağlar, zülallar və s.) haqqında danışdıqdan sonra Nidai xaricdən qəbul olunan qidalara, dəvalara keçir, dərman maddələrindən, xüsusən mərhəmlərdən, bitki və heyvanlardan alınan maddələrin tibbi əhəmiyyətindən, hətta bədənə lazım olan mənfəətli tiryəkdən və sairdən bəhs edir.

Dərviş Nidainin bu kitabının digər kitablardan fərqi ondadır ki, burada biz ardıcıl, sistemli şəkildə insan, onun zahiri, daxili, ona xeyirli və zərərli maddələr, insan orqanizminin həyat fəaliyyəti üçün gərəkli olan şeylərin nədən və necə alınması, haradan gəlməsi, bir sözlə mənşəyi, texnolo-

giyası barədə məlumat alırıq. Müəllifin öz qarşısına qoyduğu məqsədə çatdığının şahidi oluruq. Həqiqətən də, bu kitab həkim olmayan bölgələrdə insalara yardım edə bilər. Belə ki, insanlar özlərinə lazım olan tibbi müalicəni öyrənə və dərman maddələrini hazırlaya bilər və hətta buradan öyrəndikləri biliklə xəstəliklərə tutulmamaq üçün əvvəlcədən profilaktik tədbirlər görə bilərlər.

Dərviş Nidai girişdə onu da qeyd edir ki: "Mən bu kitabı xalis türk dilində yazdım." Amma əsərin əvvəlində dil daha qəlizdir. Əvvəldə poetika güclüdür. Əsərin girişi qafiyəli səclə verilmişdir, bəlkə də müəllif onu elə şeir kimi yazmışdır. Əsər belə başlayır: "Bismillahir-rəhmanir-rəhim. Ey həkimi-ləmyəzəli, elmi-hikmətdə kamilü əzəli..." Əlyazmalar İnstitutunda B-1493 şifrəli qovluqda saxlanılan 17x11 sm ölçülü 8 vərəq həcmində olan daha bir əlyazma da əldə etdik ki, bu əlyazma əsərin girişinin əvvəli ilə eynidir, amma burada nəsrlə deyil, nəzmlə yazılmışdır:

Ey həkimü əlimi-ləmyəzəli.
Elmi-hikmətdə kamilü əzəli.
Hikmətin bəhri-tülu gövhərxas,
Neçə loğmanı eylədin qəvvas.
Sənəti-hikmətdə Əflatun,
İki əczadan etdi bir məcun...

Şeir hissəsindən sonra ərəbcə ayələr və hədislərlə zəngin olan hissə gəlir. Daha sonra hər babda nələr olduğundan danışılır, nəhayət, bablar bir-bir açıqlanır. Getdikcə, əsərin dili sadələşməyə başlayır. Əvvəlinci bablarda ərəb-fars sözləri üstünlük təşkil edirdisə, sonralar tərcümə qismən asanlaşır və hətta bəzi yerlərdə öz dilində oxuyurmuşsan kimi görünür. Bəzən müəllif eyni bir sözün həm fars, həm türk variantını verir. Məsələn: "Əgər bu dördi bir bərabər olursə, bədəni-insan daima səhhət üzərə olur və əgər çar ərkandan biri artıq və ya əskik olursə, bədəni-insanə zəlzələ vaqe olub xərabə mütəvəccöh olur." Göründüyü kimi, burada

"dörd–çar eyniliyi var. Eləcə də "bədən–tən", "bal - əsəl", "iyi–xub"...

Bəzən isə müəllif türk dili daxilində müxtəlifvariantlılıq nümayiş etdirir. Məsələn, bir çox yerlərdə "buçuq" sözünü işlətməsinə baxmayaraq, bəzən onu "yarım" sözü ilə əvəz edir. Buna da bir sıra misallar göstərmək olar: "qab–çölmək", "kök–dib", "qabıq–qab", "şorba–çorba", "asan–qolay", "içün–yana", "susuzluq–susalıq", "vurmaq–dürtmək", "ol, bu–şol, şu" və s. Əslində burada bizə tanış olmayan sözlər yoxdur. "Çölmək, çömçə, dib, dürtmək" kimi sözlər bizdə də vardır. Amma məsələ burasındadır ki, bu əsərdə bu sözlər müxtəlif yerlərdə eyni mənada işlənib. Ola bilsin ki, müəllif əsəri "xalis" türk dilində yazmağı" qarşısına məqsəd qoyduğu üçün bütün türkdilli xalqların lüğət tərkibindən istifadə edib. Bu gün osmanlı türkü "çorba" deyir, azəri türkü "şorba". Biz "kök" deyəndə, bitkinin kökü başa düşürük. Amma burada müəllif "bitkinin kökü" sözünü bəzən "bitkinin dibi" kimi verir ki, bu bizdə eyni mənа ifadə eləmir. Biz bitkinin kökündən dərman kimi istifadə edirik. Amma "bitkinin dibi" dedikdə tamam başqa şey başa düşülür. Eləcə də bizdə "qab" sözü ilə əvəzlənməyən "qabıq" sözü var.

Əsərdə maraq doğuran çəki bildirən sözlər var: dirəm, vəqiyə, rətl, ədviyə, ceviz miqdarı, noxud miqdarı, misqal və s. Heyvan və bitki adları da diqqəti çəkir.

Əsərdə fonetik dəyişikliklər daha qabarıq nəzərə çarpır. Amma bu dəyişikliklər bizə orta əsrlər ədəbiyyatından tanışdır: "uyqu–uyxu", "ikinci–ikminci", "dördüncü–dördminci", "qoydu–qodu", "tutmaq–dutmaq", "titrəmək–ditrəmək", "onun–anun".

Dərviş Nidainin "Mənafeünnas" əsərinin dili ayrıca bir tədqiqat işidir. Biz sadəcə tanışlıq üçün bəzi məqamlara toxunduq. Əsər çapa hazırlanıb, bu yaxınlarda oxuculara çatdırılacaqdır.

AMEA-nın "XƏBƏRLƏR" jurnalı, 2010.

NOVXANI
(Sərvətimiz şəxsiyyətlərimizdir)

Son illər müxtəlif qələm sahiblərinin müxtəlif səpkili yazıları, kitabları işıq üzü görür. Bu işin müsbət və mənfi tərəfləri daim müzakirə obyekti olur. Mənfi cəhət budur ki, bəzi adamlar öz dədə-babaları haqqında kitablar yazır və ya yazdırır, amma sonra məlum olur ki, bu adamlar nəinki haqqında kitab yazılmağa, heç bir məqaləyə belə layiq deyillər. Amma belə yazılar bu gün də yazılmaqdadır. İşin müsbət tərəfi isə ayrı-ayrı bölgələr, hətta ayrı-ayrı kəndlər haqqında yazıların bir araya gətirilməsi və oxuculara çatdırılmasıdır. Bu mənada Bakıətrafı kəndlərlə bağlı kitablar diqqəti çəkir. Əlimdə bir kitab var: ”Novxanı (Sərvətimiz şəxsiyyətlərimizdir). Bundan əvvəl də Mərdəkan, Keşlə, Maştağa və s. haqqında ayrı-ayrı kitablar işıq üzü görüb. İndi haqqında danışmaq istədiyim “Novxanı” kitabı da bu kəndin ziyalılarını tanıtmaq baxımından təqdirəlayiqdir. Bir qədər düşünəndə doğrudan da şəxsiyyətlərimiz ən böyük sərvətimizdir. Amma neyləmək olar ki, biz çoxunu öləndən sonra qiymətləndiririk...

Kitabın təsisçisi və baş redaktoru Vaqif Ağayev, redaktorları Əliabbas Əlimədətoğlu, Hacı Arif Bahadıroğlu və Nəriman Qəhrəmanlıdır. Bu adamlardan ikisini tanımıram. Arif Bahadıroğlunu Azərbaycan televiziyasının “Günün ekranı” xəbərlər proqramından tanımışam. Sonralar Hacı Mailin evindən çəkdiyi “Məcməüşşüəra” məclisi ilə bağlı verilişlərindən, ən əsası isə Hacı Maillə dostluğundan tanıyıram. Və həmişə də çox hörmət bəslədiyim adamlardan biri olub. Nəriman Qəhrəmanlı ilə bu yaxınlarda şəxsən tanış olmuşam. Elə “Novxanı” kitabını da mənə Nəriman müəllim verib. O ki qaldı Novxanıya, cəmi bir dəfə Novxanıda olmuşam, Bakı dövlət Universitetinin biologiya fakültəsində təhsil alarkən Ağavəli müəllim bizi ora, dənizə yosun toplamağa aparmışdı. Amma Novxanı mənə ona görə əziz-

dir ki, universitetin filologiya fakültəsində təhsil alarkən ən sevimli müəllimim olan Bəxtiyar Məmmədzadə novxanılıdır. Amma çox təəssüf ki, kitaba Bəxtiyar müəllimin atası haqqında məlumat daxil edilsə də, özü haqqında heç bir məlumat verilməyib, sadəcə Məmməd Məmmədzadənin oğlu kimi adı çəkilib. Dövrünün məşhur pianoçusu olan Zaur Əliyev haqqında da burada məlumata rast gəlmədik. Yəqin ki, Novxanının hələ çox-çox bu kitaba düşməyən şəxsiyyətləri vardır. Amma bununla belə burada xeyli ziyalı haqqında gərəkli yazıları oxumaq olur...

Kitab "Ucalığa gedən yol" adlı ön sözlə açılır. Burada tarix elmləri namizədi Tofiq Babayev və Vaqif Ağayev Azərbaycandan, onun başına gətirilən olaylardan, qədimdən bu günə kimi keçdiyi şərəfli yoldan bəhs açaraq, hər şeydə onun bir parçası olan Novxanının da payı olduğunu qeyd edir və fikirlərini belə yekunlaşdırırlar:"Kiçik adlandırdığımız kənd əslində çox böyükdür. Onu böyük edən, ucaldan məhz bu kitabda adlarını çəkdiyimiz şəxsiyyətlərdir. Ucalığa, yüksəlişə gedən yol çox ağırdır, eyni zamanda şərəflidir!".

Kitabın birinci bölümü "Şəxsiyyətlər" adlanır və demək olar ki, kitabın əsas hissəsini təşkil edir. Burada 110 nəfər haqqında ayrı-ayrı yazılar verilmişdir ki, bunların arasında siyasi xadimlər, dövlət adamları, rəhbər işçilər, alimlər, yazıçılar, şairlər, rəssamlar, bəstəkarlar, müğənnilər, mədəniyyət işçiləri, din xadimləri, müharibə iştirakçıları və s. vardır.

Birinci sırada M.Rəsulzadə durur. "Rəsulzadə Məhəmmədəmin Axund Hacı Molla Əliəkbər oğlu" adlı məqalə kitabındakı ən geniş yazılardan biridir. "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"ndan götürülmüş bu yazıda onun həyatı, fəaliyyəti imkan daxilində əhatə olunmuşdur. İkinci geniş məlumat isə Sovet İttifaqı Qəhrəmanı "Hüseynzadə Mehdi Hənifə oğlu" haqqındadır. "Azadlıq" radiosunun müxbiri Rövşən Qənbərovun bu yazısında sevimli

xalq qəhrəmanı Mehdinin həyatı və müharibədə keçdiyi döyüş yolunun ayrı-ayrı məqamları "Bu günün heçi, gələcəyin klassiki", "Keçilən dərslərdən sağ qalmayacağım aydındır", "İnsan insana canavardır", "Casus axtarışı işi"ndən "Geroy"a qədər", "Mehdi kinodakı kimi ölməyib?", "Anjelika "Mixaylo"dan danışdı", "Mixaylo" kinoteatrı partladandan sonra ağlayırdı", "Nasistlərin ürəyinə saplanan xəncər", "Mixaylo" haqqında yazının sonu" adlı yazılardan boylanır.

Kitabda maraqlı insanlar haqqında dəyərli məlumatlar verilmişdir. Siyasət və dövlət adamlarından Dadaş Aslanov, Həbibə Həsənova, Şıxəli Qurbanov, Qəzənfər Məmmədov, Sabit Orucov, Süleyman Rüstəmzadə, Məhəmmədəli Rəsulzadə, Cəfər Vəliyev, Hüseyn Zeynalov, rəhbər vəzifədə çalışanlardan Böyükağa Ağayev, Vaqif Ağayev, Nadir Balakişiyev, Məmməd Dadaşov, Balaəli Əliyev, Əlikövsər Əliyev, Əliqardaş Xıdırov, Məmməd Məmmədzadə və b. haqqında maraqlı yazılar diqqəti çəkir.

Tanıdığım şairlərdən Ümmügülsüm, Süleyman Rüstəm, Nadir Ağayev, Ruhulla Qafil, İlqar Bizəban, Arif Bahadıroğlu və başqaları haqqında məlumat və şeirlərindən nümunələr verilmişdir.

Tanınmış rəssamlardan Əzim Əzimzadə, Nazim Bəykişiyev, Elçin Cabbarov, Cavanşir Dadaşov, Bədurə Əfqanlı və b. bəstəkarlardan Aqşin Əlizadə və Sərdar Fərəcov, müğənnilərdən Nadir Ağayev, Ağaverdi Məmmədov və Qismət Məmmədzadə, mədəniyyət xadimlərindən Məhərrəm Bədirzadə, Əliabbas Əliyev, Ramiz Məlik, Arif Teymurov, Nazim Zeynalov və b. haqqında onların həyatını, fəaliyyətini işıqlandıran məqalələr də diqqəti çəkir.

Kitabda din xadimlərinin həyat fəaliyyətini açıqlayan yazılarda müqəddəs yolun yolçuları: Məmmədzadə Axund Molla Ruhulla, Hacı Hatəm Mirzəyev, Hacı Molla Kərəm, Hacı Faiz və b. eləcə də Şeyxülislam Əliağa Süleymanzadə təqdim olunurlar.

Bu bölümdəki yazıların müəllifləri Vaqif Ağayev, Əliab-

bas Əlimədətoğlu, Hacı Arif Bahadıroğlu, Nəriman Qəhrəmanlı, İlham Əzimov, Təbriz Vəfalı, Hacı Gülhüseyn Novruzoğlu, Hacı Cavanşir Manafov, Lalə Əsgərova, Nailə Balakişiyeva, Fikriyyə Balakişiyeva, Vaqif Şadlinski, Mailə Muradxanlı, Nurlan Atamoğlanlı, Hacı Rahim Babayev, Məmmədəli Əliyev, Reyhan Müslümova, Mirsəməd Cəfərli, Nurəddin Həbibov, İlqar, Məlikəjdər Ağabəy oğlu, Vaqif Böyükağa oğlu, Qılman İlkin, Zərifə Nəcəfova, Rafiq Mehdiyev, Fətulla Fəcri, Məlahət Əliyeva, Məmməd Kazımov, Nəzakət Qurbanqızı, R.Kərimov, Araz Rüstəmov, Könül Nemətova, Şamil Salmanov, Gülrəna Qacar, Gülarə Sadıqzadə, Elçin Novruzov, Nəcibə Əhmədova, Hafiz Sadıq, Telli Pənahqızı və S.Zeynalovdur.

Kitabdakı maraq doğuran bölümlərdən biri də "Gənclərimiz"dir. Vaqif Ağayevin bu yazısında səkkiz gənc haqqında məlumat verilmişdir: Vüqar, Zöhrab, Rüfət, Mühəmmədəmin kimi idmançılar, Kanadada və Hindistanda keçirilən beynəlxalq biologiya olimpiadasında gümüş medala layiq görülən Camal, taxta üzərindəki oyma işləri ilə evləri bəzəyən Həsənağa, əsərləri bir çox sərgilərdə fəxri diplomlara layiq görülən Vasif, tərcüməçilik sənətini seçən Zaur.

Üçüncü bölüm "Bərəkətli-çörəkli torpaq" adlanır. Burada "Abşeron", "XVII və XVIII əsrlərdə Bakı və Abşeronda cərəyan edən siyasi durumdan bəzi faktlar", "Novxanı kəndi", "Siyangöl–şəhər tipli qəsəbə", "Novxanılılar", "Xəzri-Giləvar", "Qış tədarükü", "Qoyunçuluq", "Taxılçılıq", "Balıqçılıq", "Xalçaçılıq və toxuculuq" adlı ayrı-ayrı yazılarda Bakının 34 kəndinin adı çəkilir, Abşeronun ictimai-siyasi vəziyyəti açıqlanır, Novxanı, onun kənd təsərrüfatı və sənaye əhəmiyyətli sahələri haqqında məlumatlar verilir. Vaqif Ağayev bu yazını hazırlarkən, tarix elmləri namizədləri Tofiq Babayevin, Təvəkkül Şağani–Səlimovun və İdris Əliyevin elmi məqalələrindən istifadə etdiyini qeyd etmişdir.

Vaqif Ağayevin "Sosial-iqtisadi problemlərin həlli" adlı yazısında adından göründüyü kimi bu sahədə görülən işlər

işıqlandırılmışdır. “Novxanı və Siyan yer-yurd adlarının mənşəyi haqqında” bölümündə isə Vaqif Ağayev, Arif Bahadıroğlu, Məzahir Hacıyev və Əhməd Cabbarov müxtəlif fikirləri çözələyərək, bu sözlərin mənasını açıqlamağa çalışmışlar.

Növbəti bölüm “Memarlıq abidələri”dir. Burada Novxanının memarlıq quruluşundan, məscidlərdən, Axund Əbil sərdabəsindən, hamam və ovdanlardan söz açan Nəriman Qəhrəmanlı mövzunu əhatə etməyə çalışmış, öz qənaətləndirici fikirlərini oxucularla bölüşmüşdür.

“1918-ci ilin soyqırımı”, “1937-ci il–Repessiya. Bura Vətəndir!”, “Böyük Vətən Müharibəsinin (1941-45) iştirakçıları”, “Qarabağ şəhidləri” bölümlərində Novxanı kəndinin qəhrəman övladlarından, onların göstərdikləri şücaətdən, mətanətdən bəhs olunur. Burada təkcə bir kəndin deyil, bütövlükdə Azərbaycanın unudulmaz dərdləri, tökülən qanlar, güllələnən talelər səhifələnib.

“Şairlər” bölümündə novxanılı şairlərin şeirlərindən nümunələr, “Həmkəndlilərimizin əhvalatları” bölümündə isə Lalə Abuzərovanın, Arif Teymurovun, Molla Rövşənin, Vaqif Ağayevin, Mirsəməd Səfərlinin, Cavanşir Manafovun, rəssamlardan Elçin və Zöhrab Cabbarovların qələmə aldıqları lətifələr, Vaqif Ağayevin “Son söz əvəzi”ndə kitabın təsviri, kitabın işıq üzü görməsində zəhməti olan insanlar haqqında məlumat, kitabın sonunda “Əlavələr”də isə müxtəlif illərin statistik məlumatları verilmişdir.

Kitab təkcə bir kəndi əks etdirmir. Burada Azərbaycanın tarixinə qısa bir baxış var. Burada Azərbaycan xalqının milli adət-ənənələrinin əksi var. Burada mənəvi dəyərlərimizə hörmət və rəğbətin ifadəsi var. Kitab hər bir Azərbaycan vətəndaşının kitabxanasında ön rəflərdən birində yer tuta bilər. Kitabın işıq üzü görməsində böyük zəhməti olan bütün vətənpərvər insanlara dərin təşəkkürümüzü bildirir, və onları təbrik edirik.

“Haqqın sədası” qəzeti, 10.08.10.

"OBRAZLAR ALƏMİNDƏ"

"Kredo" qəzeti bizi çox yazarlarla tanış edib, çox şairi, nasiri, publisisti ədəbi ictimaiyyətə tanıdıb. Bu qəzetin redaksiyasında yaxından tanıdığım adamlardan biri də Elçin Kamaldır. Üzündən uşaq məsumluğu əskik olmayan, səmimiyyəti ilə hamının hörmətini qazanmış bu yazıçının ancaq qəzetdə çap olunan yazılarını oxumuşam. Amma onun "Manqal" adlı hekayələr toplusunun müəllifi olduğunu da bilirəm. Fariz Çobanoğlunu da elə "Kredo"dan tanıyıram və qəzetdə çap olunan geniş həcmli yazılarını oxumuşam. Bir neçə il bundan əvvəl onlar mənə bir kitab bağışlamışdılar. O zaman "Müasirlərim" seriyasından kitablar yazdığımdan, çap olunan kitablar haqqında yazılar yazmaq imkanım olmurdu. Bu yaxınlarda həmin "Obrazlar aləmində" kitabı əlimə keçdi. Onu bir də vərəqlədim...

Kitab yazıçı-publisist Hüseynbala Mirələmovun yaradıcılığından bəhs edir. Kitaba otuz bir məqalə daxil edilmişdir ki, bunların 15-ni Elçin Kamal, 16-nı Fariz Çobanoğlu yazmışdır. Kitabın redaktoru və ön sözün müəllifi şair-publisist Əlirza Xələflidir. O, kitabı belə dəyərləndirir: "Mən bu kitabda toplanmış ədəbi-publisistik düşüncələrin "Kredo" qəzeti redaksiyasında gedən ədəbi döyüşlərin nəticəsi olaraq zaman-zaman araya gəldiyinin şahidiyəm. Müəlliflər bəzən təhlillərində ifrata varsalar belə, onları sözə qeyri-səmimi münasibətdə kimsə qınaya bilməz. Yanğı ilə qələmə alınmış bədii lövhələri Elçin Kamal da, Fariz Çobanoğlu da həssaslıqla duymuş, eyni yanğı ilə həmin hissləri yaşamağa çalışmış, elə bu səbəbdən də heç kimin yolu ilə getməyərək orijinal tədqiqat əsəri yaratmışlar. Sərrast fikirlər, dəqiq ədəbi-nəzəri mühakimələrlə obyekt olaraq qəbul edilmiş yazıçının daxili-mənəvi aləmindən geniş oxucu auditoriyasına körpü salmışlar".

Elçin Kamalın "Qayada min bir çiçək..." yazısında söhbət Hüseynbala Mirələmovun "Qayada çiçək" kitabından

gedir. Son zamanlar oxucuların azalmasından şikayətlənən müəllif, bunun səbəbini təkcə oxucularda görmür, dövrün, zamanın qarmaqarışıq olduğunu diqqətə çatdırır və belə bir vaxtda heç nəyə baxmayaraq ortaya kitab qoyan yazıçıları alqışlayır.

Hüseybala Mirələmovun kitabındakı "Bir tikə çörək", "Tənha durna uçuşu", "Qayada çiçək", "İzlər", "Qayıtdı durnalar", "Dəyirmana gedən yol","Qartal" və s. hekayələrindən söz açır və müəllifin ədəbi-bədii potensialını dəqiqləşdirməyə, əsərlərin bədii dəyərini, mövzu əhəmiyyətini oxuculara çatdırmağa çalışır. Müəllif yazır: "Mən "Qayada çiçək"ə baxarkən "tənha durnanın uçuşu"na diqqət kəsildim. "Qayıdan durnalar"ın səmada qövs cızmasına tamaşa etdim. "İzlər"ə düşdüm. Həmin izlərlə "dəyirmana gedən yol"a çıxdım, "bir tikə çörək" ümidilə yolları ağardan insanları gördüm. Səmada süzən "Qartal"ın azadlıq eşqi ilə havalanıb "Meşədə tənha ev"in sakinləri ilə söhbətləşdim. Mənə aydın oldu ki, hamımızın xofla qarşıladığımız qasırğa bəzən insanın dağılmış həyatını sahmana sala bilir. Eyni zamanda hələ də "vicdanın cəzası"ndan qorxmayıb "casus-"luq edənlər var".

Kitabdakı "Yollar səni yormayıb ki..." adlı yazıda müəllifin həmin əsərlərinə müraciət görürük. Hüseynbala Mirələmovun hekayə qəhrəmanlarının həyat yolunu izləyən müəllif xüsusilə müharibə dövründə yaşadıqları çətin həyatı, bir tikə çörəyə olan ehtiyacı yazıçının necə ustalıqla qələmə aldığını qeyd edir. Əsərlərdəki qəhrəmanların istəklərinin, arzularının necə məhv olmasını, bütün bunların yazıçı qələmində necə canlandırıldığını qeyd edən müəllif əsərin sanki şeir dilində yazıldığını düqqətə çatdırır. Burada obrazların səciyyəvi cəhətləri araşdırılır. Əsasən ana obrazı üzərində dayanan müəllif ana arzusunu, xeyirxah arzuları təqdir edir və yazıçının sənətkarlığını yüksək qiymətləndirərək yazır:"Gözəllik və eybəcərlik, ülvilik və rəzillik, xeyir və şər, qaranlıq və işığı təfəkkür süzgəcindən böyük sənətkarlıqla

keçirən H.Mirələmova yazdığı ilk "Bir tikə çörək" hekayəsi ədəbiyyat aləmində uğurlu bir qapı açmışdır. Bu qapıdan içəri daxil olanlar—yazıçı kədərinin izinə düşənlər "Bir tikə çörək"dən, "Vicdanın hökmü"nə, "Güllələnmiş heykəllərin fəryadı"na, müəllifin ən böyük ədəbi uğuru sayılan "Xəcalət" povestinə qədər uzanan yolda həyəcanlı bir ömrün, yazıçı taleyinin yaşantılarını özlərinə çox doğma gördüklərindən yorulmadan bu yolun damarını qırmağa səy göstərirlər".

Fariz Çobanoğlunun "Daşlar qəzəbdən göyərir" adlı yazısında Hüseynbala Mirələmovun "Son arzu" hekayəsindən bəhs edilir. Məqalənin əvvəlində Amerika yazıçısı O. Henrinin "Son yarpaq" hekayəsinə münasibət bildirən müəllif öz uşaqlığını xatırlayır. Lakin sonralar da həmin hekayəni təkrar-təkrar oxuduğunu və sənətin ecazkar təsirini məhz o hekayəni oxuyarkən duyduğunu qeyd edir. Daha sonra Hüseynbala Mirələmovun "Son arzu" hekayəsini oxuyanda yenidən həmin hissləri yaşadığını bildirir. Onun fikrincə bu hekayə ən soyuqtəbiətli insanın belə qəlbinin buzunu əridə biləcək təsirə malikdir. Burada bir xəstənin—Elmarın son arzusundan söhbət gedir. Fariz Çobanoğlu məqaləni belə bitirir:"..."Son arzu" mənə "Son yarpaq" qədər təsir etdi. Yaddaşımda əbədi iz salmış qoşa adlar sırasına bir qoşa ad da yazıldı. "Son arzu" və "Son yarpaq". Hər ikisində istək var, arzu var. Birində qoca rəssam Bermanın sənət incisi yaratmaq arzusu, digərində insan olmaq arzusu. Bu arzular bir-birinə nə qədər uzaqdırsa, bir o qədər də yaxındır".

Elçin Kamalın "Xəcalət"i müharibə yaratdı" və "Vətən: qədim tarix kitabının səhifələri" adlı yazılarında Hüseynbala Mirələmovun "Xəcalət" povestindən bəhs açılır. "Xəcalət"də vətən həsrəti, yurd təəssübkeşliyi, torpaqların işğalı, qaçqın-köçkün problemi bədii ifadəsini tapmışdır. Bu povest çap olunduğu vaxtda diqqəti çəkmiş, haqqında bir sıra yazılar nəşr olunmuşdur. Elçinin bu yazılarında da həmin məqalələrə istinad olunur. Müəllif başqalarının fikirlərinə

hörmətlə yanaşır, amma sonda yenə də öz içindən, qəlbinin dərinliyindən gələni qələmə alır. Əsərdəki obrazları səciyyələndirən müəllif, təbiət təsvirlərindən də yan keçmir, Qarabağ camaatının qonaqsevərliyini də qeyd edir, ümumiyyətlə, yazıçının diqqət çəkdiyi bütün məqamlara güzgü tutmağa çalışır.

"Bədii söz: təfəkkürün qasırğası" adlı yazısında H.Mirələmovun "Qasırğa tez keçdi" hekayəsindən danışan Fariz Çobanoğlu Zəminə obrazının səciyyəsini açmağa, ana olmaq istəyən, amma bu arzusuna çata bilməyən bir qadının qarşılaşdığı xoşagəlməz münasibətlərdən, nəhayət onun evini tərk etməsindən, eyni zamanda əri Rəhimə olan güclü məhəbbətindən, sədaqətindən söz açır və onu xarakterizə etməyə çalışır. Onun "Duyğuların harayı yaxud yazıçı qəlbindən gələn səs" adlı yazısında da həmin povest haqqındakı fikirləri diqqəti çəkir. Burada əsərin ideyası, əhəmiyyəti ön plana çəkilir. Müəllif burada müxtəlif müqayisələr aparır. Burada Əmir Teymur da xatırlanır, Antey də, Seyid Nigari də. Yazı belə yekunlaşır: "Xəcalət" povesti Azərbaycanın taleyinə gecə kimi qaranlıq gətirən günlərin ağrısından doğulub. Bu ağrı daha çox 1988-93-cü illəri əhatə edir. İndi isə Azərbaycan həmin illərin ağrısını xatırlayır və yaşayır. Ümüd edirik ki, yaddaşımızı silkələyən, duyğularımızı ehtizaza gətirən, bizi sözüylə, sənətiylə Vətənə sarı çəkən yazıçıdan qələbə soraqlı salnamələri yazmaq qisməti də yan keçməyəcəkdir".

Farizin "Təbiəti qorumaq istəyi" adlı yazısında H.Mirələmovun "Simüzər" hekayəsindən və "Həyat eşqi" povestindən, "Kişnəsə namərd atları" adlı yazısında "Güllələnmiş heykəllərin fəryadı" essesindən, onun televiziya tamaşasından, "Mənəvi-əxlaqi dəyərlərin təbliği"ndə "Yeni həyat", "Çimərlikdə", "Qarınqulu" hekayələrindən bəhs edilir.

Elçin Kamal "İnsanın keçdiyi yolun bədii sözlə ifadəsi" adlı yazısında Hüseynbala Mirələmovun gənclik illərində yazdığı hekayələrə bir də yenidən qayıdır, son illərdə yazdığı povestlərə də qısa arayış verir və yazıçının 1987-ci ildə

qələmə aldığı "Qartal" hekayəsindən söz açır. Toğrul Aydəmir obrazını təhlilə cəlb edən müəllif onu tarixi, fəlsəfəni, ədəbiyyatı, musiqini bilən, duyan bir yazıçı kimi təqdim edir. Daha sonra "Həyat eşqi" povestinə keçid alır və bu əsərin məhz elə o hekayənin davamı olduğu qənaətini bildirir. "Qartal"dakı Toğrul Aydəmirin "Həyat eşqi"ndəki 40 yaşlı Müdrik, Qartal-İnsan, Palıd-İnsan olduğunu qeyd edir. Əsərdən verdiyi sitatla fikirlərini əyaniləşdirən müəllif bədii obrazın fəlsəfi mahiyyətini açmağa çalışır. Burada digər müəlliflərin əsərləri ilə müqayisələr də yer alır. Yazı müəllifin hökm kimi səslənən qənaəti ilə bitir: "Axırda onu deyərdim ki, bu əsər oxucularda mütləq azadlıq duyğusu yarada biləcəkdir. Məncə, "Həyat eşqi"nin ən böyük dəyəri də elə bundadır".

Elçin "Bir qovluğun izi ilə" adlı yazısında isə Hüseynbala Mirələmovun gənclik illərində yazdığı "İstəmirəm" hekayəsi, "Qartallar uçan yerdə" oçerki olduğunu diqqətə çatdırır. Müəllif burada yazıçının vaxtilə jurnalist kimi fəaliyyət göstərdiyini də qeyd edir. Onun publisistikasından söz açır və sonda fikrini belə yekunlaşdırır: "H.Mirələmovun publisistik əsərləri də özünəməxsusluğu ilə seçilir. O hekayələrində olduğu kimi, publisistik əsərlərində də səmimidir. O heç nəyi uydurmur, demək istədiyi fikirləri faktlarla mənalandıraraq oxucunu inandırır".

"Çimərlikdə yeni həyat və "Maşallahın paneli" adlı yazısında isə "Çimərlik", "Qarınqulu" və "Maşallahın paneli" hekayələrindən söz açan müəllif ən çox Maşallah surəti üzərinda dayanır, onu xarakterizə etməyə çalışır.

Elçin Kamalın "Dünyanın ən qiymətli paltarı" adlı yazısındasa Hüseynbala Mirələmovun məşhur "Gəlinlik paltarı" povestindən söhbət gedir. Bu povest hamıya "Kredo" qəzetindən tanışdır. Müəllif yazısının əvvəlində əsərin geniş epik lövhələrinə görə, obrazların həyat fəlsəfəsi haqqındakı düşüncələrinə görə, bəzən əsas hadisədən kənarlanmalara və hadisələri bütün təfərrüatı ilə təsvirinə görə povest

çərçivəsindən çıxdığını, romana yaxınlaşdığını vurğulayır. Sonra obrazlar aləminə baş vurur. Bəzi səciyyəvi cəhətləri qeyd edir. Ən çox ziddiyyətli Fənayə surətinin üzərində dayanır. Əsərdəki rəmzi mənalara diqqət çəkən müəllif yazır: ”Povest başdan-başa rəmzlər üzərində qurulmuşdur. Gəlinlik paltarı rəmzi məna daşıdığı kimi, əsərdəki obrazların adı da rəmzi məna kəsb edir. Zinayə bu cəmiyyətə zinalar buraxa bilər. Fənayə bu dünyanı boş, mənasız sayır. Haris pula və qadına çox hərisdir və s. Bu obrazların hər birinə öz xarakterinə və əməllərinə görə müəllif ad seçmişdir. Ancaq rəmzlər təkcə adlarla bitmir...”.

Elçin “Bir daha Fənayə haqqında” yazısında yenidən “Gəlinlik paltarı”na qayıdır. Burada müəllifi bir qədər geriyə dönən, Anarın Təhminəsini xatırlayan və onlar arasında oxşarlıq tapan görürük. Fənayənin gah əxlaq qanunlarına məhəl qoymadan uçuruma yuvarlandığını, gah bütün yaxşılıqlar üçün könül qapısını açdığını, gah da əxlaqsızlara layiqincə cavab verdiyini qeyd edən müəllif onun həm də istedadlı olmağını, duyğulu şeirlər yazmağını dəyərləndirir. Amma onun qənaəti belədir: “Fənayə Təhminəyə oxşasa da Təhminə deyil. Əgər Təhminənin hərəkətləri onu altıncı mərtəbəyə qaldırırsa, Fənayənin hərəkətləri onu mənəvi boşluğa aparır. Bəlkə də, bu ona görə belədir ki, Təhminədən fərqli olaraq Fənayə həyatda sevgisini tapa bilməyib”.

Farizin “Mənəvi dəyərlərin faciəsi” və “Gəlinlik paltarı” və həyatın üzü və astarı” adlı yazılarında da “Gəlinlik paltarı” geniş təhlil olunur.

Hər iki müəllifin Hüseynbala Mirələmovun yaradıcılığı ilə bağlı digər məqalələrində də dəyərli fikirlərə rast gəlirik. İstər bir yazıçı kimi hekayə və povestlərindən, istərsə də publisistik yazılarından bəhs edərkən hər iki müəllif publisistik yol tutmuşdur. Bu da təbii haldır. Bu günün əsəri haqqında məhz elə bu cür danışmaq məqsədəuyğundur. Bir əsərin gərək ən azı yüz illik ömrü olsun ki, onun haqqında elmi yazı yazasan. Bu günün əsəri ancaq publisistik düşün-

cələrlə dəyərləndirilə bilər. Bəlkə elə ona görə də ədəbbiyyatşünaslığın bir qolu olan ədəbi tənqid öz yerini son illər publisistikada qərarlaşdırıb.

Kitabda müəllifin əsərlərinin təqdimat mərasimlərini əks etdirən yazılar da yer alır.

Hiss olunur ki, hər iki müəllif bu kitabın ərsəyə gəlməsi üçün xeyli zəhmət çəkmişlər. Kitaba daxil edilən yazılarda Hüsenybala Mirələmovun yaradıcılığı haqqında digər müəlliflərin yazılarından da istifadə etmişlər. Bu da onu göstərir ki, müəlliflər yazıçı haqqında bütün yazılanları mütaliə etmişlər. Amma onu da qeyd edim ki, hər iki müəllifin yazılarında çoxlu təkrarlara rast gəlinir. Bu da yəqin ondan irəli gəlir ki, məqalələr ayrı-ayrı vaxtlarda yazılıb. Hər halda kitab yazıçının yaradıcılığını öyrənmək baxımından dəyərli vəsaitdir.

"Kredo" qəzeti, 31.07.10.

"VAHID ƏLİOĞLUNUN POETİK DÜNYASI"

Vahid Əlioğlunun bu yaxınlarda çapdan çıxan "Ürək yanmasa" kitabı haqqında yazdığım məqaləni redaksiyaya apardım. Elə orada Lətif Süleymanlı mənə "Vahid Əlioğlunun poetikası" kitabını verdi. Kitabın redaktoru tanınmış jurnalist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Daşdəmir Əjdəroğlu, rəyçisi filologiya elmləri doktoru Məhərrəm Qasımlıdır. Kitaba filologiya elmləri doktoru Alxan Bayramoğlu və Daşdəmir Əjdəroğlu ön söz yazmışlar. Vahid Əlioğlunu şəxsən tanımasam da Lətiflə söhbətlərimizdən və sonuncu şeirlər kitabından poetikası ilə tanış olmuşdum. İndi də dörd nəfər hörmət bəslədiyim həmkarımın ortaya qoyduğu bu kitabı oxumaya bilmədim.

Lətif Süleymanlı bu monoqrafiyasında Vahid Əlioğlu poeziyasında müxtəlif mövzuları ayrı-ayrı yazılarda araşdırıb təqdim etmişdir. "Şair Vahid Əlioğlu nədən və niyə yazır" sualına cavab axtaran müəllif onun "Yazıram" şeirin-

dən bəhs açır və elə həmin sualın cavabını da burada tapır. Şeirin orijinallığını, poetik zənginliyini qeyd edən tədqiqatçı Vahid poeziyasının ümumiyyətlə aşıb-daşan duyğuların məhsulu olduğunu vurğulayır.

"Vahid Əlioğlu yaradıcılığında vətənpərvərliyin tərənnümü" nü ön plana çəkən müəllifin təqdimatı ilə çox razılaşıram. Çünki, bu şairin yaradıcılığında doğrudan da ən güclü motiv vətənpərvərlikdir və mən Vahidin kitabı haqqında yazdığım məqalədə ancaq bu cəhəti işıqlandırmışdım, onun vətəndaşlığını, yurd təəssübkeşliyini dəyərləndirmişdim. Alxan Bayramoğlu da "Dəyərli tədqiqat" adlı yazısında bu cəhəti qeyd edir: "Müasir ədəbi prosesdə Vahid Əlioğlunun poeziyasının tədqiqat obyekti olması zərurətdən doğur. Çünki, onun istedadı, dünyagörüşü çoxsahəli və çoxpilləlidir. Şairin yaradıcılığında böyüyüb-boya-başa çatdığı Borçalı mühitinin əks-sədası hər misrasında, hər bəndində hiss olunur, diqqəti çəkir. Şairin dünyaya göz açdığı Borçalı bütövlükdə yaradıcı ziyalıların, aşıq və şairlərin daha çox seçilən mühitidir. Heç şübhəsiz, Vahid Əlioğlunun bir şair kimi formalaşmasında Borçalı ədəbi mühitinin əvəzsiz xidməti olub".

"Vahid Əlioğlu yaradıcılığında ana obrazı" və "Valideyn-övlad münasibətlərinin tərənnümü" adlı yazılarda isə müəllif xalq deyimlərinə üz tutur. Ana məhəbbətini, övlad sevgisini əks etdirən bayatılarımızı yada salır. Daha sonra şairin yaradıcılığında yer alan bu mövzudan söz açır. Vahidin "Evimiz həmişə analı olsun", "Evimin ocağı, közüsən, ana!", "Kaş ana laylası susmasın bir an", "Analar olmasa dağılar cahan" və s. misralarını diqqətə çatdıran müəllif ana sevgisinin dəruni bir hiss olduğunu, ana adının, ana ləyaqətinin uca tutulmasının gərəkliyini qabarıq ştrixlərlə oxucuya çatdırır.

Vahidin şöhrəti-tacı,
Ağ günümdü ağ saçı.
Sağ olsun qardaş-bacı.
Anam düşüb yadıma.

Burada ataya münasibət də diqqət mərkəzindədir. Şairin "Gecə-gündüz nur yağdıqca üzündən, Nur tökülür üzümüzə, ay ata!", "Mənim and yerimsən, qibləğahımsan, Mən bunu demirəm üzə, ay ata" kimi misralarından söz açan müəllif atanın da övladın həyatında ana kimi rolunun böyüklüyünü bildirir.

Dolmasın qəlbinə nə kədər, nə qəm,
Əzəldən olmusan haqq ilə həmdəm.
Mən oğlun Vahidəm, yenə deyirəm,
Həmişə borcluyam Sizə, ay ata.

Burada oğula ünvanlanan misralar, eləcə də nəvələrə həsr olunmuş şeirlər də maraq doğurur. Lətif Süleymanlı şairin ailə münasibətlərinin tənzimlənməsində ananın, atanın, övladların, əslindəsə bütün bu insanların bir-birinə olan sevgisinin, hörmətinin əsas rol oynadığını ön plana çəkdiyini oxuculara aydın fikirlərlə çatdırmağa çalışır. Burada müəllif "Dədə Qorqud" dastanından bir epizodu xatırladır:

Sən sağ ol, qadın ana"
Atam sağ olsun.
Bir mənim kimi oğlan bulunmazmı olur?..

Müəllif şairin oğulluq münasibətini bir qədər də geniş mənada götürdüyünü qeyd edərək yazır:"Şairi ilhamlandıran, onu göylərə qaldıran təkcə oğul məhəbbəti, ata sevinci deyil, o həm də xeyirxah, humanist insan—vətəndaşdır. Cəmiyyətin aparıcı, istedadlı insanlarından, ən başlıcası, nurlu ziyalılarından biridir. Məhz buna görə də o, ziyalı mövqeyi tutur, ziyalı sözü deyir. Həyatın, zamanın gərdişləri qarşısında əyilmir, sınmır, bəşəri ideyaları hər şeydən uca tutur, subyektiv hisslərini ictimailəşdirə bilir. Artıq o, təkcə öz oğluna üz tutmur, bütün mərd oğulları el üçün yanmağa çağırır, elin, xalqın dar günündə öndə olacaqlarına inanır:

Mərd oğul gərəkdir el üçün yana,
Elin dar günündə öndə dayana.
Elə oğul ol ki, Azərbaycana,
Yayılsın dünyaya şöhrətin, oğul.”

Monoqrafiyanı qiymətləndirən Daşdəmir Əjdəroğlu yazır: ”..Lətif müəllimə görə, Vahid Əlioğlunun şeiriyyətində sanki bu dərd-sərin caynağından qopmağa çağırış var, sevincli-fərəhli günlərinnin xiffətini çəkən bir şairin ümumxalq dərdlərinə çevrilən dərdlərinin qulaqlarımızdan çəkilməyən hay-harayı var. Valideyni, ana Vətəni, torpağı, yurdu, təbiəti və onun gözəlliklərini sevmək və qorumaq borcunun birinciliyinə, əzəlliyinə, ilkinliyinə and içdirmək istəyi var. Budur, şairin böyüklüyü və Lətif müəllim demişkən, var olsun səmimiyyətdən doğan poeziya! Lətif müəllimin də uğuru ondan ibarətdir ki, bu poeziyanın ləyaqətli davamçılarından olan V.Əlioğlu yaradıcılığına müraciət edib və bu uğurun kökü onun təbiiliyində, səmimiyyətində, təhkiyələrinin rəvan, səlis və axıcılığındadır”,

Növbəti bölüm “Şairin yaradıcılığında məhəbbətin tərənnümü” adlanır ki, burada da müəllif məhəbbət şeirlərindən söz açır. Hər bir şairin ən ülvi dünyasını, ən təmiz duyğular aləmini əks etdirən bu şeirlərin səmimiyyətini diqqətə çatdırmağa çalışır və təbii ki, şairin misralarına müraciət edir: ”Sənsizlik dünyamı əlimdən alıb, Ay gülüm, mən sənin həsrətindəyəm”, “Saçlarına qızılgül Düzməyə tələsirəm”, “Yaşayırsan bil məndə sən”, “Gəlsən, Vahid qocalmaz, Gəl, ömrüm təzələnsin”, “Hər alovun sönməyi var, Bu məhəbbət sönməyəcək”,

“Qəm çökmüş göz ağlayır,
Sinəmdə köz bağlayır.
Deyirəm,-söz ağlayır.
Dözə bilmirəm sənsiz.

"Folklor ənənələri"nə ayrıca bölmə ayırsa da, biz elə kitab boyu əvvəlki bölümlərdə də tədqiqatçı-alimin folklora müraciət etdiyinin və şairin şeirlərini folklor nümunələri ilə, o cümlədən "Dədə Qorqud" dastanından götürdüyü sitatla, bayatılarla müqayisələrinin şahidi olmuşduq. Bu bölümdə də onun laylaları, bayatıları, zərb-məsəlləri, "Koroğlu" dastanından gələn ənənəni yadımıza salır.

"Təbiətin tərənnümü" bölümündə Azərbaycanın misilsiz təbii gözəlliklərini əks etdirən şeirlər tədqiqata cəlb edilmiş, şairin "Vaxt yetişdi, vidalaşaq, Salamat qal, ulu dağlar", "Dərdə dərman bulaqların", "Göz oxşayan çiçəklərin" və s. bu kimi misraları diqqətə çatdırılmışdır.

Yaşıl çəmən, göy yaylaqlar,
Qoca dağlar yadımdadır.
Hər bir dərdə dərman olan
Buz bulaqlar yadımdadır.

Monoqrafiyanın son bölümü "Şairin yaradıcılığında sənət adamlarının tərənnümü" adlanır. Burada el ağsaqqalı Camal Mustafayevə, alim, filosof Həmid İmanova, Xitab həkimin unudulmaz xatirəsinə, şairin rəssam dostu Fərman Qulamova həsr olunmuş şerlərdən söz açılır.

Lətif Süleymanlının bu monoqrafiyası Vahid Əlioğlu yaradıcılığını təqdim etmək, şairin poeziyasının səciyyəvi cəhətlərini oxuculara açıqlamaq baxımından maraqlı kitabdır. Müəllif burada müasirimiz olan bir şairin həyat və yaradıcılığına güzgü tutmuş, təbii ki, böyük zəhmət bahasına bu əsəri ərsəyə gətirmişdir. Namizədlik işi "Böyük Vətən Müharibəsi dövrü" olan Lətif Süleymanlının indi lirik şeirlər müəllifi olan bir şairin yaradıcılığına müraciət etməsi də maraq doğurur. Biz həmkarımıza yeni-yeni uğurlar arzulayırıq və yeni kitablarını gözləyirik.

"Real-press" qəzeti, 21. 07.10.

"YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ VƏ RUS MƏDƏNİYYƏTİ"

Hər dəfə Əlyazmalar İnstitutunun oxu zalında Çəmənzəminlinin əlyazmaları ilə məşğul olan balaca qızcığazı görəndə düşünürdüm ki, görəsən onun neçə yaşı var? Harada oxuyur? Çəmənzəminlinin rus dilində yazdığı əsərləri niyə tərcümə edir? Nəhayət, bir dəfə Çəmənzəminlinin tədqiqatçısı olan rəfiqəm Şəlalə xanım mənə bu balaca qız haqqında danışdı və mən bildim ki, o heç də mənim düşündüyüm kimi balaca deyil. 1972-ci ildə dünyaya göz açan, orta məktəbi medalla bitirən, 1993-cü ildə ekstern yolu ilə M.F.Axundov adına Pedaqoji Rus dili və ədəbiyyatı İnstitutunu bitirən bu qızın Çəmənzəminli haqqında neçə-neçə məqaləsi çap olunub. O, Çəmənzəminli irsi ilə bağlı namizədlik dissertasiyası üzərində işləyir. Elə o gün mən Leyla Məcidqızı ilə yaxından tanış oldum. Bir müddətdən sonra onun Çəmənzəminli irsindən topladığı yazıları kitab şəklində çap olundu. Sonralar həmişə əlaqə saxlayır, ən azından telefon söhbətlərimizdə onun işi ilə maraqlanırdım.

2000-ci ildən silsilə kitablar yazmağa başım qarışdığından ancaq haqqında kitab yazdığım yazıçıların yaradıcılığını oxumaq imkanım olurdu. Yeni çap olunmuş kitablar haqqında söz deməyə vaxt yox idi. Bəzən yubileylər olanda, ya da lap yaxın dostların gileyindən çəkinəndə hansı bir kitab haqqındasa yazırdım. Heç demə, Leylanın 2002-ci ildə "Yusif Vəzir Çəmənzəminli və rus mədəniyyəti" adlı monoqrafiyası nəşr edilib. Srağagün İskəndər Etibarın otağında stolun üstündə kitabı görəndə təəccübləndim. Götürüb vərəqləyəndə, İskəndər müəllim dedi ki, istəyirsən götür. Elə bu sözə bənd idim, kitabı aldım. Dünən oxudum və oxuduqca qeydlərimi də götürdüm ki, sabah mütləq bu kitab haqqında yazacağam...

Kitabın elmi redaktoru filologiya elmləri doktoru, BDU-nun professoru Tofiq Hüseynoğlu, rəyçiləri də universitetin

professorları İfrat Əliyeva və Vaqif Sultanlıdır. Tofiq Hüseynoğlu universitetdə mənim də müəllimim olub. Onu Yusif Vəzir Çəmənzəminli irsinin gözəl tədqiqatçısı kimi tanıyıram. Gəncləri də bu sahəyə meylləndirməsinin şahidiyəm. Onun rəhbərliyi altında bu sahədə tədqiqat aparan xeyli gənc tədqiqatçı, alim tanıyıram. Tofiq müəllim həm də bir insan kimi hörmət bəslədiyim müəllimlərimdəndir.

Tofiq Hüseynoğlu kitaba gözəl bir rəy yazıb. Çəmənzəminli irsini "xalqımızın daim gərəyi olacaq milli-mənəvi sərvəti" hesab edən professor onun irsinə marağın son illər artdığını qeyd edir. Amma mən deyərdim ki, bu məhz Tofiq müəllimin səyinin, zəhmətinin sayəsindədir. Hələ universitet illərindən savadlı tələbələri seçib bu sahəyə istiqamətləndirən Tofiq müəllimdir. Tələbə vaxtı hansı sahəni seçməyin gərəkliliyini hər tələbə bilmir. Burada müəllimlərin istiqamətverici təklifləri xüsusi rol oynayır. Təbii ki, hər müəllim gücünə bələd olduğu tələbələri öz sahəsinə çəkir. Tofiq müəllim isə hətta dərs demədiyi savadlı gəncləri belə inandıra bilir. Bu onun həm Çəmənzəminliyə olan sevgisindən irəli gəlir, həm də ədəbiyyat üçün bacardığı işi görmək istəyindən. Digər tərəfdən isə, Tofiq mqüəllim çox sadə insan olduğu üçün tələbələri və aspirantları, dissertantları ilə dost kimi danışmağı bacarır. Bu mənada onun rəhbərliyi altında işləyən gənclər xoşbəxt tədqiqatçılardır. Onlar həm tədqiqatçı kimi yetişir, həm də özlərinə gözəl bir dost tapmış olurlar...

Leyla Məcidqızı da Tofiq müəllimin yetirməsidir. Professor dissertantının əsərinə verdiyi rəydə onun çəmənzəminlişünaslığı mükəmməl öyrəndiyini, ədibin Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan, bu vaxta kimi çap və tədqiq olunmamış əlyazmalarını diqqətlə araşdırdığını, onun həyat və yaradıcılığını əhatə edən dəyərli bir kitab ərsəyə gətirdiyini qeyd edərək yazır:"...bu kitab yazıçının, ümumiyyətlə zəngin irsini, bu irslə əlaqədar olan Azərbaycan və rus ədəbiyyatı materiallarını, hər iki ədəbiy-

yatın tarixini, xüsusilə, XIX-XX əsrlərdə baş vermiş ən əlamətdar ədəbi hadisələri mükəmməl öyrənmiş, həmçinin ədəbi prosesi, ədəbi-nəzəri fikrin bu günə qədərki hərəkətini müntəzəm izləyən istedadlı bir tədqiqatçının sürəkli axtarışlarının yeni və maraqlı bir nəticəsi, yekunu kimi qiymətlidir...”

Kitab müəllifin qısa ön sözü ilə açılır. Burada Çəmənzəminlini ədəbi-mədəni fikrimizin inkişafında misilsiz xidmətləri olan qüdrətli şəxsiyyət kimi təqdim edən tədqiqatçı onu həm yazıçı, həm ədəbiyyatşünas, həm də tərcüməçi kimi səciyyələndirməyə çalışır.

Əsərin birinci fəsli “Y.V.Çəmənzəminlinin dünyagörüşünün və ədəbi-estetik zövqünün formalaşmasında rus mədəniyyətinin rolu” adlanır. Fəslin “Rus dilində ilk qələm təcrübələri” bölümündə tədqiqatçı Çəmənzəminlinin həyatından, uşaqlıq illərindən bəhs açır, sonra onun yaradıcılığına keçir, təxəllüslərindən və ilkin qələm təcrübələrindən danışır. Yazıçının müxtəlif orqanlarda müxtəlif təxəllüslərlə dərc edilmiş əsərlərini qeyd edən müəllif, onun hələ uşaq yaşlarından rus ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərini oxuduğunu və onlardan bəhrələndiyini diqqətə çatdırır. Diqqəti çəkən detallardan biri də odur ki, gənc tədqiqatçı yazıçının həyat və yaradıcılığından danışarkən qocaman tədqiqatçı-alimlərin dəyərli fikirlərinə istinad edir, onların Çəmənzəminli haqqındakı yazılarından sitatlar gətirməklə fikirlərini əyaniləşdirir.

Fəslin “Gündəlik”ləri” bölümündə “epistolyar” ədəbiyyatın gündəlik janrından söz açan müəllif Əlyazmalar İnstitutunda saxlanılan və Çəmənzəminlinin 14 aprel, 1907-ci ildən 23 iyul, 1909-cu ilə qədər yaşadığı dövrə güzgü tutan gündəliklərindən gərəkli məqamları təqdim edir. Həm nəsr, həm də şeir formasında olan bu yazıları oxuduqca Çəmənzəminli dünyasına daxil olan tədqiqatçı, onun yaşadığı dövrü, həyat şəraitini öyrənir. Yazıçının hətta doğmaları haqqında yazdığı fikirləri, kiçik qeydləri də diqqətdən qaçırma-

yan müəllif, yazıçını səciyyələndirən bütün detalları təqdim etməyə çalışır. Burada yazıçının maddi və mənəvi əzabları, cavabsız qalan məhəbbəti, ədəbiyyata, incəsənətə marağı əks olunmuşdur. Burada Çəmənzəminlinin, həm rus ədəbiyyatının tanınmış nümayəndələrindən, həm də onların əsərlərindən qeydləri təhlilə cəlb olunmuşdur.

Fəslin "Hekayə və ssenarıləri" bölümündə isə yazıçının rus dilində yazdığı müxtəlif əsərləri təhlil olunur. Bu fəsildə gənc tədqiqatçı Çəmənzəminli irsinə dərindən bələd olan alimlərin, o cümlədən elmi rəhbəri professor Tofiq Hüseynoğlunun, Çəmənzəminlinin arxivini nəşrə hazırlayan filologiya elmləri doktoru Cənnət Nağıyevanın, çəmənzəminlişünas professor Kamran Məmmədovun, tədqiqatçı-alim Vilayət Quliyevin əsərlərindən istifadə etmişdir.

Monoqrafiyanın ikinci fəsli "Y.V.Çəmənzəminli və rus ədəbiyyatı məsələləri" adlanır. Fəslin "Yaradıcı təsirlər. Ədəbi əlaqələr" bölümündə Çəmənzəminlinin, yaradıcılığına təsir edən M.Y.Lermantov, İ.A.Qonçarov, İ.S.Turgenev, Y.Nazarenko, V.Sakulin, A.P.Çexov, M.Y.Saltıkov-Şedrin, N.V.Qoqol kimi yazıçıların əsərlərini mütaliə etdiyini, onların kitablarından özünə gərək olanları götürdüyünü bildirən tədqiqatçı, yazıçının əsərlərindəki bəzi məqamları müqayisə etmiş, paralellər aparmış və Yusif Vəzirin yaradıcılığında öz təsirini buraxan rus ədəbiyyatının səciyyəvi cəhətlərini də araşdırmışdır ki, bu da tədqiqatçıdan dərin, hərtərəfli bilik və bacarıq tələb edir. Burada Çəmənzəminlinin bəzi yazıçılarla məktublaşmaları da tədqiqata cəlb olunmuş, hətta Mixail Yurinin, A.Yurbenkonun, Y. Libedinskinin məktublarının tərcüməsi də verilmişdir.

Fəslin "Y.V.Çəmənzəminli rus yazıçılarının bədii irsinin tədqiqatçısı kimi" bölümündə artıq ədəbiyyatşünas alimdən söhbət gedir. Müəllif "Turgenevin yazı üslubu", "Gənc Puşkin və oxucuları", "Şəxslərin və hadisələrin tipləşməsi", "Çexov, Qorki, və L. Tolstoy", "Çexovun" dili" adlı məqalələri tədqiqata cəlb edərək, burada A.S.Puşkin, İ.S.Turge-

nev, Maksim Qorki, Lev Tolstoy, A.Çexov, F.Dosteyevski kimi yazıçıların yaradıcılığından bəhs edən ədibin ədəbiyyatşünaslıq fəaliyyətini təhil etməyə çalışmış və məqsədinə nail olmuşdur. Bu bölümdə M.İbrahimobanın və filologiya elmləri namizədi Şəlalə Abdullayevanın da məqalələrindən istifadə edilmişdir.

Əsərin üçüncü fəsli "Adekvat tərcümə problemi" adlanır. Üç bölümdə verilən bu fəsildə müəllif "XX əsrin 20-30-cu illərində Azərbaycan bədii tərcümə sənətinə" öz bacarığı müqabilində nəzər yetirmiş, problemlərdən, mübahisələrdən və mülahizələrdən bəhs açmış, bəzi əsərlərdən istifadə edərək fikirlərini əsaslandırmış, "Y.V.Çəmənzəminlinin rus ədəbiyyatından tərcümələri" üzərində dayanaraq, sitatlar vermiş, təhlillər aparmış, eyni zamanda "Y.V.Çəmənzəminli irsinin rus dilinə tərcüməsi məsələləri"ndən bəhs edərək, öz fikirlərini bildirmişdir.

Kitaba son söz əvəzi, nəticə və zəngin ədəbiyyat siyahısı daxil edilmişdir. Əsər istər çəmənzəminlişünaslar üçün, istərsə də filoloq olmaq istəyən tələbələr üçün dəyərli vəsaitdir. Kitabı oxuduqca hiss edirsən ki, müəllif ədəbiyyata eləbelə alim olmaq xətrinə gəlməyib. Burada ədibə böyük sevgi, onun yaradıcılığına xüsusi rəğbət də hiss olunur. Müəllif gənc olmasına baxmayaraq, həqiqətən, ciddi tədqiqat aparmış, özünəməxsus tərzdə ortaya gözəl, dəyərli bir əsər qoymuşdur. Alim bacımıza daha böyük uğurlar arzulayırıq.

"Birlik press" qəzeti, 26.06.10.

POEZİYANIN SİRRİ

Çağdaş Azərbaycan ədəbiyyatşünaslığında, ədəbi tənqiddə özünəməxsus yeri olan Qurban Bayramov yüzlərlə məqalənin və bir sıra kitabların müəllifidir.

Pedoqoji institutu müvəffəqiyyətlə bitirib, müəllim, dərs hissə müdürü kimi fəaliyyət göstərən Qurban Bayramovu, elmə həvəs Nizami adına Ədəbiyyat İnstitutunun aspiran-

turasına çəkib gətirmiş, sonralar institutda işə düzəlmişdir. 1972-ci ildən institutda baş laborant, kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi vəzifələrini mərhələ-mərhələ keçən tənqidçi 1979-cu ildə "Səməd Vurğun poeziyasında lirik qəhrəman problemi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Hal-hazırda institutda aparıcı elmi işçi vəzifəsində çalışır.

Qurban Bayramov məhsuldar tənqidçidir. Tez-tez müxtəlif qəzet və jurnallarda, o cümlədən "Ədəbiyyat qəzetində", "Kredo"da onun müxtəlif qələm sahibləri haqqında yazılarına rast gəlirik.

Qurban Bayramov bir insan kimi də olduqca səmimi, hər şeyi etiraf ertməyi bacaran adamdır. Böyüklə böyük, kiçiklə kiçik olmağı bacardığı üçün ətraf mühitin hörmətini qazanmışdır. Onun qələm dostlarına xüsusi hörmət və rəğbəti həm yazılarında, həm də söhbətlərində hiss olunur. Ədəbiyyat adamında səmimiyyət dəyərli cəhətdir...

Bu yaxınlarda şair dostumuz İskəndər Etibar mənə Qurban Bayramovun bir kitabını verdi. Kitab "Poeziyanın sirri:Çaylar geri axmır, dənizə can atır və yaxud qəlbini nar təkin kağıza sıxan şair Şahməmmədin poeportreti" adlanır və burada Şahməmmədin keçən il "MBM" nəşriyyatında çap olunmuş beşcildliyindən söhbət açılır. Şahməmmədin beşcildliyini elə bu yaxınlarda oxumuşdum və onun təbiətə həsr olunmuş şeirləri məni daha çox tutmuşdu. Xüsusən "dağ" obrazı diqqətimi cəlb etdiyindən elə onun yaradıcılığından bəhs edən "Şahməmmədin dağ həsrəti" adlı məqaləmi də bütövlükdə bu obraza həsr etmişdim...

Tənqidçi-alimin poeziyanın bir sıra problemlərini şair Şahməmmədin yaradıcılığı əsasında işləməsi onu göstərir ki, şairin yaradıcılığı hərtərəflidir, çoxcəhətlidir. Onun poeziyasında mövzu rəngarənliyi, zəngin obrazlar aləmi, eyni zamanda şairin müxtəlif bədii təsvir və ifadə vasitələrindən istifadə etmək bacarığı diqqəti çəkir. Kitabın redaktoru filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə,

əsərə rəy verən filologiya elmləri doktoru, professor Rəhim Əliyevdir.

Sözünə dahi Füzulinin misraları ilə başlayan tənqidçi əvvəlcə söz haqqında dəyərli söz deyib sözə başlayır və professor Yaşar Qarayevin bir fikrinə istinad edərək, Şahməmmədin "Yollar..." xatirə-romanına keçid alır və onun Füzulinin əsli-nəsli ilə bağlı fikirlərinə güzgü tutaraq, Şamaxının şairlər yurdu olduğunu qeyd edir və Füzulinin də, hardasa, buradakı Boyat kəndindən olması təxmini ilə razılaşır və məhz belə bir torpağın oğlu olması ilə fəxarət duyan Şahməmmədin yaradıcılığına keçir.

Tənqidçi əvvəlcə şairin çap olunmuş kitablarından danışır. Hər kitabda onun diqqət çəkən şeirlərindən sitatlar verərək fikirlərini əyaniləşdirir. Bu zaman təkcə öz fikirləri ilə kifayətlənməyən müəllif Şahməmmədin yaradıcılığından bəhs edən məqalələrə müraciət edir, onlardan sitatlar verir ki, bu da tədqiqat işinin sanbalını artırır. Biz burada Məstan Günərin, İlyas Tapdığın, Seyfəddin Rzasoy və Ramiz Əkbərin, Zülfüqar Şahsevənlinin, Emil Tahiroğlunun məqalələrindən şairin poeziyası ilə bağlı dəyərli fikirləri oxuyuruq.

Şairin 45 illik yaradıcılıq yoluna ciddi nəzər salan tənqidçi hər bir cəhətə diqqət yetirməyə çalışmış, onunla bağlı hər bir maraqlı detalı oxuculara çatdırmağa səy göstərmişdir. Belə ki, şairin poeziyasının səciyyəvi cəhətlərindən danışan müəllif onun hər kitabını ayrıca təqdim etmiş, bəzən kitabdakı diqqəti çəkən şeirlərin adlarını sadalamış, bəzən oradakı obrazlar aləmindən söz açmış, bəzən bir-iki bənd sitat vermiş, bəzən misralarla kifayətlənmişdir. Amma şeirlərdən danışarkən şairin xarakterini açmağa çalışmış, əsərin adında verildiyi kimi onun poeportretini yaratmağa səy göstərmiş və buna nail olmuşdur:"Şahməmmədin "Bahar çiçəkləri" (1982) - şərikli, "Dünyamız ağ göyərçin" (1984, şərikli), "Dağlar, səndə nəyim qaldı "(1990), "Pyeslər" (1991, şərikli), "Nastalo vremya" (1994), "Sevməsəydim, yaşamazdım" (1995), "Xatirələr ocağının işığında" (1997),

"Həyəcan dolu beş il" (1998), "Çaylar geri dönmür (1999), "Yerlə göy arasında" (2001), "Şuşa nəğmələri" (2001, şərikli), "Ləngəbiz" (2003), "Azərbaycan oxusun" (2003, şərikli), "İldırımlar qanadında (2006), "Yollar" (2007), "Azərbaycan bir də Heydər" (2008), "994552010290" (2009) və digər şeir, nəsr, publisistik kitabları, beşcildlik "Seçilmiş əsərlər" (2009) külliyyatında əksini tapan bütöv yaradıcılığı məhəbbət yüklü poetik karvandır. Və bu karvanın sarvanı isə "onun dumduru göylərə açılan ürəyidir"...

Şahməmmədin poeziyasını müxtəlif cəhətlərdən səciyyələndirməyə çalışan müəllif onun poemaları üzərində də xeyli dayanır və şairin "Arxalı dağlar", "Əsgər qardaşıma", "Atalar, analar, oğullar", "Müstəntiq", "Namuslu dünya", "İki oğul atası", "Qızıl qan" poemalarından söz açır, şairin "Karvan" poemasından xüsusi bəhs edir.

Kitabda xatirələrdən də danışılır. Şairin "Yeni Şirvan" qəzeti redaksiyasında "Gənc Sabirçilər" ədəbi məclisindən də söz açan müəllif burada şairin tanış olduğu və indiyədək dostluq etdiyi F.Sadıq, İ Etibar, T.Taisoğlu, G.Rəsul, Q. Əziz, T.Ələkbərli, N.Rüstəmov kimi yazarları da yada salır. Kitabda diqqətimi çəkən bir məqam var:"Şahməmməd texnikumu qurtarandan sonra təyinatla bir il üç ay Ağsu rayonunun Cəfərli, Ərəbuşağı kəndlərində müəllim işləyib, sonra 1967-ci ildə Uzaq Şərqə hərbi xidmətə gedib. Özü ilə üç şeir kitabı aparıb–Məmməd Arazın "Ömür karvanı", Bəxtiyar Vahabzadənin "İnsan və zaman", Fikrət Sadığın "Cığır" kitablarını əsgərlik balışının altında saxlaya-saxlaya yuxularına qatıb... Oradan Azərbaycana–Azərbaycan mətbuatına, Bəxtiyar Vahabzadəyə, Məmməd Araza, İskəndər Etibara, Tahir Taisoğluya şeir dolu məktubları uçub.. cavablar alıb, ümüd dolu, məsləhət, məhəbbət dolu... İskəndər Etibar onun "Nəğmələr", "Anamın yun palazı" şeirlərini əsgər şəkli ilə "Yeni Şirvan" qəzetində çap edir. Bu fakt uzaq Tayqada, yad ölkədə əsgərlik edən bir şair gəncin duyğularında dərin izlər buraxır..."

Kitabda şairin yaradıcılığı ilə paralel, onun həyat yolunu da izləyən müəllif yeri gəldikcə oxucuları maraqlı nüanslarla tanış edir. Burada hərbi xidmətdən qayıdan Şahməmmədin Azərbaycan Daxili İşlər nazirliyində işə qəbul edildiyini və qiyabi universitetin hüquq fakültəsində təhsil aldığını, oranı müvəffəqiyyətlə bitirib milis(polis) orqanlarında müxtəlif vəzifələrdə çalışdığını və polkovnik rütbəsinə kimi yüksəldiyini öyrənirik.

Şahməmməd Moskvada SSRİ DİN-in Akademiyasında təhsil aldığı illərdə (1982-1984) "Avrora", "Molodaya qvardiya", "Sovetskaya milisiya" jurnallarında şeirləri və daha sonralar 1994-cü ildə onun rus dilində "Nastalo vremya" kitabı çap olunmuşdur. Bu kitabda gedən şeirləri moskvalı şairlər İrina Yefimova, İqor Taraseviç, Viktor Zabelişinski tərcümə etmiş və bu kitabın işıq üzü görməsində o zaman Moskvada M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda təhsil alan Tahir Taisoğlunun və Moskvada yaşayan şair-tərcüməçi Məmməd Faiqin də böyük xidmətləri olmuşdur. Kitabda müəllif şairin o vaxtlarla bağlı xatirələrindən də sitatlar vermiş və oxucuları kifayət qədər məlumatlandırmağa çalışmışdır.

Kitabda şairin şeirlərinə bəstələnmiş mahnılardan da söz açılır və bu nəğmələrə öz repertuarında yer ayıran müğənnilər də diqqətə çatdırılır.

Burada şairin ailə həyatı ilə bağlı detallar da maraqlıdır. Xüsusən, onun Yəmən xanımla ailə qurması, gözəl övladlar böyütməsi, sevgi dolu bir həyatın içindən gələn səslər diqqəti çəkir.

Qurban Bayramovun bütün həyatını, yaradıcılığını ən xırda detallarına kimi bildiyi şair dostunun 60 illik yubileyinə ithaf etdiyi bu kitabda 60 illik ömrün hərarəti, 60 il vuran qəlbin çırpıntıları hiss olunur. Şahməmmədin yaradıcılığı haqqında gələcəkdə də kitablar yazılacaq. Biz həm şair dostumuza, həm də tənqidçi dostumuza yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

"Kredo" qəzeti, 2010

QÜRBƏT MİRZƏZADƏ - 50

Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı, Azərbaycan mədəniyyəti və s. olduğu kimi Azərbaycan ədəbi aləmi ifadəsinin də lüğət tərkibimizə daxil olması zəruridir. Var şair, nasir, dramaturq, publisist, alim, bir də var ədəbiyyat adamı. Əvvəldə sadaladığım adlara sahib olmaq çətin deyil, amma çətini ədəbiyyat adamı ola bilməkdir. Ədəbiyyat adamı bütünlükdə ədəbi aləmin tanıdığı, qəbul etdiyi adamdır. Ədəbiyyat adamı olmaq təkcə yazmaq deyil, həm də yazılanları oxuya bilməkdir. Hər dəfə tanımadığım bir adam mənə yeni çap olunmuş kitabım haqqında danışanda, düşünürəm ki, hələ də yazara görə deyil, yazılana görə oxuyanlar varsa, deməli ədəbi aləm də var, ədəbiyyat adamı da. Bu aydın məsələdir ki, yaradıcılığını bəyənib-bəyənmədiyimizdən asılı olmayaraq, hamımız dostlarımızın, yaxınlarımızın kitablarını oxuyuruq. Amma şəxsən tanış olmadığımız yazıçının, alimin əsərlərini onun yaradıcılığına görə oxuyuruq. Bu mənada məni tanımadan imzamı tanıyan, yazılarımı izləyən oxucularıma daha çox hörmət bəsləyir, təsadüfən rastlaşıb tanış olanda qeyd elədikləri fikirlərini daha çox dəyərləndirirəm.

Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Qürbət Mirzəzadə ilə tanışlığımız da belə olub. Hər dəfə Ədəbiyyat İnstitutunda rastlaşanda hansı yazımısa oxuduğunu deyib və məndən kitab istəyib. Sonralar rəfiqəm Şəlalə xanım dedi ki, Qürbət Azərbaycan Dövlət Universitetində (indiki BDU) onun tələbə yoldaşı olub və elə tələbəlikdə də hər şeylə maraqlanar, çox oxuyar, hətta Bakıda, Naxçıvanda keçirilən konfranslarda iştirak edərmiş. Qürbətin 1986-cı ildə Cəlil Məmmədquluzadənin anadan olmasının 120, “Molla Nəsrəddin” jurnalının nəşrə başlamasının 80 illiyi münasibəti ilə Y. Məmmədəliyev adına Naxçıvan Dövlət Pedoqoji İnstitutunda(indiki NDU-də) keçirilən elmi konfransda etdiyi “XX əsrin əvvəllərində

ədəbi-estetik fikir və "Molla Nəsrəddin" adlı məruzəsi Azərbaycan Ali və Orta ixtisas Təhsili Nazirliyinin (indiki Təhsil Nazirliyi) I dərəcəli diplomuna layiq görülmüşdür.

1988-ci ildə universiteti bitirən Qürbət Qaradağ rayonundakı 127 saylı orta məktəbə Azərbaycan dili və ədəbiyyatı müəllimi vəzifəsinə təyin edilmişdir. 1993-cü ildə həmin rayondakı 105 saylı məktəbə, 2007-ci ildə həmin rayondakı 321 saylı məktəbə köçürülmüşdür. Hal-hazıra kimi pedaqoji fəaliyyətini davam etdirir. 1998-ci ildən ali kateqoriyalı müəllimdir. Çünki, Qürbət müəllim eyni zamanda 1990-cı ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində "Əkbər Ağayevin ədəbi-tənqidi görüşləri" mövzusunda tədqiqat işi aparmış və 1998-ci ildə müvəffəqiyyətlə müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Qürbət Mirzəzadənin həmin dissertasiya mövzusunda yazdığı "Tənqidçi dünyası" adlı monoqrafiyası 2000-ci ildə Azərbaycan Dövlət nəşriyyatında çap olunmuşdur. Kitabın elmi redaktoru və ön sözün müəllifi filologiya elmləri doktoru Şamil Salmanov, rəyçiləri filologiya elmləri doktoru Akif Hüseynli və filologiya elmləri namizədi Tahirə Məmməddir. Şamil Salmanov kitaba yazdığı "Tənqidçi mövqeyindən" adlı ön sözdə həm Əkbər Ağayevin ədəbiyyatşünaslıq fəaliyyətindən söz açmış, həm də Qürbət Mirzəzadənin öz monoqrafiyasında Əkbər Ağayevin yaradıcılığına verdiyi qiymətə öz münasibəttini bildirmişdir.

Girişdə tənqidi, ədəbi prosesin dəyər və qiymətləndirmə meyarı hesab edən müəllif ilk növbədə ədəbi tənqid haqqındakı dəyərli fikirlərini oxucularla bölüşür. Ümumilikdə, Azərbaycan ədəbi tənqidindən söz açan tədqiqatçı M.F.Axundov, M.Kazımbəy, F.Köçərli, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov, A.Sur, S.Mümtaz, S.Hüseyn, M.Quliyev, B.Çobanzadə, H.Zeynallı, Ə.Nazim, M.Arif, M.Rəfili, M.Cəfər, C.Cəfərov, F.Qasımzadə, M.Quluzadə, Ə.Sultanlı, M.Hüseyn, H.Araslı, C.Xəndan, M.Təhmasib,

M.İbrahimov, Mir Cəlal və b. nümayəndələrinin adını çəkir və onların elmi irsinin araşdırılmasının bu gün tənqidimizin qarşısındakı ən zəruri məsələlərdən biri olduğunu qeyd edir. Daha sonra görkəmli tənqidçi Əkbər Ağayevə keçid alaraq, onun çoxşaxəli fəaliyyətinin əsas cəhətlərini diqqətə çatdıraraq yazır: ”Ə.Ağayevin tənqidçi-ədəbiyyatşünas fəaliyyəti Azərbaycan ədəbi-bədii, nəzəri-estetik fikrinin müxtəlif problem məsələlərini ehtiva edir, onun ideya-sənətkarlıq axtarışlarının özünəməxsusluğunu, ümumilikdə ədəbi-bədii təcrübəni vahid bədii sistem kimi dərk və qiymətləndirməyin üsul və vasitələrini, sənətin ayrı-ayrı estetik kateqoriyalarını, xüsusilə, növ, janr, ənənə və novatorluq kimi nəzəri problem məsələlərin əhəmiyyət doğuran tərəflərini üzə çıxarmağa xidmət edir. Azərbaycan şeirinin inkişaf mərhələlərinə, sənətkarlıq məsələlərinə sistemli, məqsədyönlü tədqiq marağı, nəsr və dramaturgiyanın mövzu və problematikasına, bədii ümumiləşdirmə, tipik xarakter və konflikti şərtləndirən amillərə, tərcümə nəzəriyyəsinə həsr olunan çoxsaylı məqalələr, ardıcıl araşdırmalar Ə.Ağayevin bir tənqidçi-ədəbiyyatşünas kimi universal yaradıcı fəaliyyətini ədəbi-bədii təcrübənin ümumi inkişaf axarında öyrənməyə zəmin yaradır”.

Monoqrafiyanın I fəsli “Ədəbi proses və tənqidin nəzəri-metodoloji axtarışları” adlanır. “Tənqid ədəbi prosesin hərəkətverici amili kimi” bölümündə müəllif Azərbaycan ədəbi tənqidinin təşəkkül və inkişaf prosesindən danışır, tənqidin professional səviyyədə formalaşmasında mühüm rol oynayan faktları diqqətə çatdırmağa çalışır. Tədqiqatçı “tənqidin ictimai-estetik təbiətini; əsas mahiyyətini, spesifikasını obyektiv baxımdan əks etdirən” Mirzə Fətəli Axundov nəzəri irsini, “dünyanın digər xalqlarının ədəbi-bədii fikri ilə müqayisədə Azərbaycan və ümumən Şərq ədəbiyyatının ümumi vəziyyətinin Firudin bəy Köçərli təhlilini, “ədəbiyyatın, sənətin həyatla, zamanla, cəmiyyət həyatında gedən proseslərlə əlaqəsinin” Əli Nazim izahını, “sənətin

ideya-estetik mənbəyini, ictimai şüur forması kimi özünəməxsus səciyyəvi cəhətlərini aydınlaşdıran" Hənəfi Zeynallı fikrini, eləcə də digər tənqidçilərin fikirlərini öz tərəzisində çəkərək qiymətləndirir. Müəllif o dövrün görkəmli tədqiqatçıları olan Bəkir Çobanzadənin, Salman Mümtazın Əkbər Ağayevin sənət müəllimləri olduğunu xüsusi vurğulayır və tənqidçinin sənətə, ədəbiyyata münasibətinin formalaşmasında, onun yetişməsində böyük xidmətləri olduğunu qeyd edir. Qürbət Mirzəzadə ədəbi irsi, dəyərli fikirləri haqqında söz açdığı tənqidçilərin yaddaqalan, tədqiqatçılar tərəfindən tez-tez səsləndirilən, hətta bəzən aforizmləşmiş fikirlərindən sitatlar da verib öz fikrini əyaniləşdirir ki, bu da tədqiqat işini daha sanballı, detalları daha inandırıcı edir. "Əkbər Ağayevin tənqidçi fərdiyyəti" bölümündəsə tənqidçinin hansı istiqamətlərdə və hansı üsullarla, özünəməxsus cəhətlərlə fəaliyyət göstərdiyi diqqətə çatdıran müəllif onun "tənqidçi məni"ni açmağa çalışır və onun harda, necə, ədəbi-nəzəri fikrin hansı inkişaf mərhələlərində formalaşdığını göstərir. Tədqiqatçının qənaətinə görə, "Ümumən, Ə,Ağayevin tənqidçilik fəaliyyəti ədəbi-bədii təcrübəni qiymətləndirmək, geniş və əhatəli elmi-nəzəri təhlillə üzvi surətdə əlaqələndirmək vasitəsi, bütövlükdə ədəbiyyatın, sənətin ideyalılığına, xəlqiliyinə xidmət etmək nümunəsi idi".

Monoqrafiyanın II fəsli "Əkbər Ağayevin tənqidində Azərbaycan ədəbiyyatı məsələləri" adlanır. Bu fəsil də iki bölümdən ibarətdir. "Nəsr və dramaturgiyada tarixilik və müasirlik, ənənə və novatorluq problemi" bölümündə Əkbər Ağayevin Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi, Süleyman Rəhimov, Mir Cəlal, Mehdi Hüseyn, Sabit Rəhman, Qılman İlkin, İlyas Əfəndiyev, Bayram Bayramov, İsmayıl Şıxlı kimi yazıçıların haqqında məqalələr yazdığını qeyd edən müəllif sonra heç də bu yazılar haqqında geniş bəhs açmır. Sadəcə bir-iki əsərdən qısa qeydlərlə kifayətlənir. Dramaturgiyadan danışanda isə yenə də Əkbər Ağayevin əsərləri haqqında məqalə və resenziya yazdığı dramaturqların adını

çəkməklə işini bitirir: M.F.Axundov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, H.Cavid, C.Cabbarlı, S.Vurğun, S.Rüstəm A.Babayev, İ.Səfərli, A.N.Ostrovski, B.Sanqo, V.Şekspir, J.B.Molyer, Quan Xan-Tein və b. Bəlkə də tarixilik və müasirlik, ənənə və novatorluq problemini açmaq üçün bu dramaturqların əsərləri haqqında yazılan məqalələr tədqiqata cəlb olunsaydı və paralellər aparılsaydı yaxşı olardı.

Müəllif "Əkbər Ağayevin elmi-nəzəri irsində Azərbaycan şeiri və onun sənətkarlıq məsələləri" bölümünü daha geniş şəkildə təqdim edir. Yəqin, bu da ondan irəli gəlir ki, Əkbər Ağayevin yaradıcılığında əsas yeri poeziya tutur. Əkbər Ağayevin "tənqiddə böyük, maraqlı, çoxcəhətli yol keçdiyini" xüsusi vurğulayan Şamil Salmanov yazır ki: "Əkbər Ağayev dedikdə mənim nəzərimdə, ilk növbədə, bir poeziya tənqidçisinin obrazı canlanır".

Bu bölümdə ilkin tədqiqata cəlb olunan tənqidçinin müharibə dövrünü əks etdirən poeziya nümunələrindən danışan əsərləridir. Səməd Vurğun, Süleyman Rüstəm, Osman Sarıvəlli, Məmməd Rahim, Mikayıl Müşfiq, Rəsul Rza, Əhməd Cəmil kimi şairlərin yaradıcılığına müraciət edən tənqidçinin yaradıcılığından bəhs açan müəllif onun fəaliyyətinin məhsuldar mərhələsinin məhz müharibə illərinə təsadüf etdiyini qeyd edir və həmin dövrdə yaranan poeziyanın Əkbər Ağayevin tənqidçi qələmindən keçən məqamlarını diqqətə çatdırır. Müəllif burada bu mövzuda yazan Məmməd Arif, Məmməd Cəfər, Mir Cəlal, Həmid Araslı, Əziz Şərif kimi tənqidçilərin də fəaliyyətini də qeyd edir.

Tədqiqatçı-alim, Əkbər Ağayevin doktorluq dissertasiyasını da tədqiqata cəlb edib, Azərbaycan poeziyasının inkişafının əsas meyllərini, sənətkarlıq məsələlərini, ənənə və novatorluq məsələsini hərtərəfli araşdırıb aydın şəkildə təqdim edən tənqidçinin fəaliyyətini dəyərləndirmiş, hətta digər müəlliflərin yazıları ilə paralellər apararaq, məsələyə aydınlıq gətirməyə və tədqiqat obyektinin qənaətbəxş fikirlərini qiymətləndirməyə çalışmışdır.

Əsərin III fəsli "Əkbər Ağayev klassik irs və qarşılıqlı əlaqə problemi haqqında" adlanır. Müəllif yazır:"Əkbər Ağayevin klassik irs və qarşılıqlı əlaqə probleminin bilavasitə təhlilinə geniş imkan verən faktları həm Azərbaycan ədəbiyyatı kontekstində, həm də digər milli ədəbiyyatların müqayisəsi əsasında, həmçinin daha əhatəli miqyasda–dünya ədəbi-bədii fonunda araşdırmaları bu xüsusda fikir və mülahizə yürütməyə əsas verir".

Fəsil üç bölümü əhatə edir. "Əkbər Ağayevin nəzəri irsində milli və dünya ədəbiyyatı problemi" bölümündə Əkbər Ağayevi klassik ədəbiyyatımızın görkəmli simalarının dövrü, ədəbi mühiti, yaradıcılığı haqqında fundamental tədqiqatlar müəllifi kimi təqdim edən müəllif, tənqidçi-ədəbiyyatşünas-alimin milli ədəbiyyatla bərabər dünya ədəbiyyatına və müxtəlif xalqların ədəbi-mədəni təfəkkür tərzinə bələd olduğunu qeyd edir və onun araşdırıcı səriştəsini, universal tədqiqatçılıq bacarığını xüsusi vurğulayır. Burada onun "Nizami və dünya ədəbiyyatı" monoqrafiyasından və bir sıra sanballı məqalələrindən söz açır, bir ədəbiyyatşünas kimi fəaliyyətini qiymətləndirməyə çalışır.

"Əkbər Ağayev rus ədəbiyyatı haqqında" bölümündə alimin M.Y.Lermantov, A.İ.Gertsen, A.S.Puşkin, P.Antakolski, V.Q.Belinski, M.Qorki, D.İ.Pisarev, A.P.Çexov, V.Mayakovski, B.Lavrenov, V.Q.Korolenko, Q.İ.Uspenski, N.A.Nekrasov, N.Q.Çernışevski, A.S.Qriboyedov, L.Leonov, M.V.Lomonosov, S.Yesenin, A.N.Ostrovski, L.N.Tolstoy və b. sənətkarlar haqqında məqalələrinin, "Lermantov və Azərbaycan" və "A.İ.Gertsen" adlı monoqrafiyalarının, eyni zamanda L.N.Tolstoyun anadan olmasının 150 illiyi münasibəti ilə tərtib etdiyi məqalələr məcmuəsinin olduğunu diqqətə çatdıran müəllif bu yazıların bir çöxunu tədqiqata cəlb edir və öz qənaətlərini oxucularla bölüşür.

Son bölüm "Əkbər Ağayev bədii tərcümənin milli mədəniyyətlərin yaxınlaşmasında rolu barədə" adlanır və müəllif burada ədəbiyyatşünas alimin bu sahədəki tədqiqatlarından

söz açır, onun tərcümə məsələlərindən bəhs edən "Oğul" poemasının tərcüməsi haqqında", "Bir tərcümə haqqında", "Dostluq töhfələri" adlı məqalələrinin olduğunu qeyd edir. Müəllif alimin özünün də gözəl tərcüməçi olduğunu diqqətə çatdırır, onun tərcümələrindən də danışır və həm tərcüməçi, həm də tərcümə işinin tənqidçisi kimi onun fəaliyyətini dəyərləndirməyə çalışır.

Kitaba nəticə, ədəbiyyat siyahısı, şəkillər və rəsmi opponentlər filologiya elmləri doktorları Nizaməddin Şəmsizadənin, Rəhim Əliyevin dissertasiyaya verdiyi rəylər daxil edilmişdir.

Qürbət Mirzəzadənin bu monoqrafiyası on il bundan əvvəl çap olunmuşdur. Bu on il ərzində bir sıra tədqiqatlar aparmış və onun onlarla məqaləsi çap olunmuşdur. Tədqiqatçı-alim hal-hazırda "Azərbaycan ədəbi tənqidinin nəzəri-metodoloji problemləri" mövzusunda doktorluq işi üzərində çalışır. 2008-ci ildən Bakı Pedoqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun müharizəçisidir.

Qürbət Mirzəzadə 2000-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin və 2007-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Qürbətin "Ədəbi tənqid: nəzəriyyə və janrların inkişaf təkamülü" adlı məqalələr toplusu və "Tənqidçi şəxsiyyəti və bədii gerçəklik" adlı monoqrafiyası çapa hazırlanır. Gələn ay alim dostumuzun 50 yaşı tamam olur. Onu səmimi qəlbdən təbrik edir, ona uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.

"Nüanslar" qəzeti, 05-12.06.10

RAQİF NAZİMOĞLU YARADICILIĞI

İstedadlı şair və publisist Raqif Nazimoğlunun qələmini təsdiq edən onlarla kitabı nəşr olunub. Bu yaxınlarda isə onun yaradıcılığını əhatə edən monoqrafiya işıq üzü görüb.

Tanınmış şair, tənqidçi Hikmət Məlikzadənin "Raqif Nazimoğlu yaradıcılığında həyat kodeksi və ictimai düşüncə" adlanan kitabı giriş və beş hissədən ibarədir.

Müəllif girişdə zaman-məkan anlayışına öz prizmasından açıqlama verərək, insan həyatının bu çərçivəsizlikdəki rəngarəng mənzərəsini çəkməyə çalışıb. Əsərin dili müasir ədəbiyyat baxımından çox qəlizdir. Hətta bəzi məqamların anlanılması belə şəxsən mənim üçün çətindir. Sadə yazmağa alışsam da, kitabın dili hardasa məni öz yoluna çəkmək istəyir. Lakin bu fəlsəfəçilikdən uzaq olmağa çalışıram...

Birinci hissə "Raqif Nazimoğlunun yaradıcılığında həyat kodeksi" adlanır. Düzünü desəm, son zamanlar bu "kodeks" sözünə rast gəlməmişəm və bu söz mənə hardasa lap sovet dövrünü xatırlatdı. Hətta o vaxt həvəslə oxuduğum "Kommunist əxlaqının kodeksi" adlı kitab da var idi. Amma burada Raqif yaradıcılığında həyat kodeksini işıqlandırmağa çalışan müəllifin ilk cümləsi belədir: "İlk olaraq deyək ki, Raqif Nazimoğlunun yazdığı əsərlərin sənətkarlıq xüsusiyyətlərindən, bədii-estetik dəyərindən, cazibəli orijinallığından bəhs edərkən onun zəngin şifahi xalq ədəbiyyatı xəzinəsindən bəhrələndiyini nəzərdən qaçıra bilmərik". Bax, bununla razıyam və mənə elə gəlir ki, sadə xalq dilində səlis, təmiz şeirlər yazan Raqifin yaradıcılığına elə belə yanaşmaq lazımdır. Pafosa, fəlsəfəçiliyə ehtiyac yoxdur. Çünki, Raqifin şeirlərində başa düşülməyəcək, dərin təhlilə ehtiyacı olan qarmaqarışıq və qəliz misralar yoxdur. Raqifin poeziyasında doğrudan da folklordan gələn elementlər çoxdur. Bu da onun milli ruhda, ənənəvi yazı manerasının əsasını təşkil edir.

Bu bölümdə müəllif şairin yaradıcılığında tarixilik problemini önə çəkir və onun "Bəxtimə düşən Cavid taleyi" poemasını diqqətə çatdırır. "Ədəbiyyat üçün müasirlik və tarixilik kimi kodekslərin mühüm əhəmiyyəti var. Tarixi hadisələri və tarixi şəxsiyyətləri geniş şəkildə səciyyələndirilir",- yazan müəllif şairin yaradıcılığını elə bu istiqamətdə

tədqiqə çalışır.

Kitabda müəllif şairin ayrı-ayrı şeir toplularından söz açır: "Əsrin günəş yağışı", "Ürəyim dünyanın məzar yeridir, "Bələnmişəm dərdlərinə dünyanın", "Desəm öldürərlər, deməsəm ölləm", "Üzüm necə gülsün", "Mavi kədər", "Ağsu şəhidləri", "Atalı dünyam", "Ağla, Xocalım, ağla".

Burada A.P.Çexovdan, Z.Freyddən, K.Marksdan, A.Kişnerdən, M.Qorkidən, V.Q.Belinskidən, Loqoşfukodan, Penndən, Nizamidən, Sokratdan, M.Avqustindən, Aristoteldən, U.Tekkereydən, Kantdan, Holbaxdan, hətta zərb-məsəllərdən bol-bol sitatlar verən müəllif müqayisələr aparır, bu paralellərdə fikirlərini əsaslandırmağa çalışır. Məncə bu sitatların yerinə Raqif Nazimoğlunun digər kitablarından, elmi-publisistik və publisistik yazılarından sitatlar verilsəydi, daha maraqlı olardı. Çünki, onun məqalələrində həqiqətən diqqəti çəkən və yeri gələndə aforizm kimi səslənən məqamlar çoxdur. Əgər belə etsəydi, Raqifin təkcə poeziyası deyil, bütün yaradıcılığı əhatə olunmuş olardı və bu monoqrafiyanın adına da uyğun olardı.

Monoqrafiyanın "Raqif Nazimoğlu poetikası və qlobal ədəbi istiləşmə" bölümündə şairin poeziyasını əhatəli dəyərləndirən fikirlər diqqəti çəkir. Müəllif yazır: "O, lirik fikirləri ilə həyatın, dünyanın--bəşərin poetik mahiyyətini elə verir ki, oxucu heyrətlənməyə bilmir. Onun şair ovqatı qələmə aldığı ən xırda hisslərdə belə çöx bədii ifadəsini tapır.

Heç bir şübhə yoxdur ki, Raqif Nazimoğlunun poetikası qlobal istiləşmənin cəngində fırlanan dünyanın rəngli xüsusatlarında, lirikası kövrək ürəyinin torpağa, vətənə, el-obaya məhəbbətindən püskürür.

Raqif Nazimoğlunun şeirləri ən adi elementlərdən ibarət olmaqla, həm də ən vacib prosesləri oxucu dərkində sistemləşdirir. Bu cəhətdən şairin bədiilik xüsusu daxili duyğularının tipik göstəricisi kimi özünü təzahür etdirir".

Bu bölümdə də Jül Renardan, V.İ.Lenindən, K.Marksdan, H.Caviddən sitatlar verilmiş, amma Raqif poeziyasın-

dan iki misra belə sitat yoxdur. Nədənsə, şairin poetikasından söhbət açan müəllif, bunu əyaniləşdirmək üçün şairin poetik nümunələrindən istifadə etməyi lazım bilməmişdir...

Monoqrafiyanın "Cavid taleyi şairin yaradıcılıq fəlsəfəsi" adlı bölümündə şairin Cavidə həsr olunmuş poeması tədqiq olunur. Daha sonra Raqifin qəzəllərindən danışılır.

Son bölümlərdə Raqif şeirində bədii təsvir vasitələrindən, vəzndən, qafiyədən də bəhs olunur və şair haqqında deyilən fikirlər diqqətə çatdırılır.

"Haqqın sədası" qəzeti, 12.06.10.

ŞEYX MƏHƏMMƏD XİYABANİ

Azərbaycan xalqının görkəmli tarixi şəxsiyyətlərindən olan Şeyx Məhəmməd Xiyabani ömrünü elm öyrənməyə və vətənin azadlığı uğrunda mübarizəyə həsr etmişdir. Gənc yaşlarından ilahiyyata maraq göstərən, yüksək dini təhsil alıb müctəhidlik dərəcəsinə çatan Məhəmməd astronomiyanı, riyaziyyatı, tarixi, fəlsəfəni, eləcə də ədəbiyyatı gözəl bilmişdir. Bəlağətli nitqi ilə camaatın diqqətini çəkmiş, insanların dünyagörüşünə güclü təsir edə bilmişdir. Səttarxan hərəkatında (1905-1911) inqilabi fəaliyyətə başlayan Xiyabani II İran məclisinə seçilmişdir. 1911-ci ildə məclis buraxılmış və mitinqdə hökumətə qarşı çıxan Xiyabani İranı tərk etməli olmuşdur.

Xiyabani bir müddət Rusiyada yaşayır, oradakı siyasi mühiti öyrənir, Bakıdakı demokratlarla da tanış olur. 1914-cü ildə yenidən Təbrizə qayıdır. 1917-ci ildən güclü siyasi fəaliyyətə başlayan Xiyabani, nəhayət, 1920-ci ildə yaranan Milli Hökumətin sədri seçilir. Hökumət başçısı kimi böyük islahatlar aparır. Təəssüf ki, bu cəmi bir neçə ay çəkir və sentyabrda Xiyabani öldürülür.

Xiyabaninin elmi, fəlsəfi, siyasi görüşləri sonradan tədqiq olunmağa başlayır. Cəfakeş ziyalı Qulam Məmmədli

Xiyabaninin inqilabi fəaliyyətini, ümumiyyətlə 1917-20-ci illərdə cənubda gedən milli-azadlıq hərəkatını işıqlandıran "Xiyabani" adlı bir kitab yazır. Sonralar filologiya elmləri doktoru Qafar Kəndli, tarix elmləri doktoru Şövkət Tağıyeva Xiyabani ilə bağlı dəyərli məqalələrlə çıxış edirlər. Cənubda Xiyabani haqqında tədqiqatlar aparılır, kitablar nəşr olunur.

Bu yaxınlarda Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin əməkdaşı, filologiya elmləri doktoru, professor Vüqar Əhmədin "Şeyx Məhəmməd Xiyabani" adlı kitabı işıq üzü görmüşdür. Kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Teymur Əhmədov, rəyçiləri filologiya elmləri doktoru, professor Elman Quliyev və Əkrəm Rəhimlidir. Professor Elman Quliyev kitaba "Xiyabanişünaslığa yeni bir töhfə" adlı ön söz yazmışdır. Öz yazısında Vüqar Əhmədin Xiyabani ilə bağlı tədqiqatlarına güzgü tutan müəllif, onun problemə bir ədəbiyyatşünas kimi yanaşdığını, özündən əvvəlki tədqiqatlara da nəzər yetirdiyini, Xiyabani haqqında yazılanlardan xəbərdar olduğunu və monoqrafiyasında fikirlərini konkret faktlara əsaslanaraq diqqətə çatdırdığını qeyd edərək, müəllifin işini qiymətləndirməyə çalışır və rəyini bu dəyərli cümlə ilə tamamlayır: "Mən sevimli şairimiz, istedadlı, zəhmətkeş ədəbiyyatşünas alimimiz, prof. Vüqar Əhmədin görkəmli azadlıq mücahidi Şeyx Məhəmməd Xiyabaninin həyatı, dövrü, mühiti, ictimai-siyasi və ədəbi fəaliyyəti ilə bağlı yazılmış tədqiqatını yüksək qiymətləndirir və bu əsəri Azərbaycanda xiyabanişünaslığın layiqli töhfəsi hesab edirəm".

Monoqrafiyanın birinci hissəsi "Şeyx Məhəmməd Xiyabani (1879-1920). Həyatı və mühiti" adlanır. Müəllif burada Azərbaycanın mütəfəkkir oğlu, görkəmli siyasətçi, ədib Xiyabaninin həyatı və mühiti ilə bağlı xeyli tədqiqat işi aparmış, onunla bağlı bütün yazıları oxumuş, yazılanları öz baxış bucağından dəyərləndirmiş, ümumi nəticə çıxararaq öz fikirlərini əsaslandırmış və anlaşıqlı şəkildə oxuculara

çatdırmağa çalışmışdır. O bu taydakı tədqiqatlarla kifayətlənməmiş, cənubda çap olunan mətbu orqanlarını da araşdırmış, o cümlədən fars dilində olan məqalələri, kitabları da tədqiq etmişdir. Tədqiqatçı bu zaman həm mənbələri açıqlayır, həm bizi müəlliflərlə tanış edir, həm də yazılardan sitatlar gətirir ki, bu da fikirlərin əyaniliyinə, dəqiqliyinə inam yaradır.

Xiyabaninin publisistikasından söhbət açan müəllif yazır: ”Öz odlu qələmi ilə mübariz publisistikanın gözəl nümunələrini yaratmış Xiyabaninin də bu sahədəki fəaliyyətinin tədqiqi, şübhəsiz ki, çox faydalıdır. Ş.M.Xiyabaninin publisistik yazıları mövzu genişliyi ilə, obrazlılığı, çoxmotivliliyi, zəngin epizodluluğu ilə seçilir.

Xiyabaninin publisistikası Azərbaycan ədəbiyyatının mütərəqqi ənənələrinin bünövrəsi üzərində yüksəlirdi. İctimai həyat həqiqətlərini əks etdirən, çağdaş həyatın tələbləri səviyyəsində durmaq onun fəaliyyətinin əsasını təşkil edirdi. Xiyabani publisist əsərlərində humanizmin, azadlığın, demokratiyanın böyük müdafiəçisi kimi çıxış edirdi”.

Bu bölümdə müəllifin, “Xiyabaninin bədii obrazı”nı oxuculara çatdırmaq istəyini görürük. O İlyas Əfəndiyevin “Şeyx Xiyabani” pyesini, Pənahi Makulunun “Xiyabani” romanını, Xəlil Rza Ulutürkün, Arif Səfanın şeirlərini diqqətə çatdırır, hətta sitatlar da verir.

Əsərin ikinci hissəsi Xiyabaninin “Ədəbi fəaliyyəti”nə həsr olunmuşdur. Müəllif “alovlu natiq, istedadlı publisist, jurnalist-mühərrir” Xiyabaninin əsasən “Təsəddüd” qəzetində çap olunduğunu, lakin İranda çıxan bütün qəzet və məcmuələri mütaliə etdiyini, çap olunan yazılara münasibət bildirdiyini diqqətə çatdırır.

Monoqrafiyanın üçüncü hissəsi “Xiyabani və din” adlanır. Burada Xiyabanini ilahiyyatçı kimi xarakterizə etməyə çalışan müəllif, onun çıxışlarında daim islami dəyərlərə söykəndiyini, azadlıq uğrunda mübarizədə həqiqəti rəhbər tutmağı, ağıl, təfəkkür, səbat, həmrəylik əldə etmək üçün

Qurani-kərimin göstərdiyi yolla irəliləməyi məsləhət görduyünü diqqətə çatdırır. İslam ümmətinin son illər elmdə, hikmətdə zəiflədiyini özünə dərd eləyən Xiyabaninin çıxışlarında daim islam əxlaqını ön plana çəkdiyini vurğulayan tədqiqatçı burada sovet dönəminə də səyahət edir, diqqətimizi islami dəyərlərin məhv edilməsi faktlarına yönəldir. Xiyabaninin çıxışlarından danışan müəllif, yenə də, onun publisistikasına qayıdır və biz yenə də vətənpərvər Xiyabaninin səsini eşidirik. Bəlkə də bu ondan irəli gəlir ki, Xiyabani hər şeydən əvvəl alovlu vətənpərvərdir. Onun inqilabi fəaliyyəti, siyasi həyatı hardasa digər sahələri üstələyir. Tədqiqatçı burada Xiyabaninin çıxışlarından danışır, sitatlar verir və onun səciyyəsini göstərərək yazır: ”Hər bir publisistin özünəməxsus üslubu, metodu, öz dəst-xətti olur. Xiyabani heç vaxt planlı, tərtibli çıxışlar etmirdi, lakin buna baxmayaraq, oxucunun və dinləyicinin diqqətini vacib bir mətləbə, daha doğrusu, problemlərə yönəltməyi bacarırdı. Onun ədəbi-nəzəri-siyasi söhbətləri silsiləsində ədəbi fəaliyyətinin idrak və inikas xüsusiyyəti, obrazlılıq spesifikası idi. Xiyabani heç bir həyati məsələni, heç bir temanı ədəbi cərəyana yabançı hesab eləmirdi. Ona görə də, onun hər bir sözündə, hər bir kəlamında, hikmətdən başqa bir poetiklik, bədiilik vardı. O, siyasi aktuallıq xatirinə heç zaman bədiiliyin üstündən xətt çəkmirdi. Məhz buna görə də onun publisistikasında bədii ifadələr daha çöx öz əksini tapırdı...”

Əsərin sonunda nəticə və ədəbiyyat siyahısı verilmişdir.

Xiyabaninin “Azərbaycan və Azərbaycanın demokratik qüvvələri” əsəri vaxtilə İsmayıl Şəms tərəfindən fars dilindən tərcümə edilmiş, Balaş Azəroğlunun və İsmayıl Cəfərpurun redaktorluğu ilə nəşrə hazırlanmışdır. Vüqar Əhməd həmin əsəri ərəb qrafikalı əlifbadan transliterasiya edərək, kitaba daxil etmişdir.

Vüqar Əhmədin uzun illərin, ağır zəhmətin bəhrəsi olan bu kitabı xalqımızın mütəfəkkir oğlu, görkəmli siyasətçi,

ilahiyyatçı, ədib Xiyabaninin həyat və yaradıcılığını, eyni zamanda Cənubi Azərbaycanda gedən milli-azadlıq hərəkatını öyrənmək baxımından dəyərli vəsaitdir.

"Kredo" qəzeti, 17.04.10.

ŞAH VƏ ŞAH OBRAZI

Azərbaycan folkloru öz zənginliyi ilə həmişə diqqət mərkəzində olub. Eləcə də folklorşünaslıq elmi il-ildən zəngin tədqiqatları və dəyərli tədqiqatçıları ilə özünü təsdiqləyir ki, bunun da bariz faktı Milli Elmlər Akademiyasında ayrıca Folklor İnstitutunun fəaliyyətə başlamasıdır. Bir neçə il bundan əvvəl yaradılmış bu elm ocağında hər il onlarla kitab işıq üzü görür. Burada çalışan gənc alimlərin işləri də diqqəti çəkir. Bu alımlərdən biri də Şakir Albalıyevdir.

Şakiri on ildir ki, tanıyıram. Hələ o zamanlar "Kredo" qəzetində onunla bağlı çap olunan "Tarix dərsləri" adlı silsilə yazılardan, sonra onun "Şakir Əlifoğlu", "Şakir Albalı" imzası ilə çap etdirdiyi publisistik yazılarından və daha sonra namizədlik işi olan, folklorla bağlı elmi məqalələrindən....

1969-cu ildə Cəbrayıl rayonunda dünyaya göz açan, 1989-95-ci illərdə BDU-nun filologiya fakültəsində təhsil alan, Cəbrayıl və Saatlı rayonlarında dil-ədəbiyyat müəllimi işləyən, "Kredo" qəzetində məsul katib və şöbə müdiri kimi çalışan, "Xudafərin" qəzetinin baş redaktoru olan Şakir Əlifoğlu, nəhayət, uzun zəhmət və səydən sonra müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsi alaraq bu sahədə də özünü təsdiqlədi.

Onun "Təknur" nəşriyyatında çap olunmuş "Azərbaycan nağıllarında şah obrazı" adlı ilk kitabı elmı tədqiqat işidir. Kitab AMEA Folklor İnstitutunun elmi şurasının qərarı ilə nəşr olunmuşdur. Kitabın redaktoru AMEA-nın müxbir üzvü, professor Azad Nəbiyev, rəyçiləri f.e.d. Məhərrəm Cəfərli, f.e.n. Oruc Əliyevdir. Azad Nəbiyev kitaba ön söz

yazmışdır. Gənc alimin işini müsbət qiymətləndirən professor monoqrafiyanın əhəmiyyətini qeyd edərək yazır:"Gənc tədqiqatçı monoqrafiyada şah obrazının yaranma və inkişafının tarixi əsaslarından başlayaraq, bugünəqədərki inkişaf dövrünə ümumi bir nəzər yetirmişdir. Məsələ ilə bağlı maraqlı cəhətləri müşahidə etmiş, idarəetmə üçün əhəmiyyətli detallara diqqət yetirə bilmişdir. Tədqiqat göstərir ki, Şakir Albalıyev nağılçılıq probleminə ümumiyyətlə yaxından bələddir, onunla bağlı həm praktiki, həm də nəzəri materialları kifayət qədər öyrənmişdir".

Monoqrafiya giriş və üç fəsildən ibarətdir. Müəllif girişdə Azərbaycan folklorşünaslığının genişhəcmli janrı olan məişət nağıllarının toplanması işindən və bu sahədə əldə edilmiş müvəffəqiyyətlərdən söz açır və ömrünü folklorşünaslıq elminin inkişafına həsr edən dəyərli alimlərin nəşrlərini diqqətə çatdırır. O, məişət nağıllarının bu vaxta kimi əhatəli araşdırmaya cəlb edilmədiyini və ümumi tədqiqatlarda isə nağıllardakı şah obrazına çox vaxt mənfi tərəfdən yanaşıldığını qeyd edir, bu səbəbdən araşdırmaların dərinləşdirilməsinə, daha əhatəli tədqiqatların aparılmasına böyük ehtiyac olduğunu və bu səbəbdən də bu mövzuya müraciət etdiyini bildirir.

"Nağılların təsnifi məsələlərinə dair" adlı birinci fəsildə tədqiqatçı-alim nağıllarımızın yazıya alınması və nəşr olunması ilə bağlı görülən işləri diqqətə çatdırır və bu sahədə zəhmət çəkən tədqiqatçıları, naşirləri minnətdarlıqla yad edir. Burada həm çap, həm də arxiv materiallarına istinad edərək, folklor tariximizə bir növ ekskursiya edir, həm toplama materiallarını, həm də tədqiqat işlərini diqqətə çatdırır.

Nağılların təsnifinin və tədqiqinin bəzi məsələlərinə öz münasibətini bildirən müəllif Hənəfi Zeynallı, Məhəmmədhüseyn Təhmasib, Paşa Əfəndiyev, Vaqif Vəliyev, Azad Nəbiyev kimi böyük alimlərin və bir sıra gənc tədqiqatçı-alimlərin işlərini dəyərləndirir. Burada Yusif Vəzir Çəmənzəminlinin, A.Arne və N.P.Andreyevin, Azad Nəbiyevin

tədqiqat işlərini və təsnifat üsullarını daha qabarıq göstərən tədqiqatçı müqayisələr apararaq, hər bir xalqın nağılının milli zəmində öyrənilməsinin vacibliyini qəbul edir və yazır:"...dünya nağıl yaradıcılığının tərkib hissəsi olan Azərbaycan nağıllarını dünya nağıl modeli ilə birləşdirən nə qədər müxtəlif ümumiliklər olsa da, nağılların nə qədər müxtəlif təsnifat qrupları və sistemləri mövcud olsa da, onu öz milli zəminində, mövcud toplanma materialı əsasında araşdırmaya cəlb etmək gərəkdir. Bu mənada professor A.Nəbiyevin son təsnifatını əsas götürməklə Azərbaycan nağıllarını ənənəvi təsnifat bölgüsündə götürməyi daha düzgün hesab edirik: heyvanlar aləmindən bəhs edən nağıllar, sehrli nağıllar, məişət nağilları, uşaq nağılları..."

Monoqrafiyanın ikinci fəsli "Məişət nağıllarında şah obrazının meydana gəlməsinin tarixi əsasları" adlanır. Tarixə üz tutan müəllif Şərqin böyük nağıl kitabı hesab olunan və ilkin şah obrazlarının göründüyü "Kəlilə və dimnə"dən başlayır, onun ilk naşirlərindən biri olan Behnud ibn-Səhvanın kitaba yazdığı müqəddiməyə istinad edərək, kitabın yazılma səbəbini açıqlayır, kitabın filosof Beydəba tərəfindən məhz şahların tərbiyənləndirilməsi üçün yazıldığını diqqətə çatdırır. Daha sonra "Min bir gecə nağılları"ndan bəhs açan tədqiqatçı-alim hər iki silsilənin tarixi dəyərini göstərməyə çalışır.

Bu fəsildə məişət nağıllarındakı hökmdar obrazının sələfləri olan sehrli nağılların padşah, şah, xan obrazlarından ayrıca danışan müəllif həm ədalətli, həm də ədalətsiz hökmdarların səciyyəvi xüsusiyyətlərini göstərir. O, ədalətli şah obrazının tarixən formalaşması məsələsinə ciddi yanaşır və geniş, əhatəli tədqiqatları ilə fikirlərini əsaslandırır. Bəzi nağıllarda zalım, ədalətsiz şahların sonda ədalətli hökmdara çevrildiyini, bəzən isə əksinə, ədalətli şahların cəmiyyətdə zalımlaşdığını göstərir və misallarla fikirlərini əsaslandırır.

Tədqiqatçı məişət nağıllarında padşah və rəiyyət münasibətlərini də araşdırır və tarixi tədqiqatlara əsaslanaraq, rəiy-

yətlə münasibətinə görə ədalətsiz hökmdarların belə qruplaşmasını qəbul edir və bunlar haqqında geniş danışır:

1.Ümumiyyətlə, rəiyyətin kasıblığına çalışan və bununla da hakimiyyətinin əbədiliyini təmin etmək istəyənlər.

2.Cəmiyyətdə özündən ağıllı hesab edilən adamları məhv etməklə öz taxt-tacını möhkəmlətmək istəyənlər.

3.Xalqın qəhrəmanlıq, mübarizlik ruhunu məhv etməklə rəiyyəti kölə halına salıb özünə tabe etmək istəyənlər.

Monoqrafiyanın üçüncü fəsli "Məişət nağıllarında Şah Abbas obrazı" adlanır və adından göründüyü kimi bütövlükdə bu obrazın açılmasına həsr edilmişdir. Müəllif bir sıra Azərbaycan nağıllarında Şah Abbas obrazını misal göstərir və onu həm bir nağılın şah obrazı kimi səciyyələndirir, həm də tarixi şəxsiyyət kimi rolunu qeyd edir.

Kitabın sonunda nəticə və ədəbiyyat siyahısı verilmişdir. Kitab həm folklorşünaslıqla məşğul olmaq istəyənlər üçün, həm də nağıllarımızın dəyərini, onların tariximizdə, milli mentalitetimizdə oynadığı rolu öyrənmək baxımından qiymətlidir. Kitabı oxuduqda və zəngin ədəbiyyat siyahısına nəzər yetirdikdə hiss olunur ki, gənc tədqiqatçı-alimin uzun illər çəkdiyi əzab-əziyyətinin bəhrəsidir. Müəllifə gələcəkdə daha böyük uğurlar arzulayırıq.

"Bütöv Azərbaycan", 07-14.04.10.

YADDAN ÇIXMAYACAQ

Azərbaycan ədəbiyyatşünaslığı bir alim də itirdi. Dərin biliyi, intellektual düşüncəsi, əhatəli nitqi, bütün insani dəyərləri özündə ehtiva edən şəxsiyyəti, eyni zamanda heç kəsə bənzəməyən zahiri davranışı, rəftarı, ilə seçilən Bəxtiyar müəllim haqqında keçmiş zamanda danışmaq nə qədər ağırdır.

Yaxşı müəllim olmazdan əvəl yaxşı insan olmaq lazımdır. Bəxtiyar müəllimin atası vaxtilə müxtəlif rayonlarda katib vəzifəsində çalışıb. Amma Bəxtiyar müəllim bir dəfə

də olsun öz keçmişi ilə fəxr etməyib. Çünki, onun buna ehtiyacı olmayıb. Hər məqaləsi başqa alimlərin bir kitabına bərabər, bəzən isə hətta onu ötüb keçən bir alimin bu zamana kimi sadəcə elmlər namizədi olması, doktorluq dissertasiyası otuz il bundan əvvəl hazır olsa da, müdafiəyə can atmaması, ancaq və ancaq təmiz alim vicdanıyla, həqiqi müəllim düşüncəsiylə, səmimi insan ürəyiylə baş-başa qalıb şərəfli bir ömür yaşaması zəmanəmiz üçün bəlkə də möcüzədir. Bu gün Bəxtiyar müəllimin yas mərasimində tez-tez onun bütün müəllimlərdən fərqli, bütün alimlərdən fərqli bir ömür yaşaması faktı dilə gətirilir.

Filologiya elmləri doktoru Azadə Musayevanın görkəmli türkoloq, filologiya elmləri doktoru, professor Samət Əlizadə haqqında dediyi bir fikri xatırlayıram:"Samət müəllim klassik müəllim xüsusiyyətlərini özündə qoruyub saxlayan yeganə alimdir". Mən bunu Bəxtiyar müəllimə də şamil edirəm. Qoy müəllimlərim məndən inciməsin, tanıdığım müəllimlər içərisində Bəxtiyar müəllimdən savadlı, məsuliyyətli, səmimi ikinci bir müəllim tanımıram. Bir dəfə Pedoqoji Universitetin professoru Xeyrulla Məmmədovla söhbətimizdə söz müəllimlərdən düşdü. Dedim ki, ən çox sevdiyim müəllimlər Samət Əlizadə və Bəxtiyar Məmmədzadədir. Xeyrulla müəllim gülə-gülə qayıtdı ki, Bakı Dövlət Universitetində iki nəfər ciddi alim var, sən də onları seçmisən". Bu sözü yəqin ki, tələbələrin, hətta müəllimlərin çoxu, əlbəttə, gücü çatanlar təsdiq edə bilərlər...

Bəxtiyar müəllim sadəcə "Bəxtiyar müəllim" idi. Bu Bəxtiyar müəllimin içində elə bir aləm var idi ki, onu görənlər bəxtiyardır. Mən Bəxtiyar müəllimə ilk kitabımı verəndə belə bir avtoqraf yazmışdım:"Bəxtiyar tələbələrin bəxtinə düşən Bəxtiyar müəllimə". O vaxtdan on altı il keçib. Hər dəfə Bəxtiyar müəllimə kitab verəndə nəsə yeni bir söz yazmaq istəyirdim, amma hər dəfə qələmimə eyni sözlər gəlirdi:"Ən sevimli müəllimim Bəxtiyar Məmmədzadəyə". Bəzən söz düşəndə müəllimlərim içərisində qibtə ilə,

hətta paxıllıqla gileylənənlər də olurdu. Amma onları qınamıram, axı Bəxtiyar müəllimin içindəki aləmi görmək üçün adi göz kifayət deyildi...

Haşiyə: Bəxtiyar Məmməd oğlu Məmmədzadə 1947-ci il, fevralın 10-da anadan olub. 1964-cü ildə Bakıdakı 172 saylı orta məktəbi qızıl medalla, 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1969-72-ci illərdə Biləsuvar rayonunun Xırmandalı kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləyib. 1972-ci ildən BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müəllimi idi, 1985-ci ildən dosent vəzifəsində çalışırdı. Eyni zamanda Asiya Universitetində şərqşünaslıq və filologiya fakültəsinin dekanı idi.

Bəxtiyar Məmmədzadə 1979-cu ildə "Nəcəf bəy Vəzirovun komediyalarında sənətkarlıq" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Hələ o zaman Abbas Zamanov bu işin doktorluq dissertasiyası səviyyəsində olduğunu qeyd edib.

Bəxtiyar Məmmədzadə yüzdən artıq elmi məqalənin müəllifidir. Amma istəsəydi bu sayı beş dəfə artıra bilərdi. Bəxtiyar müəllimin cəmi üç kitabı var, amma istəsəydi, otuz kitab müəllifi ola bilərdi.

Onun "Seyid Əzim Şirvani anadilli poeziyasında bədii dil (poetik sintaaksis)" kitabı görkəmli şairin yaradıcılığı üzərində apardığı gözəl, dərin tədqiqat işidir. Bu yəqin ki, Bəxtiyar müəllimin doktorluq dissertasiyasının bir hissəsidir. Bədii dilin müəyyənləşməsində bədii semantika ilə bədii sintaksisin vəhdətini zəruri amil hesab edən, poetik sintaksisin işığında məcazlar sisteminin daha dərindən aydınlaşa bildiyini əsas götürən müəllif Seyid Əzim poeziyasında istifadə olunan poetik fiqurları önə çəkir, onların özünəməxsus funksiyasını, xüsusiyyətlərini və potensial imkanlarını açıb göstərir. Burada bədii təyin, ellipsis, inversiya, təkrir, təzad, bədii sual, nida, xitab haqqında məlumat verən müəllif bu vasitələrin Seyid Əzim poeziyasında yaratdı-

ğı poetik zənginliyi şairin əsərlərindən götürdüyü əyani misallarla bizə çatdırır. Kitabda təkrirə daha çox yer ayrılmışdır. Səs təkriri, söz təkriri, rəddül-əcüz, anafora, epifora kimi təkrir növlərinin geniş işləndiyini və onların şeirə gətirdiyi rəngarəngliyi diqqətə çatdıran alim, bütün vasitələrin əsərlərin bədiilik səviyyəsini tətin edən amillər, əsəri tanıdan cəhətlər sistemi kimi gərəkli rolunu qeyd edir. Bütün bu bədii vasitələri Seyid Əzim yaradıcılığında axtarıb tapan, onların dəyərini açıqlayan tədqiqatçı həcmcə kiçik olan bu kitabda əslində olduqca böyük tədqiqat işi aparmışdır. Kitab klassik şeirlə məşğul olan tədqiqatçılar, alimlər, tələbələr, habelə klassik üslubda yazan şairlər üçün gərəkli, qiymətli vəsaitdir. Kitabın elmi redaktorları f.e.n. dosent T.Cəfərli və f.e.n. dosent T.Cahangirov, rəyçiləri f.e.d. Vasim Məmmədəliyev, f.e.d. E.Z.Əzizov və f.e.n. E.Ə.Talıblıdır.

Bəxtiyar Məmmədzadənin "Seyid Əzim Şirvani anadilli poeziyasında vəzn" adlı kitabı daha çətin, daha gərgin illərin məhsuludur. Müəllif burada şairin 1172 əsərini tədqiqata cəlb edərək, onun qələmini sınadığı 9 bəhr—həzəc, rəməl, rəcəz, müzare, münsərih, müctəs, mütəqarib, xəfif, səri bəhrləri üzrə təhlillər aparmış, şairin müraciət etdiyi 14 janrdan bəhrlər və janrlara görə kəmiyyət göstəricilərini konkret cədvəllər şəklində vermişdir. Burada təkcə bəhrlər deyil, eyni zamanda onların növləri və variantları üzrə tədqiqat aparılmış və şairin əsərlərindən gətirilən misallar aydın şəkildə oxuculara çatdırılmışdır. Müəllif həm də hər janr üzrə hansı bəhrin daha aktiv və ya daha passiv işlənməsini də diqqət mərkəzində saxlamış, hətta əsərlərin növlərinə görə də təhlil aparmışdır. Əsərdəki hər bir cədvəl ayrıca bir əsərin skeletidir, əsəri oxuduqca göz önünə mahir bir konstruktorun quraşdırdığı bir ölkə maketi gəlir, hər cədvəl isə bir şəhər misalındadır. Müəllifin bu qədər elmi fikir yığcamlığına, konkretliyinə heyrət etməyə bilmirsən. Mənə elə gəlir ki, Bəxtiyar Məmmədzadənin elə bu bir əsəri onun bənzərsiz alim kimi tanınması üçün kifayət edir.

Seyid Əzimin ustad sənətkarlığını, şairin əruz vəzninin bəhrlərindən istifadə dərəcəsini oxucuya açıqlayan bu əsər bütünlükdə Azərbaycan divan ədəbiyyatını öyrənmək istəyənlərə, filoloq olmaq istəyən tələbələrə, müəllimlərə böyük hədiyyədir. Kitabın elmi redaktoru professor Vasim Məmmədəliyev, rəyçiləri professsorlardan S.X.Əliyev, C.M.Əhmədov, V.Ə.Vəliyevdir.

Bəxtiyar Məmmədzadənin "Feyzulla Qasımzadə. Ömrün yüz ili" kitabı f.e.d. professor Şamil Salmanovun redaktorluğu ilə çap olunub. Görkəmli alimin 100 illik yubileyinə ithaf olunan bu kitabda müəllif filologiyamızda özünəməxsus yeri olan, yüzdən artıq kitabın, yüzlərlə məqalənin müəllifi olan akademik Feyzulla Qasımzadənin dəyərli, zəngin ömrünə nəzər salmış, bu ömrün nələrə sərf olunduğunu, bir alim ömürünün nələri yaratmağa və yaşatmağa qadir olduğunu açıqlamışdır. Akademikin mənalı ömür yolunu izləyən müəllif onun həyatı, yaradıcılığı və şəxsiyyəti haqqında danışarkən müxtəlif mənbələrə müraciət etmiş, akademikin portretini olduğu kimi yaratmağa çalışmışdır.

Bəxtiyar Məmmədzadənin bu kitabları haqqında, habelə müxtəlif məqalələri haqqında çox danışmaq olar, hətta elə onun özü haqqında belə bir kitab yazmaq olar. Çünki, Bəxtiyar müəllim mənalı, təmiz bir ömür yaşamış, araşdırılmalı, tədqiq olunmalı olduqca dəyərli elmi irs qoyub getmişdir.

Bəxtiyar müəllimə Allah-təaladan rəhmət diləyirik.

"Aydın fikir" qəzeti, 06-12.03.10.

ALİM QADINLARIMIZ:TAHİRƏ HƏSƏNZADƏ

Allah-təala insana dünyaya göz açdığı gündən onun əhatə olunduğu mühütə uyğunlaşması üçün dəyərlər verir. Hər kəsə yazılan alın yazısı beş gün tez, beş gün gec məqamını tapıb zühur edir. Hər bir insanın yazısında böyüyəndə nə ola biləcəyi, kim ola biləcəyi qabaqcadan qeyd olunur. Hə-

yatın elə məqamları olur ki, çətinliklər bizi, hətta bizə yazılan bu yazıdan belə kənarlaşmağa sövq eləyir. Amma müəyyən zaman kəsiyində insan yenidən həmin məqama qayıdır və dərk edir ki, alın yazısından qaçmaq qeyri-mümkündür.

Tahirə xanımı Əlyazmalar İnstitutuna gələndən tanımışam. Olduqca mehriban, qayğıkeş, işində prinsipial, zəhmətkeş bir insandır. Universitetin tarix fakültəsini bitirib. Şərq fakültəsinə daxil olmaq arzusu olsa da və hətta bu arzuya çatmağın bir addımlığında olan məqamda olsa da, yenə də bu arzusuna çata bilməyib. Tarix fakültəsini bitirib Əlyazmalar İnstitutuna işə gəlib. Amma tale onu burada farsdilli əlyazmalarla həmdəm edib. Bu, Tahirə xanımın alın yazısı idi. Şərq fakültəsini bitirmək qismətinə düşməsə də, elmi-tədqiqat institutunda şərqşünas kimi fəaliyyət göstərməklə tələbəlik vaxtı əlçatmaz olan arzusuna çatması Allahın ona mükafatı idi.

Haşiyə: Tahirə Həsənzadə 1942-ci ildə Bakının Ramana kəndində anadan olub, 1954-cü ildə 198 saylı orta məktəbi, 1965-ci ildə ADU-nu (indiki BDU) fərqlənmə diplomu ilə bitirib.

1969-cu ildən Respublika Əlyazmalar İnstitutunda çalışır. Tahirə xanım 1994-cü ildə "Marağalı Məhəmmədhəsən xanın ictimai-siyasi fəaliyyəti" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib, tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. 2001-ci ildə "Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin əsərlərində Azərbaycan tarixi məsələləri" adlı monoqrafiyası çapdan çıxmışdır.

Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi Tahirə Həsənzadə ərəb əlifbasında olan türkdilli əlyazmaların üzə çıxarılması ilə də məşğul olur. Məmməd Səid Ordubadinin "İstanbul səhnələrində Dursunəli Ballıbadı" komediyasını, Rəşid bəy Əfəndizadə haqqında xatirələri, 1926-cı ildə çapdan çıxan, M.Ə.Sabir haqqında ilk tədqiqat işi olan "Sabir yaradıcılığının əsasi nöqtələri" adlı kitabı müasir əlifbaya

transliterasiya edərək nəşr etdirmişdir.

2003-cü ildə Tahirə xanım Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin "Xeyrati-hesan"(Gözəllər sərvəti) kitabını fars dilindən tərcümə edərək, ön söz və qeydlərlə birlikdə nəşrə hazırlayıb, çap etdirmişdir. 2007-ci ildə isə Tahirə xanımın Mehdi Bamdadın "Tarixi-ricali-İran" əsəri əsasında yazdığı "XVIII-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər" adlı monoqrafiyası işıq üzü görmüşdür. Bu, Tahirə xanımın doktorluq işi ilə əlaqədardır. O, müdafiəyə hazırlaşır. Tahirə xanıma uğurlar arzulayırıq.

"Yazıçı qadınlar" jurnalı, yanvar-fevral, 2009.

BÖYÜK TÜRK MİLLƏTİ

Qədim tarixə malik türklüyün böyüklüyü, yenilməzliyi bu gün də danılmazdır. Sovet dönəmində türklüklə bağlı məlumatların yazılması, yayılması qadağan olunduğundan Azərbaycanda yaranan informasiya qıtlığı rejim dağıldıqdan sonra qismən aradan qaldırılsa da, indiyə kimi dəqiq mənbələrə söykənən məlumatların azlığı özünü göstərməkdədir. Türkiyəyə gediş-gəlişin asanlaşması, keçən əsrin əvvəllərində olduğu kimi Türkiyədə təhsil alanların, eyni zamanda orada işləməyə dəvət alanların və işləyənlərin hesabına dövri mətbuatda müxtəlif səpgili məqalələr görünsə də, tam, dolğun məlumatlarla açıqlanan tarix hələ də bizim üçün qaranlıqdır.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Əliabbas Müznibin arxivində türk xalqlarının tarixi, adət-ənənələri və s. ilə bağlı xeyli əlyazma saxlanılır. Eyni zamanda "Dirilik" jurnalının müxtəlif nömrələrində də belə yazılara rast gəlmişik. Bunları tarixçilərin öhdəsinə buraxdığımızdan, ancaq ədəbiyyatla bağlı yazıların üzərində dayanmışıq. Amma bir dəfə "Əlli yaşlı xəzinədən əlli məqalə" adlı kitabımıza əlyazmalarla bağlı məqalələr daxil edən-

də bir yazımızda Müznibin "Doqquz oğuz" məqaləsindən də söz açmışdıq.

Bu yaxınlarda Ankarada yaşayan həmyerlimiz Fazil Qaraoğlunun bizə hədiyyə elədiyi kitablar arasında belə bir kitab diqqətimi daha çox cəlb etdi: "Türk millətinin tarixi, qurduğu dövlətlər və ata-babaları". Kitabın məsləhətçisi t.e.n. L.Məmmədova, baş redaktoru Ə.Əmirbəyli, redaktoru B.Abdullayevdir. Professor Fazil Qaraoğlu kitaba yazdığı ön sözə iki məşhur epiqraf vermişdir. Bunlardan biri Heydər Əliyevin "Biz bir millət, iki dövlətik", ikincisi Atatürkün "Milli mənliyini bilməyən millətlər başqa millətlərin şikarıdır" sözləridir.

Ön sözdə Türk millətinin tarixi ilə bağlı araşdırmaların aparıldığını, lakin tutarlı mənbələrin azlığı üzündən bu tədqiqatların yüksək səviyyədə olmadığını, yazılan fikirlərin çox vaxt subyektiv xarakter daşıdığını qeyd edən müəllif bu tarixi yazarkən miladdan çox-çox əvvəlki hadisələrdən başladığını, Türkiyə dövlətinin arxiv sənədlərinə müraciət etdiyini və genuiş aspektdə tədqiqat aparmağa çalışdığını bildirir və yazır: "Bu kitabda türk millətinin yaradıcı qüdrəti müəyyən edilmiş və bu qüdrətin yüz illər boyunca davam etdiyi göstərilmişdir. Bu nəticəni əldə etmək üçün də hər şeydən əvvəl üç ana fikir üzərində durduq: Türk millətinin tarixi, qurduğu dövlətlər və ata-babaları." Müəllif kitabını elə belə də adlandırıb.

"Türk kəlməsinin əsli və yayılması" adlı yazıda bir sıra alimlərin fikirlərinə istinad edən tədqiqatçı bu kəlmənin mənşəyini, etimologiyasını araşdırır, müqayisəli şəkildə təhlillər aparır və konkret nəticəyə gəlir. Burada Namiq Orxonun "Türk sözünün mənşəyi", Zəki Vəlidi Toqanın "Ümumi türk tarixinə giriş" adlı əsərlərinə müraciət edən müəllif macar alimi Vamberqinin, Von Le Qoq tərəfindən irəli sürülən, Nemeth, Müller və Tomson kimi alimlərin qəbul etdiyi açıqlamalardan sitatlar gətirir. Edkinsin və Srootun fikirlərinə müraciət edir, eyni zamanda səhv düşünən

tədqiqatçıların fikirlərinə də münasibətini bildirir. Bir sözlə, türk kəlməsinin haradan gəldiyini, necə formalaşdığını, bizə bu gün nələr dediyini açıqlamağa çalışır. Özünün yazdığı kimi "Nə idik, nə olduq?" sualına cavab verməyimizin vaxtı çatdığını qeyd edərək, fikrini belə yekunlaşdırır: "Tarixin ilk mədəniyyətlərində atalarımız böyük rol oynamışdlr. Çinin ilk çağları da, Misirin quruluş illəri də buna şahidlik edirlər. Fəqət, o mədəniyyətlər türk mədəniyəti deyildir, sadəcə onların quruluşlarında atalarımızın bir payı olmuşdur. Buna müqabil şumer mədəniyyəti tamamilə atalarımızın əsəridir."

"Türklərin soyu, dili və dünya dilləri" adlı yazıda türk tarixinə səyahət edən tədqiqatçı yenə də sözünə uzaq keçmişdən başlayır və müqayisəli şəkildə araşdırmalar apararaq, Orxon yazılarını, Mahmud Kaşğarinin "Divani-lüğatittürk" əsərini tarixi sənəd kimi təqdim edir və yazır: "Türk dilinin digər dillər üzərində də təsiri vardır. Keçmiş zamanlarda yer üzünün hər tərəfində mədəniyyət toxumları səpmiş olan türk millətinin dili digər qövmlərin dillərinə bir çox sözlər vermişdir. Bu sözlərin başqa dillərdəki qalıqları türk dilinin köhnəliyini və çox yayqın olduğunu isbat etməyə yetər. Yenə türk dilinin başqa dillərdə görülən izləri türk millətinin yer üzünün dörd tərəfinə münasibətdə olduğuna şahidlik edir. Bu cəhətlər az sonra türklərin başqa ölkələrlə olan münasibətlərini araşdırarkən daha yaxşı anlaşılacaqdır."

Daha sonra müəllif "Türklərin ana yurdu və köç hadisələri"ndən bəhs açır, türk tarixini dövrlər üzrə tədqiqata cəlb edir, müxtəlif ərazilərdə məskunlaşan türklərin tarixini izləyir, mədəniyyətlərinə əhatəli nəzər yetirir, tarixi çağlarda türklərin xasiyyətini belə açıqlamağa səy göstərir.

Tarixən türklərin qurduqları dövlətlərdən danışarkən Fazil Qaraoğlu bütün türk imperatorluqlarının, türk dövlətlərinin, bəyliklərin, atabəyliklərin, xanlıqların, respublikaların və sultanlıqların siyahısını da kitaba daxil etmiş, sonra isə

bircə-bircə bu qurumlar haqqında araşdırmalar apararaq, onların yaranmasını, yaşamını, süqutunu, bir sözlə, bütün yaşadıqları tarixi keçmişi az da olsa oxuculara çatdırmaq istəmişdir.

Mesopatamiyada şumer-türk dövlətlərindən başlayan müəllif İranda, Orta Asiyada, Orta Avropada və s.-də olan elamlılar, kasitlər, hunlar, sakarlar, iskitlər, medlər, piratlar, ağhunlar, göytürklər, avarlar, xəzərlər, şaman oğulları, qaraxanlılar, qəznəvilər, səlcuqlar, xarəzmşahlar, monqollar, qıpçaqlar, özbəklər, babürlər haqqında, onların imperatorluğu, dövlətləri haqqında məlumatlar vermiş, nəhayət, Böyük osmanlı imperatorluğu ilə bağlı geniş, əhatəli araşdırma apararaq, onun qurulmasını, yüksəliş dövrünü, durğunluq, geriləmə və islahatlar dövrünü, dünya müharibəsi və dağılma dövrünü əhatəli şəkildə açıb oxucuya göstərmişdir. Bu kitabda osmanlı imperatorluğunun sultanlarına xüsusi geniş bölmə ayrılmışdır ki, burada müxtəlif illərdə hakimiyyətdə olan sultanlardan I Osman qazi, Orxan qazi, I Murad xan, I Bəyazid xan, Çələbi Mahmud xan, II Murad xan, II Bəyazid xan, I Sultan Səlim xan, I Sülüeyman xan, II Səlim xan, III Murad xan, III Məhəmməd xan, I Əhməd xan, I Mustafa xan, II Osman xan, III İbrahim xan, II Məhəmməd xan, II Süleyman xan, II Əhməd xan, II Mustafa xan, III Əhməd xan, I Mahmud xan, I Osman xan, II Mustafa xan, I Əbdülhəmid xan, III Səlim xan, IV Mustafa xan, II Mahmud xan, Əbdülməcid xan, Əbdüləziz xan, V Murad xan, II Əbdülhəmid xan, Rəşid xan, Vəhdəddin xan haqqında, onların hakimiyyət zamanındakı fəalıiyyəti, şəxsiyyəti, səciyyəvi cəhətləri barədə geniş məlumat vermişdir.

Kitabın “Türk millətinin ata-babaları” bölümü Atatürk haqqında yazı ilə başlanır və onun “Nə xoşbəxtdir türkəm deyən” sözü epiqraf kimi səslənir. Bu yazıda bir sıra məsələlərə toxunan müəllif, Atatürkü bir şəxsiyyət kimi, bir türk oğlu kimi səciyyələndirməyə çalışır və yazır: ”Mustafa Kamal Atatürk ilə inqilabları arasında möhkəm bir bağ vardır.

Onun həyata keçirdiyi inqilablar tələbə Mustafa Kamaldan onun vəfatına qədər həyatının qayəsi, idealları, xəyalları və həyatının ayrılmaz bir parçası olmuşdur.”

Bu bölümdə müəllif türkün böyük övladlarından Alparslan, Alp Ər Tonqa, Atilla, Babür şah, Bilgə xan, Bilgə Tonyukuk, Qəznəli Mahmud, Əbülqazi Bahadur xan, Ər Manas, Dədə Qorqud, Ərtoğrul qazi, Koroğlu, Mətə xan, Teymur xan. Uzun Həsən, Uluğbəy, Çingiz xan, Məhəmmədəmin Rəsulzadə, Heydər Əliyev, şairlərdən Nizami, Nəsimi, Füzuli, Nəvai, Ziya Gögalp, İbrahim Abay. Yunus İmrə, Məhdimqulu, Mövlanə, Nazim Hikmət, Namiq Kamal, Şəhriyar, Bəxtiyar Vahabzadə, Səməd Vurğun, alimlərdən Mahmud Kaşğari, Zəməxşəri, İbn Sina, Əhməd Yəsəvi və bir çoxları haqqında ayrı-ayrı yazılar öz əksini tapmışdır.

Kitab bu gün türk millətinin tarixini, ədəbiyyatını, elmini, mədəniyyətini öyrənmək istəyənlər üçün olduqca qiymətli vəsaitdir. Professor Fazil Qaraoğlu bu kitabı ərsəyə gətirməklə böyük türk dünyasına dəyərli töhfəsini vermiş, eləcə də biz azərbaycanlıların Türk dünyasını öyrənməsi yolunda gərəkli iş görmüşdür. Bu kitab “türkəm” deyən, öz keçmişi ilə, tarixi, mədəniyyəti ilə fəxr edən hər bir türkün stolüstü kitabı ola bilər.

“Aydın fikir” qəzeti, 17-23.01.09

“MİLLİ SƏNƏTİN NƏZƏRİ TƏHLİLİNƏ GİRİŞ”

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda sözün əsl mənasında zəhmətkeş alimlər çalışır ki, bunlardan biri də Nəsib Göyüşovdur. Hər dəfə Nəsib müəllimin bir kitabını oxuyanda, haqqında nəsə yazmaq keçib fikrimdən.

Nəsib Göyüşovun ən çox xoşuma gələn kitablarından biri “Füzulinin sənət və mərifət dünyası”dır. Bu kitab çoxlarının çox şey öyrənə biləcəyi kitabdır. Burada diqqətimi çə-

kən ərəb və fars mənbələrindən tərcümə edilmiş ürfanla bağlı fikirlərdir. O fikirlər ki, anadilli ədəbiyyatlarda biz onlara rast gəlmirik. Nəsib müəllim yüzlərlə kitab araşdırıb bu kitabı ərsəyə gətirmək üçün. Bu kitab illərin gərgin əməyi sayəsində başa gəlib.

Nəsib Göyüşovun bir maraqlı kitabı da "Quran" və irfan işığında" adlanır.

Bu yaxınlarda Nəsib müəllim mənə "Milli sənətin nəzəri təhlilinə giriş" adlı kitabını verdi. Kitab giriş, üç fəsil və nəticədən ibarətdir. Elmi məsləhətçi əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Vasim Məmmədəliyev, elmi redaktorlar Kamil Allahyarov və Mahirə Quliyevadır.

Kitabın girişini oxuyanda mənə elə gəldi ki, bu kitab bəşər mədəniyyəti içində islam mədəniyyəti, islam mədəniyyəti içində Azərbaycan mədəniyyətinin araşdırılmasıdır. Müəllif ədəbiyyat, sənət və elm sahəsindəki uğurların məhz islam dəyərləri ilə paralel olduğu fikrini irəli sürür.

Kitabda inanc və mifoloji düşüncəyə, folklora, bədii-estetik dəyərlərə söykənən milli sənətin özəlliklərini elmi-nəzəri baxımdan təhlil etməyə çalışan müəllif qarşısına qoyduğu məqsədə çatmaq üçün hərtərəfli araşdırma aparmış və ortaya sanballı bir əsər qoymuşdur.

Kitabın "Milli sənətin nəzəri anlamı və ümumi özəlliklər-ri" fəslində müəllif, fikirlərini dörd geniş məqalədə açıqlayır. Ümumi sənət anlamından bəhs edərkən sənətin dəyərlər sistemindəki üç mühüm cəhəti (bədii-estetik və emosional-poetik duyum, milli-mənəvi özünüifadə və əxlaqi təkamül, intiutiv anlaq və intellektual qavrayış) diqqətə çatdıran alim sənəti bəşərin əqli-mənəvi təkamülünün nəticəsi hesab edir və onun təxəyyül və özünüifadə qabiliyyəti ilə bağlı olduğunu göstərir.

Mədəniyyət tarixi prosesinin dörd böyük mərhələdən (Şərq və yunandan öncəki qədim dövr, yunan dövrü və ya antik mədəniyyət, orta çağlar xristian və islam mədəniyyəti, yeni Qərb mədəniyyəti) ibarət olduğunu qeyd edərək, sənət dün-

yasına bu dövrlərin prizmasından baxan müəllif müxtəlif dövrlərin özünəməxsus cəhətlərini araşdırıb, əzəməti və dəyəri danılmaz olan böyük sənətkarların sənət dünyasına daxil olaraq, fikirlərini əsaslandırır. Sənətin təşəkkülündə önəmli olan hiss və duyğunun, intiusiya və təxəyyülün, vicdan və əxlaqın, intellekt və düşüncənin bir-birindən ayrılmaz olduğunu və hər bir sənət əsərinin estetik dəyərinin bütün tərəfləri özündə birləşdirdiyini açıqlayan tədqiqatçı ən qədim, ilkin bədii nümunələrə diqqət yetirir və bədii əsərin əsasında dayanan inanc və əxlaqi dəyərləri, ictimai, psixoloji-ruhi, tarixi-tipoloji amilləri, ümumbəşəri və texniki dəyərləri araşdırır.

"Folklor və mifoloji dönəm"i tədqiq edərkən antik dövr alimlərinin baxışlarına müraciət edən müəllif gəlib "Koroğlu"ya, "Dədə Qorqud"a çıxır. Ümumi paraleldə yunan, Misir mifologiyası, zərdüştlüyə və s. öz münasibətini bildirən tədqiqatçının nəzərindən heç nə yayınmır, hətta bu sahələrdə çalışan alimlərin adlarını da hörmətlə çəkir, təqdirəlayiq işləri diqqətə çatdırmağı özünə borc bilir.

"Klassik islam dövrü sənəti"ndən danışarkən müəllif islamın ilkin çağlarından başlayaraq, qədim və orta əsrlər dövrünün dünyagörüşünü müəyyən aspektlərdən açıqlamağa çalışır. Burada "Qurani-Kərim"ə müraciət edən müəllif islam baxışlarının əsas harmonik prinsiplərinin özəlliklərini yığcam və ümumiləşdirilmiş şəkildə təqdim edir.

"İlkin düzən" yazısında isə ümumbəşəri psixoloji, bədii-estetik dəyərlərdən bəhs edən tədqiqatçı sənətin bir-biri ilə qarşılıqlı əlaqədə iki qütbləşməsini diqqətə çatdırır və yığcam mənzərəsini göstərir.

"Klassik milli sənətin əsas növləri" fəslində xətt və təhzib, nəqqaşlıq, başqa naxış-bəzək işləri və xalça sənəti, memarlıq və musiqi sənətlərindən söz açılır. Müəllif xəttatlıqdan danışarkən yenə "Quran"a müraciət edir, ərəb əlifbasının hərflərinin, hətta xırda elementlərinin belə rəmzi mənaları olduğunu qeyd edir, xətt sənətinin geniş işlənmə çevrəsini diqqətə çatdırır, şeirlərdən nümunələr verir, bir sıra ür-

fani rəmzləri, bəzi hərflərin ifadə etdiyi mənaları açıqlayır.

Nəqqaşlıqda rənglərin fərqli cəhətlərə görə rəmzi məna daşıdığını qeyd edən müəllif orta çağda yeddilik rəmzi və yeddi rəng anlamının daha çox diqqəti cəlb etdiyini bildirir.

Müxtəlif bəzəklərdən və xalça sənətindən danışarkən qab-qacaq üzərindəki döymələrdən, qəndillərdən, kuzə və s. əşyalardan, eləcə də ağac, metal üzərində işlərdən, müxtəlif bölgələrin xalça, kilim, parça və s. toxuculuq işlərindən, hətta üzərində "Quran" ayələri toxunmuş səccadələrdən belə söz açır.

Memarlıqda da əsas islamla bağlı işlər, yəni məscidlər, türbələr və s. üzərindəki memarlıq işləri diqqəti çəkir. Musiqi hissəsində ilkin azan səsinə diqqət yetirən müəllif "Quran"ın avazla oxunmasından, Davudun nəğmələrindən söz açır, gəlib muğamlarımıza çıxır.

"Söz sənəti" fəslində sözün hikməti və qüdrəti, söz sənətinin musiqi düzəni, bədii təxəyyül və estetik dəyər diqqətə çatdırılır. Bu, kitabın ən böyük fəslidir. Müəllif milli ədəbi prosesi üç böyük dönəmə ayırır; əski mifoloji dönəm və folklar; ortaçağ klassik dönəm; yeni ədəbi proses və çağdaş dönəm. Bu dönəmlər arasında qırılmaz bir əlaqə olduğunu xüsusi vurğulayan müəllif, folklorun ədəbi prosesin təməli və ilkin kökləri, klassikanın isə həmin köklər üzərində boy atıb yetkinləşən ədəbiyyat sayıldığını, klassikanın həmişə yeniləşməyə meylli olduğunu və çağdaş ədəbi prosesin özündən öncəki hər iki qaynaqdan bəhrələnməklə özünə yer tutduğunu qeyd edir.

"Ədəbiyyat qəzeti", 27.07.07

"ORTA ƏSRLƏR QƏRB ƏDƏBİYYATI"

Son illər respublikamızın ali məktəblərində müxtəlif ixtisasların öyrədilməsi, yeni-yeni fənlərin tədrisinə başlanılması və eyni zamanda, dar çərçivədə keçilən fənlərin genişləndirilməsi kimi səmərəli təkliflərin həyata ke-

çirilməsi yeni dərsliklərin, dərs vəsaitlərinin yazılmasını tələb edir. Bununla əlaqədar olaraq alimlərimiz, pedaqoqlarımız tələbələrin materiala olan ehtiyaclarını ödəmək üçün yeni kitablar yazır, dərs vəsaitləri hazırlayırlar. Universitet müəllimlərinin formalaşmış, tədris metodlarına, prinsiplərinə cavab verə biləcək mühazirələrinin, elmi fikirlərinin yeni təfəkkür tərzinə, müasir filoloji tələblərə cavab verən materialların kitab şəklində işıq üzü görməsi, tələbələrə çatdırılması təqdirolunan haldır.

Əvvəllər Qərb ədəbiyyatı ilə bağlı materiallarla tanış olmaq üçün rusdilli mənbələrə müraciət edən tələbələrin işini asanlaşdıran kitablardan biri də bu yaxınlarda çapdan çıxmış "Orta əsrlər Qərb ədəbiyyatı" adlı dərslikdir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Tərlan Novruzovun ərsəyə gətirdiyi bu dərslikdə ali məktəb proqramını bütünlüklə əhatə edən mövzular işıqlandırılmışdır. Dərsliyin elmi redaktorları f.e.d. professor Rafael Hüseynov və f.e.n. dosent Zeydulla Ağayev, rəyçiləri f.e.d. professor Paşa Əfəndiyev, f.e.n. dosent Akif Əliyev və f.e.n. dosent Yeganə Abdullayevadır. Universitetlərin bakalavr və magistr tələbələri üçün nəzərdə tutulmuş bu kitabda erkən orta əsrlər və feodalizm dövrünün folkloru, intibaha keçid və intibah dövrünün Qərb ədəbiyyatı, XVII əsr Qərb ədəbiyyatı və onun görkəmli nümayəndələrinin yaradıcılığı əksini tapmışdır. Müəllif ön sözdə kitabı hazırlayarkən rusdilli mənbələrdən Azərbaycan alimlərinin son zamanlarda bu sahədəki tədqiqatlarından, metodik vəsaitlərdən və məqalələrdən istifadə etdiyini diqqətə çatdırır.

Birinci bölmənin "Orta əsrlər dövrü Qərb ədəbiyyatı" adlı fəslində müəllif göstərir ki, "Qərbdə erkən orta əsrlər dövrünün ədəbiyyatı inkişafının qeyri-bərabərliyi ilə səciyyələnir. Həqiqətən də son dərəcə inkişaf etmiş, yunan mədəniyyətinin nailiyyətlərinə əsaslanan yetkin latın ədəbiyyatı ilə yanaşı, hələ xalq kimi təşəkkül tapmamış barbar tayfalarının şifahi ədəbiyyatı mövcud idi". Müəllif burada latın ədəbiyyatının rəngarəng və əhəmiyyətli ro-

lunu qeyd edərək onun erkən dövrlərdən üzü bəri inkişafını izləmiş, onun nailiyyətlərini imkan daxilində işıqlandırmağa çalışmışdır. O, həmçinin qeyd edir ki, erkən orta əsrlərdə yazılı ədəbiyyat ancaq latın dilində yaradılmışdırsa da, səkkizinci əsrdən başlayaraq Avropanın gənc xalqlarının dillərində də yazılı abidələr yaranmışdır. III-V əsrlərdə Avropa ədəbiyyatının keçdiyi böyük inkişaf yolunu müəllif bu gün də öz dəyərini itirməyən müxtəlif janrlarda yazılmış əsərlərin yaranması ilə əlaqələndirir. V əsrdə latın ədəbiyyatının inkişafında baş verən köklü dəyişikliyi ictimai-siyasi şəraitlə bağlayan müəllif VI-VIII əsrlərin tarix elmində "Qaranlıq əsrlər" adlandırıldığını da diqqətə çatdırır.

Dərslikdə diqqəti çəkən cəhətlərdən biri də elə budur ki, burada ədəbiyyatı öyrənilən dövrün tarixi gedişatını da öyrənmək olur. Bu fəsildə Avropa eposundan "Kelt dastanı", "Kuxulin haqqında dastan", "Belovulf haqqında dastan", qədim german eposu nümunəsi kimi "Nibelunqlar haqqında nəğmələr" kimi əsərlərdən bəhs olunur. Alim burada əsərlərdən sitatlar, hətta əsərin əlyazmasından səhifə də verir ki, bunlar da fikirlərin əyaniləşməsinə kömək edir. Bu bölümdə qədim Skandinav ədəbiyyatından söz açan müəllif "Böyük Edda"dan, onun qəhrəmanlıq nəğmələrindən danışır. Burada həmçinin Egil Skalaqrimson, Snorri Sturlson, Ari Torqilsson kimi nümayəndələrinin yaradıcılığından fraqmentlərlə tanış oluruq. Fransız qəhrəmanlıq eposu "Roland haqqında dastan", ispan eposu "Sid haqqında dastan" kimi əsərlərin təqdimi və təhlili də qənaətbəxşdir.

Birinci bölümün ikinci fəsli feodalizm dövrü Qərb ədəbiyyatına həsr olunmuşdur. Burada iki mövzu əsas xətlərdir: cəngavərlik və müqəddəslik. Cəngavər (kurtuaz) ədəbiyyatının nümayəndələri trubadur və turverlər adı ilə adlandırılır. Trubadurların, yəni şairlərin poeziyasının rəngarəng, zəngin janr və formalarda olduğunu qeyd edən müəllif burada kansona, tensona, alba, ağı, sirventa, rastorel, serenada, ballada və romansdan söz açır, onların lirikasından danışır. Truverlərin isə xalq ya-

radıcılığı ilə bağlı olduğunu, eyni zamanda trubadurların təsiri ilə bəzi janr və formalarda da nümunələr yarandığını bildirir. Müəllif alman kurtuaz poeziyasının "miniezanq" (məhəbbət nəğməsi) üzərində qurulduğunu və trubadur poeziyasına nisbətən gec təşəkkül tapdığını qeyd edir. Burada həmçinin cəngavərlik romanlarından da söhbət gedir, "Tristan və İzolda" romanı təhlil edilir.

Bu fəsildə klerikal ədəbiyyatdan söz açan müəllif, onun latıncayla paralel yeni dillərdə yarandığını da qeyd edir və burada müqəddəslərə həsr olunmuş rəvayətlərdən danışır, ən məşhur əsər kimi "Müqəddəs Aleksey haqqında rəvayət"i təqdim edir. Orta əsrlərin şəhər ədəbiyyatından bəhs açan alim burada yaranan nümunələrin əsasən satirik xarakter daşıdığını bildirir və fransızların fabliolarından, fars və sotilərindən, almanların şvanklarından, italyanların novellalarından söz açaraq, Fransada yaranmış "Tülkü haqqında roman"ı geniş təhlillə təqdim edir. Bu fəsildə XVIII əsrdə geniş yayılmış "Mirakl" adlanan dramaturji janrdan danışan müəllif "Müqəddəs Nikolay haqqında oyun" adlı əsəri barədə məlumat verir və onu orta əsrlər dramaturgiyasının görkəmli nümunəsi kimi təqdim edir.

Kitabın ən önəmli cəhətlərindən biri də budur ki, T.Novruzov burada həm ədəbi əsərlərdən, həm həmin nümunələrin yarandığı ictimai-siyasi dövrdən, həm də nəzəri məsələlərdən danışır.

İkinci bölümdə artıq ayrı-ayrı Avropa bölgələrinin intibah dövründən, bu zaman yaranmış ədəbiyyatın konkret görkəmli nümayəndələrindən söz açılır. İtaliya intibahının görkəmli nümaynədəsi, "Şirin üslub" poetik məktəbinin yaradıcısı Qvido Qvintseli, Dante və onun "İlahi komediya"sı təqdim olunur. Fransız intibahından söhbət gedərkən Fransua Viyon və onun "Le", yaxud "Kiçik vəsiyyət" əsəri qeyd edilir. İngiltərə intibahından danışan müəllif intibahın sələfi Gefri Çoseri və onun "Kəntrbri hekayələri"ni təqdir edir. İntibaha keçid dövründən sonra intibah dövrünün Qərb ədəbiyyatından, onun xüsusiyyətlərindən danışan müəllif Petrarkadan, Bokkaççodan, Lun-

çi Pulçidən, Lorenso Mediçidən, Ancelo Polisianodan, Lüdoviko Ariostodan, Torkvato Tassodan söz açaraq onların yaradıcılığının İtaliya intibahındakı rolunu açıqlayır.

Niderland və Almaniya intibah ədəbiyyatından bəhs edərkən Höndrine van Foldensi, Rotterdamlı Erazmı, Ulrix fon Huttendi ön planda görürük.

Fransa intibah ədəbiyyatının görkəmli nümayəndələri Navarralı Marqarita, Fransua Rable, Pleyada dövrünün nümayəndələrindən isə Pyer de Ronser, Joaşen dü Bellenin diqqətə çatdırılır.

İspaniya və Portuqaliya intibahına gəlincə, Migel de Servantes İspaniya intibahının ən görkəmli nümayəndəsi kimi təqdim edilir.

İngiltərədə intibah ədəbiyyatı T.Eliot, R.Askem, C.Beyl, T.Dempion, C.Qiskoya, Xeyludin, Daniyel, V.Şekspir, T.Delonin, Vilyam Leqlendin kimi sənətkarlarla səciyyələnir. Burada müəllif V.Şekspirə və onun müasirlərinə geniş yer verir.

Kitabın üçüncü bölümündə Avropa ədəbiyyatında klassisizmdən söz açılır. Klassisizmdə yüksək və alçaq janrlara bölünən epopeya, faciə, oda və satira, təmsil, komediya kimi ədəbi nümunələrdən danışılır, XVI-XVII əsrlərdə bir sıra Avropa ölkələrində yaranan barokko üslubundan və rokoko cərəyanından bəhs edilir, alman, italyan və fransız ədəbiyyatının bu dövrdəki inkişafından, onun görkəmli nümayəndələrindən, ədəbi problemlərindən və ədəbi nümunələrindən danışan İ.Novruzov fikirlərini tarixi, ədəbi və nəzəri cəhətdən işıqlandırır.

Kitabın "XVII əsr alman ədəbiyyatı" və "XVII əsr italyan ədəbiyyatı" adlı yazıların müəllifi f.e.n. Afaq Nəzərovadır.

Kitabın sonunda zəngin ədəbiyyat siyahısı verilmişdir.

Kitab ali məktəb tələbələri üçün nəzərdə tutulsa da, bütün ədəbiyyat adamları üçün maraqlıdır. Qərb ədəbiyyatının orta əsrlər dövrünü öyrənmək istəyən hər bir adama dəyərli mənbə kimi zəngin məlumatlar verə bilər.

"Ədəbiyyat qəzeti" 20.10.06.

BÖYÜK ŞAİRƏ HƏSR OLUNUB

Azərbaycan ədəbiyyatında satirik şerimizin zirvəsini yaradan görkəmli sənətkarımız Mirzə Ələkbər Sabirin yaradıcılığı daim diqqət mərkəzində olmuş, onun yaratdığı ölməz "Höphopnamə" dəfələrlə tədqiqat obyektinə çevrilmiş, yüzlərlə məqalə, onlarla monoqrafiya yazılmışdır. Mollanəsrəddinçi Sabir o qədər tədqiqata cəlb edilmişdir ki, Azərbaycan ədəbiyyatşünaslığında sabirşünaslıq ayrıca bir elm sahəsi sayılmaqdadır. Sovet dövründəki bəzi qadağalar Sabir sənətindəki digər məqamların kölgədə qalmasına, yalnız satirik Sabirin məşhurlaşmasına şərait yaratmışdır. Amma məlumdur ki, ömrünün son illərini satiraya həsr edən şair qırx üç il lirik kimi qələm çalmışdır və Sabir lirikası heç də Sabir satirasından zəif deyildir. Biz burada lirik Sabirdən danışmaq fikrində deyilik, "Mirzə Ələkbər Sabirə yeni nəzər" adlı kitabımızda bu barədə kifayət qədər bildiklərimizi oxuculara çatdırmışıq. Bu gün isə Azərbaycan Milli Ensiklopediyası NPB-də nəşr olunmuş Seyidmiri Aslanovun "Mirzə Ələkbər Sabir yalnız şair idimi" adlı kitabının işıq üzü görməsi sabirşünaslıqda daha bir yeniliklə bizi tanış edir. Kitab tarixçi qələminin məhsulu olduğundan, təbii ki, burada Sabir yaradıcılığına tarixi baxımdan yanaşmanın şahidi oluruq.

"Mirzə Ələkbər Sabir tariximizin mükəmməl bilicisidir"–yazan müəllif eyniadlı fəsildə Azərbaycanın dövlətçilik tarixindən, eləcə də böyük türk tarixindən, bir qədər də uzağa getsək, ümumilikdə Şərq tarixindən söhbət açaraq, Sabir yaradıcılığından sitat gətirdiyi nümunələrlə fikirlərini təsdiqləməyə cəhd göstərir. Seyidmiri Aslanov öz fikirlərilə yanaşı, həm də ədəbiyyatşünasların Sabir yaradıcılığı haqqındakı əsərlərindən gərəkli fikirləri oxucuya xatırladır.

"Mirzə Ələkbər Sabir və din tariximiz" adlandırılan ikinci hissədə müəllif şairin islam dininə olan münasi-

bətini açıqlayır. Onun dini fanatizmə qarşı üsyankar səsini alqışlamaqla bərabər müsəlmançılığa və müqəddəs dini kitabımız olan Qurani-kərimə olan hörmətini, rəğbətini açıqlayır. Eyni zamanda şairin sünni-şiə məsələsinə münasibətini əsərlərindən götürdüyü sitatlarla bildirərək, onu alqışlayır.

Kitabın maraqlı fəsillərindən biri də ölkədə baş verən ictimai-siyasi hadisələrə şairin münasibətini əks etdirir. Müəllif yazır: "Onun oxucuda özünə böyük heyrət və səmimiyyət doğuran əsərlərində diqqəti xüsusilə cəlb edən məsələlərdən biri də ölkəmizdə yüz illər ərzində məskən salıb yaşamış və yaşamaqda olan xalqların həyatının müqayisəli təsviri məsələsidir. İlk nəzərdə adi görünən hadisələrin də təsvirində çox geniş aləm açaraq dərindən düşündürücü mənzərələr yarada bilən bu filosof təfəkkürlü şair ayrı-ayrı xalqların özünün yaşadığı dövrdə həyat və mədəniyyəti, onların inkişaf səviyyəsi ilə çox ciddi surətdə maraqlanmış və bu məsələlərin təsvir edilməsində öz ustad qələmilə xüsusi bir məharət göstərmişdir. M.Ə.Sabir özünün təmsil etdiyi azərbaycanlıların da daxil olduğu bütün müsəlman xalqları ilə yanaşı, dünyanın bir çox başqa xalqlarının (rusların, gürcülərin, ermənilərin, yaponların, almanların və s.) həyatını da yaxından öyrənərək əldə etdiyi geniş məlumatdan bu xalqların tarixi ilə əlaqədar çox ciddi nəticələr çıxarmışdır".

Seyidmiri Aslanov öz monoqrafiyasında şairin qadın azadlığı mövzusuna da geniş yer vermişdir. "Mirzə Ələkbər Sabirin imzaları" adlı yazıda isə oxucular daha maraqlı faktlarla tanış ola bilərlər.

Kitaba ədəbiyyat siyahısı və şairlə, onun kitabları ilə bağlı şəkillər də daxil edilmişdir. Kitab sabirsevərlərə dəyərli və maraqlı hədiyyədir. Bu, müəllifin Sabir haqqında ilk tədqiqat əsəridir və yəqin ki, sonuncusu olmayacaq. Müəllifə bu sahədə böyük uğurlar arzulayırıq.

"Ədəbiyyat qəzeti", 04.06.04.

ORXON-YENİSEY ABİDƏLƏRİNDƏ TOPONİMLƏR

Bu yaxınlarda Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun elmi işçisi, filologiya elmləri namizədi, Gənc Alimlər Şurasının sədri Sevinc Novruz qızı Əliyevanın "Orxon-Yenisey abidələrində toponimlər" adlı kitabı "Elm" nəşriyyatı tərəfindən çapdan buraxılmışdır.

Kitabın elmi redaktorları Milli Elmlər Akademiyasının müxbir üzvləri, əməkdar elm xadimləri, elmlər doktoru, professor Afad Qurbanov və Ağamusa Axundovdur. Rəyçilər filologiya elmləri doktoru Roza Eyvazova və f.e.d. professor Q.İ.Məşədiyevdir. Kitaba professor Afad Qurbanov gözəl ön söz yazmış və müəllifin gördüyü işi qiymətləndirmişdir. Əsər girişdən, üç bölmədən, nəticə, sözlük, ixtisarlar və ədəbiyyat siyahısından ibarətdir.

Girişdə müəllif Orxon-Yenisey abidələrindən, onların XIX əsrdə tədqiqata cəlb olunmasından və bu abidələrin VI-VIII əsrlərdə Qərbi və Şərqi Türk xaqanlığı dövlətlərinin tarixi, qonşu türk eposları ilə münasibətlərinin öyrənilməsi üçün əhəmiyyət kəsb etməsindən bəhs edir.

"Orxon-Yenisey abidələrində toponimlər. Etimoloji araşdırmalar" bölümündə Orxon-Yenisey abidələrinin tədqiqi tarixi və bu abidələrdəki toponimlərin mənşəyi araşdırılır. Müəllif burada müxtəlif mətnlərdən nümunələr verir və bu nümunələr əsasında toponimləri seçir, hər abidədə hansı toponimlərin qeydə alındığını göstərir. Mətnlərin orijinalı, transkripsiyası və mətnin tərcüməsi verilir, hətta hər bir toponimin abidələrdə neçə dəfə qeydə alınması da göstərilir.

"Orxon-Yenisey abidələrində toponimlərin morfoloji xüsusiyyətləri" bölümündə toponimlərin müxtəlif üsullarla yaranması göstərilir və leksik, morfoloji, sintaktik üsullarla yaranan toponimlərdən geniş bəhs edilir.

"Orxon-Yenisey abidələrində toponimlərin yaranmasında iştirak edən etnonimlər və qədim türk sözlərinin Cənubi

Qafqaz toponimikasında əksi” bölümündə türk, oğuz, avar, qırğız, kurikan, qıpçak, tatar, kitay və s. tayfalardan bəhs edilir. Abidələrdəki həm etnonimlərin, həm də qədim türk sözlərinin Cənubi Qafqaz toponimiyasında əksi göstərilir. Türk sözlərindən rəng bildirən, müsbət və mənfi relyef formalarını bildirən, təsərrüfat tikintisi, yaşayış yeri və düşərgə bildirən sözlər ayrıca yarımbaşlıqlar altında tədqiq edilir.

Hiss olunur ki, müəllif əsəri ərsəyə gətirmək üçün uzun müddət gərgin əmək sərf etmişdir. Kitaba daxil edilmiş sözlük, ədəbiyyat siyahısı da bunu sübut edir. Əsərdəki mətnlər, onların oxunuşunun necə çətin olduğunu bizə açıqlayır. Bizə elə gəlir ki, kitab dilçilik təhsili alan tələbələr, habelə aspirantlar və dissertantlar üçün gərəkli vəsait ola bilər. Biz müəllifi bu uğurlu işi üçün təbrik edir, ona gələcək elmi fəaliyyətində daha böyük uğurlar arzulayırıq.

“Paklıq” qəzeti, 25.10.03.

NƏSİRƏDDİN TUSİ ELM HAQQINDA

Bu yaxınlarda 800 illik yubileyini qeyd etməyə hazırlaşdığımız görkəmli alim Nəsirəddin Tusi (1201-1274) “Əxlaqi-nasiri”, “Tənsuqeyi-Elxani”, “Şərhül-işarət”, “Övsafül-əşraf”, “Ədəbül-mütəəllimin” və s. bu kimi qiymətli əsərlərilə ümumdünya şöhrəti qazanmışdır. Tusinin əsərlərində açıqlanan əxlaqi, fəlsəfi, riyazi, astronomik, tibbi və s. elmi fikirlər səkkiz əsrə yaxındır ki, tədqiqatçılar tərəfindən araşdırılır, özündən sonrakı alimlərin elmi fəaliyyətində tədqiqat obyekti olmaqla, həm də onlara yardımçı rolunu oynayır. Onun əsərlərindən bəhrələnmək bu gün də davam edir. Elmin bir çox sahələrində öz sözünü deyən alimin elm haqqında dedikləri də maraqlıdır.

Alim “Əxlaqi-Nasiri” əsərində yazır: “Elm varlıqların həqiqətən necə olduqlarını düzgün təsəvvür etmək, insanın

yaradıcı ağlı (nəfse-əmr) və sağlam düşüncəsi dairəsində, onun xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdir.”

Əsərdə Tusi elm öyrənməyin bünövrəsini, gediş xəttini, aşdığı sərhədləri də göstərir. Onun fikrincə, elmə uşaqlıqdan yiyələnmək lazımdır, lakin elm dalınca getməzdən əvvəl uşağa əxlaq dərsi keçmək, ondan sonra hikmət nəzəriyysini öyrətmək lazımdır. Əgər belə olarsa, uşaq əzbərləmə yolu ilə əldə etdiyi biliklərin mənasını düzgün anlar və bununla da böyük bir səadətə sahib olduğunu bilər, qazandıqları üçün də böyüklərinə təşəkkür edər. Doğrudan da bu günün alimlərilə müqayisə edəndə, (Əlbəttə, bu ağlasığmaz müqayisədir), keçmiş alimlərin öz müəllimlərinə olan hörməti, məhəbbəti müqabilində bugünkü bəzi alimlərin “mən, mən” deməklə, öz ustadlarını bəyənmədiklərinin şahidi oluruq. Belələri, Tusinin fikrincə, alim deyil, nadandırlar. Bir çox elmlər namizədi olan müəllimlərin vaxtilə dərs dediyi, lakin onlardan qat-qat savadsız olan “tələbələr”dən elmlər doktoru, professor olan, hər hansı bir mötəbər məclisdə müəllimi olan yerdə həyasızcasına durub elmdən dəm vuran, əslində isə öz savadsızlığını büruzə verən nadanlar azdırmı?...

Tusi fəzilətlərlə fəzilətə oxşayanları fərqləndirərkən ilkin olaraq hikmət sahiblərindən danışır: “Hikmət aləmində elə adamlar olur ki, elmi məsələləri toplayıb əzbərləyər, danışıq, söhbət, mübahisə zamanı başqalarından eşitdikləri, tutivari əzbərlədikləri incə həqiqətlərin birini elə bir tərzdə izah edərlər ki, qulaq asanların ağzı açıla qalar və belə adamların, həqiqətən, fəzilət, elm dəryası olduqlarını təsdiq edərlər, lakin əslində isə onların nəfsində bu deyilən şeydən heç bir əsər olmaz, onlar həqiqətləri düzgün dərk edib, dəqiq izah edə bilməzlər, onların yürütdüyü mühakimə, verdikləri məlumatlar şübhəli və etibarsız olar, elmə yiyələnməkdə onlar insan hərəkətlərini öyrənmiş bəzi heyvanlara və ya özlərini böyük göstərməyə çalışan uşaqlara bənzərlər.”

Tusi bunu cahillik adlandıraraq, belə xüsusiyyərti

mürəkkəb cəhlə misal göstərir və öz əsərlərində bunun əlacını da açıqlayır: "Bu cəhlin mahiyyəti ondan ibarətdir ki, nəfsin elmdən xəbəri olmadığı halda elə bilər ki, həqiqətən alimdir və məşğuliyyəti də elmdir..."

Tusinin fikrincə bu, ən dəhşətli rəzalətdir və nəfs həkimləri bu xəstəliyi müalicə etməkdə aciz qalırlar. Bunun üçün ən gözəl tədbir odur ki, həmin bu cəhalət sahibini riyazi elmlərlə məşğul olmağa məcbur edəsən. Əgər o maraqlanıb öyrənməyə başlasa, həqiqi elmin nə olduğunu başa düşər və onda ayılma baş verər. Sonra keçmişə baxıb öz alimliyinə şübhə edər, insafı olsa, səhvini başa düşüb" sadə cəhl" mərtəbəsinə enər və təlim-tərbiyə edilməsinə razı olar. Əgər ciddi elmlərlə maraqlanmaqdan boyun qaçırsa, deməli sağalması müşküldür."

Tusi hətta bir çox xofların, şəkk-şübhələrin elm ilə aradan qaldırılmasını qeyd edir və ölüm vahiməsinin əlacından bəhs edərkən yazır: "...Adamın ölümdən qorxusu nəfsin haraya qayıdacağını bilməməsidir, deməli onun qorxusunun səbəbi ölüm deyil, nadanlıqdır."

Tusiyə görə bu nadanlıqdan azad olmaq üçün çoxlu əziyyət çəkmək, cismani ləzzət və istirahətdən əl çəkmək lazımdır. Burada filosofların həyatını misal göstərən alim qeyd edir ki, əsl əziyyət cəhldir, əsl rahatlıq isə elmdir. Elmi olanların gözündə dünya nemətləri əhəmiyyətsizdir. Elmə yiyələnmək daimi səadət qazanmaqdır. Dünyagirlik sonsuzdur, bir arzuya çatdın, yenisi yaranar. "Əsl ölüm dünyagirlikdir, xof etdikləri dünyadan getmək deyildir." fikrini başa düşmək üçün elm öyrənmək lazımdır. Tusi "Əxlaqın saflaşdırılması" bəhsində də göstərir ki: "Elm bu dünyada da, axirətdə də həm ümüdə səbəb olar, həm qorxuya, çünki bu fəzilət əbədi, ölməz "mələk" nəfsinə aiddir."

Əlbəttə, Tusinin elm haqqındakı fikirlərini bu kiçik yazıya yerləşdirmək çətindir, bu, geniş elmi tədqiqat işinin mövzusudur...

"Azərbaycan XXI əsr" qəzeti, 16-22.05.01.

"KİTABİ-DƏDƏ QORQUD"DA ŞƏXS ADLARI"

Bu gün dünya miqyasında 1300 yaşı qeyd olunan "Kitabi-Dədə Qorqud" abidəsi tarixən keçdiyi yollarda bir çox olaylarla qarşılaşmış, hər dövrün keşməkeşindən azca saralıb-solmuş, hər dövrün təntənəsindən bir qədər zinətlənmiş, nəhayət, bu gün əlimizdə olan şəklə düşmüşdür.

Bu gün hər bir alim bu qiymətli abidənin tədqiqində daha bacarıqla qələm sınayır. Axtarışlar, tapıntılar bu gün "Kitabi-Dədə-Qorqud"a müxtəlif tərəflərdən baxmağa imkan yaradır. Tədqiqat işində, xüsusən, dilçi alimlərimizin xidməti əvəzsizdir. Son vaxtlar bu sahədə dəyərli kitablar işıq üzü görmüşdür ki, bu kitablardan biri də Azərbaycan EA-nın müxbir üzvü, professor Afat Qurbanovun elmi redaktorluğu ilə "Elm" nəşriyyatında çap olunmuş, filologiya elmləri doktoru Əzizxan Tanrıverdiyevin "Kitabi-Dədə Qorqud"da şəxs adları" əsəridir. Əsərə N.Tusi adına Pedoqoji Universitetin müəllimlərindən prof. V.Əliyev, prof. Q.Məşədiyev, dos. R.Qafarlı, tənqidçi Ə.Qənbəroğlu və İ.Abbasiov" rəy vermişlər.

"Kitabi-Dədə Qorqud"da şəxs adları ilə bağlı ara-sıra məqalələr yazılsa da, hərtərəfli tədqiqata, araşdırmalara, yeni tapıntılara əsaslanan geniş həcmli samballı bir əsərə ehtiyac duyulurdu. Ön sözün müəllifi İ.Abbasov bunu olduqca gözəl açıqlayaraq, iradını bildirir və görkəmli türkoloq Samət Əlizadənin fikrini təsdiqləyir: "Dastanın görkəmli tədqiqatçısı prof. Samət Əlizadə hələ 1989-cu ildə yazlırdı ki, "Kitabi-Dədə Qorqud"dakı xüsusi maraq doğuran bir sıra adlar tarixi-etimoloji istiqamətdə tədqiqini gözləyir". Hər bir adla bağlı aparılan araşdırma, yürüdülən fikirlər, istifadə olunan qaynaqlar, nəhayət, ortaya çıxarılan faktik material maraq doğurmaya bilmir. Əlbəttə, tarixi-etimoloji təhlildə müxtəlif fikirlər, bir-birini təsdiq və ya təkzib edən baxışlar təbiidir. Burada fikirlər haçalana bilər, hər bir alim öz baxışını müdafiə üçün söz tapa bilər, fikrini əsaslandıra bilər. Əzizxan müəllimin əsərində diqqəti cəlb edən bir cəhət də onun digər

alimlərin fikirlərinə istinad etməsi, özündən əvvəlki mənbələrə öz münasibətini bildirməsi və sonra özünün sərrast fikrini açıqlamasıdır. Tədqiqatçı-alim yüzlərlə ədəbiyyatdan istifadə edərək, təkcə Azərbaycan alimlərinin deyil, həm də xarici ölkə mütəxəssislərinin əsərlərindən də sitatlar gətirmiş, öz fikrini hərtərəfli əsaslandırmaq üçün bəzən bir ad ilə bağlı bir neçə fikrə istinad etmişdir.

Bu gün gənc türkoloqun A.Qurbanov, S.Əlizadə kimi alimlərin ardıcılı olaraq isrtiqamətlənməsi, hər hansı bir elmi problemi həll edə biləcək mövzulara müraciət etməsi və ortaya belə bir samballı monoqrafiya çıxararaq, öz mənini təsdiq edə bilməsi doğrudan da böyük cəsarətdir. Biz Əzizxan müəllimə tutduğu keşməkeşli, lakin çətin olduğu qədər də müqəddəs olan bu yolda yeni uğurlar diləyir və ondan daha böyük tədqiqatlar, elmi əsərlər gözləyirik.

"Azərbaycan XXI əsr" qəzeti, 23-29.02.2000.

DİL TARİXİMİZDƏN

Azərbaycan EA Nəsimi adına Dilçilik İnstitutunun elmi əməkdaşı, filologiya elmləri doktoru, "Kişvəri Divanının dili", "Əfqanıstanda türk mənşəli toponimlər" adlı monoqrafiyaların, bir çox kollektiv əsərlərin və 50-dən artıq elmi məqalənin müəllifi Roza Hüseyn qızı Eyvazovanın "Otra əsr ədəbi dil əlaqələrinin Kişvəri əsərlərində təzahürü" adlı kitabı bu yaxınlarda "Elm" nəşriyyatında çapdan çıxmışdır. Giriş və iki fəsildən ibarət olan bu əsər Kişvəri Divanının linqvistik təhlili olsa da, burada dil tarixuimizin müəyyən dövrü, bu dövrün ədəbi dil əlaqələri haqqında məlumat əldə edilir. Müəllif təhlil üçün Kişvəri Divanının EA Əlyazmalar İnstitutunda M-27/8408 şifrəsi altında saxlanılan Bakı nüsxəsini əsas götürmüş, burada olmayan əsərlər üçün isə Özbəkistan Şərqşünaslıq İnstitutunda 652 nömrəli əlyazma içərisində olan Daşkənd nüsxəsinə müraciət etmiş, müqayisəli təhlil aparmışdır. Orta əsr ədəbi dil əlaqələrinin Divan-

da təzahürünü açıqlamaq üçün dil tarixinə nəzər salaraq dilimizin Kişvəri dövründə hansı təsirlərə məruz qaldığını və hansı dillərin Azərbaycan dilinin formalaşmasında, təşəkkül tapmasında əhəmiyyətli rol oynadığını qeyd etmişdir. Tədqiqatçı-alim həmçinin Kişvəri Divanı haqqında yazılmış elmi-tənqidi əsərlərə müraciət etmiş görkəmli alimlərdən Həmid Araslının, Məhəmməd Əli Tərbiyətin, Pənahi Makulunun adlarını xatırlamış, onlardan sitat gətirmişdir.

Orta əsr ədəbi dilimizin cığatay ünsürlərinə məruz qaldığını qeyd edən müəllif, Kişvəri şeirinə Nəvai təsirindən və özbək ədəbi dilinin təsirindən danışmışdır.

Əsərdə Kişvərinin yaşadığı dövr haqqında danışılmış, hakimiyyətdə olan şahların şairə münasibəti də bildirilmiş, Həbibi ilə dostluğu, Nəsimi irsinə bağlılığı şeirlərindən götürülən misallarla açıqlanmışdır.

Şairin əsərlərinin leksikasından danışan tədqiqatçı Divanda klassik ənənə ilə bağlı qədim ifadə vasitələrindən, sabit söz birləşmələrindən, məcazlardan, omonim, sinonim və antonimlərdən, habelə alliterasiya və təkrir kimi ifadə vasitələrindən bəhs edir.

I fəsildə əsas yeri qrammatık kateqoriyalara və isim, sifət, say, əvəzlik, zərf kimi nitq hissələrinə verən müəllif, hal, mənsubiyyət, kəmiyyət və xəbərlik kateqoriyalarını şairin əsərlərindən gətirdiyi misallarla aydınlaşdırır, ayrı-ayrı nitq hissələri üzərində apardığı müşahidələri əyani şəkildə oxucuya çatdırır.

II fəsil tamamilə feildən bəhs edir. Burada həm bugünkü dilimiz üçün arxaik olan feillərdən, həm də canlı danışıq dilində, dialekt və şivələrdə olan feillərdən danışılır və əsərlərdən misallar verilir. Tədqiqatçı bununla dilimizdəki feillər ilə yanaşı başqa türkdilli xalqların dilində olan feillərin ümumi mənzərəsini müqayisəli şəkildə göstərir.

Kitabın sonunda nəticə və ədəbiyyat siyahısından sonra Kişvəri Divanının surəti verilmişdir ki, bu, kitabın dəyərini daha da artırır.

"Yeni Azərbaycan" qəzeti, 21.04.99.

SONA XƏYALIN QISA TƏRCÜMEYİ-HALI

Sonaxanım Həmid qızı Hadiyeva 1961-ci il iyunun 19-da Bakının Maştağa qəsəbəsində anadan olub. 1976-cı ildə 255 saylı səkkizillik məktəbi, 1978-ci ildə 187 saylı orta məktəbi bitirib.

1981-ci ildə Bakı 1 saylı Tibb Məktəbinin mamalıq şöbəsini, 1991-ci ildə BDU-nun biologiya fakültəsini bitirmiş, 1986-88-ci illərdə İxtiraçılıq İnstitutunda, 1995-1999-cu illərdə Elmi-Tədqiqat Əkinçilik İnstitutunun aspiranturasında (qiyabi) təhsil almışdır.

Tibb məktəbində oxuyarkən, 1979-cu ilin sentyabrında 7 saylı Birləşmiş Şəhər Xəstəxanasının laboratoriya şöbəsinə işə qəbul edilmişdir. Tibb Məktəbini bitirdikdən sonra xəstəxananın cərrahiyyə şöbəsinə tibb bacısı vəzifəsinə keçirilmiş və altı aylıq anesteziya və reanimatologiya kursuna göndərilmişdir. Bir müddət cərrahiyyə şöbəsində çalışmış, yenidən laboratoriya şöbəsinə böyük laborant vəzifəsinə keçirilmişdir. Kliniki, biokimyəvi, seroloji laboratoriya kurslarında təkmilləşmişdir. Qiyabi təhsil aldıqdan sonra bir il laboratoriya həkimi işləmiş sonra həmin laboratoriyaya müdir vəzifəsinə təyin olunmuş və beş il bu vəzifədə çalışmışdır. İki il tədris-istehsalat kombinatında IX-X siniflərə tibb bacısı kursunu tədris etmiş və daha sonra Maştağa Mədəniyyət Evindəki ikillik tibb kursunu aparmışdır. Xəstəxanada işlədiyi on yeddi il ərzində dəfələrlə müdiriyyətin, rayon səhiyyə şöbəsinin, rayon icraiyyə komitəsinin və rayon komsomol komitəsinin

fəxri fərmanları ilə təltif edilmişdir. Beş il xəstəxana komsomol təşkilatının katibi, daha sonra həmkarlar təşkilatının sədri vəzifələrində çalışmışdır. İşlədiyi müddətdə bir sıra qəzet və jurnallarda elmi-publisistik, tibbi-bioloji yazıları, habelə elmi hekayələri çap olunmuşdur. Hal-hazırda Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda böyük elmi işçi vəzifəsində çalışır, elm tarixi ilə məşğuldur.

* * *

Qarabağ münaqişəsi başlandıqda hərəkata qoşulmuş, bir sıra qadın təşkilatlarında qaçqınlarla iş aparmış, bir sıra yardımların təşkilində iştirak etmiş, dəfələrlə cəbhə bölgələrinə getmiş, qaynar nöqtələrdə belə, əsgərlərlə görüşmüş, bir müddət könüllü hərbi qospitalda laboratoriya həkimi kimi çalışmışdır. Həmin müddətdə müxtəlif qəzetlərdə vətənpərvərlik mövzusunda onlarla publisistik məqalələri çap olunmuş, «Maştağadan Qarabağa bir yol vardı gedərgəlməz» adlı kitabını yazmışdır. 1992-ci ildə ikillik Jurnalist Sənətkarlığı İnstitutunu bitirmiş və 1993-cü ildə Azərbaycan Jurnalistlər Birliyinə üzv qəbul olunmuşdur. Maştağa Mədəniyyət Eivndə Gənc jurnalistlər dərnəyi təşkil etmiş və onun rəhbəri olmuşdur. «Murovdağ», «Paklıq» və «Vətən həsrəti» qəzetlərində müxbir işləmişdir. Sonralar "Respublika" qəzetinin əməkdaşı olmuşdur. 2008-2009-cu illərdə "Yazıçı qadın" jurnalının baş redaktor müavini olmuş, hal-hazırda «Paklıq» qəzetinin baş redaktorudur.

* * *

Sona Xəyal 12 yaşından şeir, 14 yaşından hekayə yazmağa başlayıb. 1987-ci ildə Maştağa Mədəniyyət Evində Novruz Gəncəlinin təşkil etdiyi Səməd Vurğun poeziya

klubunun üzvü olub və həmin il «Azərbaycan gəncləri» qəzetində Novruz Gəncəlinin «Yaradıcılıq iradə tələb edir» adlı «Uğurlu yolu» ilə birlikdə ilk şeiri dərc olunub.

1993-cü ildə «Aç qapını gəlim, dünya» adlı ilk şeirlər kitabı çap olunub. Həmin il Maştağa Mədəniyyət Evində «Maştağa şairlər məclisi»ni təşkil edib, məclisin sədri olub. 1994-cü ildə «Məcməüşşüəra» ədəbi məclisinin üzvü olub və elə həmin ilin dekabrında Hacı Maillə birlikdə «Füzuli ədəbi məclisi»ni təşkil edib, məclisin katibi olub. 1995-ci ildə Füzuli məclisinin nəzdində Maştağa qəsəbəsində «Şəfai», Bakıxanov qəsəbəsində «Qüdsi» və I Zabrat qəsəbəsində «Vahid» ədəbi məclislərini təşkil edib. 1996-cı ildə Məhəməd Füzuli adına Əlyazmalar İnstitutuna işə qəbul olunub və XIX əsrin dəyərli şairlərindən «Mirzə Əbdülxaliq Yusifin həyat və yaradıcılığı» mövzusunda namizədlik işi yazıb. Sonralar II Zabrat qəsəbəsində Mədəniyyət Evində «Yusif» ədəbi məclisini təşkil edib və ona rəhbərlik edib. Hacı Mailin vəfatından sonra Füzuli ədəbi məclisini bərpa edib. Amma məclis davam etməyib. 2000-ci ildə ustadına verdiyi sözə əməl edərək «Divan» bağlayıb. 2005-ci ildə həmin divandan seçilmiş 101 qəzəl daxil edilmiş «Qəzəllər» kitabı nəşr olub. Nəhayət: Maştağada «Bakı şairlər məclisi»ni yaradıb, əruz vəznli şeirin inkişafı üçün bakılı şairləri bir araya gətirmək istəyib, yenə alınmayıb, bir müddətdən sonra məclis dağılıb. Bütün bunlardan sonra məclislərdən yığışıb. Əlyazmalar İnstitutunda ciddi tədqiqat işi ilə məşğul olmağa başlayıb. Bir-birinin ardınca bakılı şairlərin şeir kitablarını nəşrə hazırlayıb və klassik şeirlə bağlı iyirmiyə yaxın təlif və tərtib kitabları nəşr olunub. Qəzet və jurnallarda, eləcə də konfrans materiallarında klassik şeirlə bağlı iki yüzdən artıq məqaləsi çap olunub.

* * *

1993-98-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində axşam, 2004-06-cı illərdə Bakı Slavyan Universitetinin magistiraturasında qiyabi təhsil alıb, 1997-98-ci dərs ilində 255 saylı orta məktəbdə biologiya və dil-ədəbiyyat fənlərini tədris edib.

1998-ci ildə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edilib. Yazıçıların XI qurultayına nümayəndə, qurultaydan sonrakı plenumda Yazıçılar Birliyinin «İrs» komissiyasının sədri seçilib. Altı il müasir ədəbiyyatın tədqiqi ilə məşğul olub və «Müasirlərim» seriyasından iyirmidən artıq monoqrafiya yazıb. Yaradıcılığı bir sıra mükafat və diplomlarla qiymətləndirilib. Dövri mətbuatda çağdaş yazıçılar haqqında məqalələrlə çıxış edib. «İrs» komissiyasının işi kimi dünyasını dəyişmiş şairlərlə bağlı xatirə kitabları və «Yüzilliklər» silsiləsindən toplular üzərində çalışır.

2003-cü ildə Akademiyada qadın alimləri birləşdirən və onların elmi fəaliyyətinin tədqiqi və təbliği ilə məşğul olan «Nigar» elmi-ədəbi məclisini yaradıb, hal-hazıra qədər onun sədridir. 2009-cu ildə «Gənc qələm» ədəbi birliyini yaratmışdır. 2011-ci ildə “Ziyalı qadınlar məclisi”ni yaradıb, onun sədridir.

MÜNDƏRİCAT

Sona Xəyal qələmində Azərbaycan ədəbiyyatşünaslığı məsələləri 3
"Rəsul Rza poeziyası ədəbi tənqiddə" 7
"Aşıq Şəmşirin poetik aləminə səyahət"..... 10
"Yaşamaq, yaşatmaq, yaratmaq" 15
Dərviş Nidainin "Mənafeünnas" əsəri və onun dili 19
Novxanı..... 27
"Obrazlar aləmində" 32
"Vahid Əlioğlunun poetik dünyası"..... 38
"Yusif Vəzir Çəmənzəminli və rus mədəniyyəti" 43
Poeziyanın sirri 47
Qürbət Mirzəzadə - 50 52
Raqif Nazimoğlu yaradıcılığı..... 58
Şeyx Məhəmməd xiyabanı..... 61
Şah və şah obrazı 65
Yaddan çıxmayacaq 68
Alim qadınlarımız: Tahirə Həsənzadə 72
Böyük türk milləti 74
"Milli sənətin nəzəri təhlilinə giriş"..... 78
"Orta əsrlər qərb ədəbiyyatı" 81
Böyük şairə həsr olunub 86
Orxon-Yenisey abidələrində toponimlər..... 88
Nəsirəddin Tusi elm haqqında 89
"Kitabi-Dədə Qorqud"da şəxs adları" 92
Dil tariximizdən 93
Sona Xəyaın qısa tərcümeyi-halı 95

S o n a X ə y a l

YADDAŞLARDA YAŞAYACAQ

Naşir: Rafiq Xan-Sayadoğlu
Korrektor: Nuranə Axundzadə
Texniki redaktor: Ülvi Arif
Dizaynerlər: Ceyhun Əliyev, İradə Əhmədova
Operator: Rübabə Vəliyeva

Yığılmağa verilmişdir: 15.10.2010
Çapa imzalanmışdır: 18.11.2011
Tiraj: 300 ş.ç.v. 8
“MBM” mətbəssində çap edilmişdir.